Vahid Məmmədli

# LEYLİ VƏ MƏCNUN

roman



# Vahid Məmmədli
# Leyli və Məcnun

*http://www.litres.ru/pages/biblio_book/?art=70363585*
*SelfPub; 2024*

## Аннотация

Vahid Məmmədli özünün "Leyli və Məcnun" romanı ilə modern yeniliklərə tabe olan dünyanın önünə Eşq təlimi ilə çıxıb. Əsəri oxuyarkən şüurumuzda, şüuraltımızda irfani dəyərlər və anlayışlarla bağlı sakral bir qat açılır. Deyilənlərdən başqa bir də deyilməyən, görülənlərdən başqa görülməyən nəsnələr yaddaşımızda geriyə doğru uzun məsafələr qət edir. Yığılmış bədii təcrübə və təhtəlşüurun arxetipləri bərabərləşib yeni modelin sxemini müəyyənləşdirmiş olurlar. Vahid Məmmədlinin "Leyli və Məcnun" əsəri bu mənada, yeninin modelini sərgiləyir…

# Vahid Məmmədli
# Leyli və Məcnun

Hər şey çox gözəldi, ta ki vəzir Valid ibn Tarifinin Şəmsi saraya gətirdiyi günə kimi…

…Bərdənin ən gözəl vaxtları, yaz çağıydı. Hökmdar bihuşedici ətirləri ətrafa yayılan rəngarəng qızılgülləri, tərtəmiz mavi səmanı pəncərədən seyr edir, bülbüllərin cəh-cəhini dinləyirdi. Cənnəti bu dünyada qazandığından əmin olan ibn Məhan: "Mən güclüyəm… Mən hakimi-mütləqəm… Bu cənnət bağındakı güllərdən daha gözəl olan hurilər hər gün Allahın mənə yeni mükafatıdır…" – deyə Tanrının seçilmiş bəndəsi olduğu üçün kim bilir neçənci dəfə qürrələnirdi. Gəncliyini eyş-işrətdən başqa bir şeyə sərf etməyi fürsəti fövtə vermək ağılsızlığı hesab edirdi. Tək istəyi bu cənnət bağında elə bu minvalla da ömür sürməkdi. "Onsuz da Arrandan Şirvana kimi təbəələrim quzu kimi sakit, itaətkardır. Hər şey necə də gözəl vaqe olur, ilahi!… Valid ibn Tarifi kimi bir vəzirimin olması da taleyin lütfüdür, xalqı ovcunun içində sıxıb saxlayır. Vəzirim güclüdür, öz hökmdarını düşünür, taxt-tacımı qoruyur…" – ibn Məhan arabir qurtumladığı şərabdan daha çox öz düşüncələrindən məst olurdu.

Üzünü yana çevirəndə qarşısında at belində bir huri-mələk canlandı, gözlərinə inanmadı. İndiyə kimi əlindən yüzlərlə

kəniz keçirmiş ibn Məhan gördüyü bu gözəlliyi xəyal belə edə bilməzdi. Beyni dumanlı olduğundan gözlərini yumub yenidən açdı. Yox, bu, xəyal deyildi! At aramla addımladıqca üstündəki məxluqun hər əzası sanki ayrı-ayrılıqda hərəkət edir, qızın bədəninin hər tərəfi ona fərqli cənnət meyvələrini xatırladırdı. İbn Məhan şəhvətindən az qalırdı, elə indicə irəli atılıb qızı atın belindən güllərin üstünə endirib…

Özünü ələ ala bilməyəcəyini görüb, qulluğundakı Xacə Məluma bağırdı. Xacə bir göz qırpımında onun qarşısına keçib təzim elədi:

– Buyurun, hökmdar!

İbn Məhan ötüb-keçən atlıya başı ilə işarə edib soruşdu:

– Mən xəyalmı görürdüm?

Xacə Məlum gözünü hökmdarın ayaqları altındakı Şirvan xalısından çəkmədən dilləndi:

– Xeyr, hökmdar, xəyal görmürdünüz. At belindəki Valid ibn Tarifinin yeni kənizidir, – deyə çətinliklə udqundu. Vəzirin yeni kənizinin gözəlliyi Xacə Məluma xədimliyini unutdurmuşdu.

– Vəziri çağırın! – hökmdar qəzəblə əmr elədi.

Ömrü boyu həyəcanlanmamışdı. Yeniyetməliyində dağların arasındakı kəndlərindən at belində enib, çay boyunca ələ keçirdiyi qoyun-quzunu qabağına qatar, yenidən dağlara çəkilərdi. Bir tükü də tərpənməz, üzünün ifadəsi dəyişməz qalardı. Bir adam bilməzdi ki, bu anda vəzir nə düşünür. Bu, Tarifinin ən böyük silahı idi, vəzirliyə də bunun sayəsində gəlib çatmışdı.

İbn Məhanın sarayına tərəf gedəndə sifəti heç bir şey ifadə etməsə də, içində bic-bic güldü: “Şəms sənindir, hökmdar! – Sonra bir ah çəkdi. Bu ahı da kimsə duya bilməzdi. – Məni ağılsızmı sanırsan, hökmdar? Al, bu huri sənin olsun, bir neçə ay ağlını başından alsın. Mən də öz hurim Müsəffa ilə kef edəcəm. Onu görsən, boynumu həmin an vurdurarsan. Şəms səni belə dəli edibsə, Müsəffanı görsən, neylərsən? Vermərəm!…” Saraya girənə qədər yol boyu öz-özü ilə danışdı. Hökmdara təzim edib, əbasının ətəyindən dönə-dönə öpdü.

– Hökmdar, bizimkilər bu gün bir kəniz göndəriblər. Uzaq qohumumdur. Xacə Məluma tapşırdım ki, axşama hazırlasınlar. Uyğun görərsinizsə, məmnun olaram. Şəms sizə layiqdir…

İbn Məhan qımışdı: “Sizinkilərin cinsi bir başqadır. Sanki onları doğmurlar, yaradırlar…”

O gecə ibn Məhan cənnətin ən son qatına çatdığına inandı. Uzun illərdən sonra ilk dəfə idi özünü bu qədər arzuolunan hiss edirdi. Gündəlik vərdişə çevrilən xəlvətlərdən usanmış ibn Məhan üçün Şəms onu birdən-birə on səkkiz yaşına qaytaran dirilik suyu idi. Hökmdar gecə demədən, gündüz demədən, iş-gücünü boşlayıb günlərini Şəmsin qoynunda keçirir, bu gözəl kənizin yanında zaman anlayışını itirir, taxt-tac gözünə görünmür, dünya bu bircə yataq otağına dolurdu. Kənizinin həm titrək-məsum, həm əmin-ehtiraslı davranışları hər gün yenidən ağlını başından alırdı. Əsl Şəms bunların hansıdır, anlaya bilmir, anlamağa da çalışmırdı. Qarşısında quzu kimi əsən, həmişə əmrinə müntəzir dayanan cariyələrdən usanmış hökmdar özünü

məmnuniyyətlə Şəmsin ixtiyarına vermişdi.

Qüdrət sahibi hökmdar uzun dəqiqələr, saatlar boyunca özünü könüllü əsirlikdə hiss edir, bu əsarətdən qurtulmaq istəmir, yanlış olduğunu bildiyi halda, işi-gücü vəzir-vəkilin ixtiyarına buraxıb günlərini Validin bəxşişi olan kənizlə keçirməyə davam edirdi. Hər səhər müəzzinin səsi sübhün alaqaranlığında Tanrı hüzuruna çağırış edəndə günah hissi Şəmsin incə barmaqları kürəyini cızdığı kimi ürəyini cızsa da, bu təlaş cəmi bir neçə dəqiqə sürür, dəvəti duymazdan gəlib qızın qollarında özünü ölməzlik iksiri içmiş kimi qüdrətli hiss edirdi. Şəms sanki qadın yox, bu günə kimi görmədiyi, qadın cinsindən olan nəsə başqa bir məxluq idi. İbn Məhan qızın cənnətdən məxsusi onun üçün göndərilmiş huri olduğuna əmindi…

***

Bu il dəvələr qısırdı. Payızda baş vermiş zəlzələ təkcə adamları qorxuya bürüməmişdi. Bərdədən Şamaxıya qədər düzlərdə hər yay analarının yanında min bir oyun çıxaran, ora-bura qaçışıb körpə uşaqlar kimi oynaşan köşəklər gözə dəymirdi. Aclıq bütün Arranı, Şirvanı sarmışdı. Xəzinə boşaldığından ibn Məhan baş vəzirini xalqdan vergi toplamağa göndərdi. Yol boyu son dəvəsini verməkdən imtina edənlərin boynunu vurdurur, xalqı talan edirdilər. Valid ibn Tarifi ən böyük vergini Şamaxı dağlarındakı tərəkəmələrdən toplayacağını düşünürdü.

Köçərilər Şamaxı dağlarından Dərbəndə kimi Qafqaz dağlarının ən yüksək zirvəsində, göy çəmənliklərin qoynunda

alaçıqda, qazmalarda yaşayır, saysız-hesabsız qoyun-quzu bəsləyirdilər. Sürü köçərinin hər şeyi idi. Yedikləri, qoyunun əvəzinə aldıqları undan bişirilən lavaş, qatıq və pendir idi.

Tərəkəmələrin itlərindən, bir də toppuzbaşlı çoban çomağından başqa silahları olmazdı. Ta Dəşti-Qıpçaqdan buralara qədər köç edə-edə bütün dağlıq əraziləri tutmuşdular. Yaylaqları da qışlaq ərazilərə yaxın dağlarda idi. Arrana enməzdilər.

Vergi söhbəti tərəkəmələrə də gəlib çatmışdı. Valid ibn Tarifinin bir neçə atlısı arxayınlıqla elat sürüsünü aparmaq istəyəndə Ayna xatun adlı çoban arvadı ərinin çomağını götürüb atların ombasından necə vurmuşdusa, hürkmüş heyvanlar əsgərləri bellərindən atıb qaçmışdılar. Yaşlı qadına əl qaldırmayan əsgərlər əlacsız qalıb geri dönmüşdülər.

Ayna xatunun əri çoban Həmid elat camaatına yalnız yerlilərin bildiyi gizli mağaraya toplaşmağı tapşırdı. Sürüləri də çəkib apardılar. Mağara sıldırım qayalarda, gözlə görünməz, ağlagəlməz yerdə idi, içinə bir dağ sığardı.

Valid ibn Tarifi axsaya-axsaya geri dönən əsgərlərini görüb, qəzəbindən onları qamçılatdı. Qoşunu götürüb dağlara, tərəkəmə obalarına hücum etdi. Yaylalara çatanda qoşun da, atlar da əldən düşmüşdülər. Çadırlarını qurub bir az dincələndən sonra Valid hər istiqamətdə yüz əsgər göndərib belə əmr elədi: “Sürüləri ilə bir yerdə tərəkəmələrin ya ölüsünü, ya da dirisini, tapıb gətirin!”

Arran qoşunu yeddi gün, yeddi gecə bütün dağları ələk-vələk

eləsə də, tərəkəmələri gördüm deyən olmadı. Hərəsində yüz əsgər olmaqla on istiqamətdə axtarış aparan dəstələrdən bəziləri heç geri dönmədi, qayıdanlar isə hər dəstədən üç-dörd adam idi ki, onlar da qaçıb canlarını güclə qurtarmışdılar.

Çoban Həmid tərəkəmə tayfalarının hərəsindən bir igid seçib gecələr mağaradan çıxır, yorulub yatmış əsgərləri iri ağır toppuzbaşlı çomaqları ilə öldürür, atlarını sürüb aparırdılar. Canlarını qurtarmağa çalışan şil-küt olmuş əsgərlərin çoxu düşərgəyə gəlib çıxmır, elə yoldaca qurd-quşa yem olurdular.

Bu gecə çoban Həmidin hədəfi Valid ibn Tarifi idi. Gecənin qaranlığında iyirmi igidlə dağlardan düşüb, kövşənlərin arasında, düşmən ordusu düşərgəsinin arxasında gizləndilər. Çadırların yan tərəfində yerə çökmüş atlara yaxınlaşdılar, onları səssizcə qaldırıb, düşərgədən uzaqlaşdırdılar. Çoban Həmid on nəfərlik dəstə ilə geri qayıdanda digərləri atları mağaraya doğru qovurdular.

Həmidin dəstəsi səssiz-səmirsiz çadırlara yaxınlaşır, yatmış əsgərlərə fürsət vermədən bir-birinin ardınca onların üz-gözünə saysız zərbələr endirirdilər. Canını qurtaran çox az adam qalmışdı. Valid ibn Tarifini öldürmədilər, əvvəlcə o ki var kötəklədilər, sonra isə cəmi üç nəfərlə saraya yola salıb, mağaraya çəkildilər…

Pay-piyada, əli ətəyindən uzun düzən ərazilərə qayıdan Tarifini görən xalq tərəkəmələrin hərəkətindən ürəklənir, artıq qorxmur, hər yerdə Tarifinin adamlarını daş-qalaq edib, itaətdən boyun qaçırırdılar. Camaat üsyana qalxmışdı.

Artıq Bərdədə də xalq ayağa qalxıb hökmdardan Valid ibn Tarifinin boynunun vurulmasını tələb edirdi. İbn Məhanın başqa yolu qalmamışdı. Xalqı sakitləşdirmək üçün şəhər meydanında hamının gözü qabağında yüz seçmə əsgərinə göstəriş verdi: “İbn Tarifini tapıb gətirin, boynu vurulsun!”

Bu əmrdən xəbər tutan Valid ibn Tarifi ətrafındakı üç-beş adamla Ərməniyyəyə qaçdı. Xəzinədən oğurladıqlarını da özü ilə aparmağın yolunu tapmışdı. Bu, xalqı daha da qəzəbləndirirdi. İbn Məhandan tələb edirdilər ki, bizə silah ver, gedib Validi tapıb gətirək.

İbn Məhan çox sevdiyi taxtını da bir dəvəyə yükləyib, söz verdi ki, vəzirinin arxasınca özü qoşunun başında gedəcək, onu yerun deşiyindən də olsa, tapıb gətirəcək. Niyyəti Bərdədən uzaqlaşmaq, vaxtı udub ağsaqqalları min vədlə ələ almaq, yenidən öz cənnət bağına qayıtmaq idi. İndi Araz sahilinə qoşunla yol alarkən ibn Məhan artıq özünü söyüb-yamanlamaqdan yorulmuşdu. Öz səhvləri üzündən taxt-tacını itirməsiylə hələ də barışa bilmirdi. Çıxış yolunu çayı keçib, Harun Ər-Rəşidə sözünü çatdırmaq, hər şeyi ibn Tarifinin üstünə ataraq əfv diləmək, xəlifənin mərhəmətinə sığınmaqda görürdü. Arazın sahilində çadırlar qurub bir az dincəlmək, çayı səhər sübhdən keçmək qərarına gəldilər.

– Bəxş etdiyin bu cənnətdən məni məhrum etmə, ilahi! – səsini daha çox duyurmaq üçün özü də səmaya qaldırdığı əllərinin arxasınca dartınaraq yalvarırdı. – Hökmdar olmağım sənin lütfündür. Bu bir möcüzədir, ilahi, hər gecə bir huri-mələk,

hər gecə bir başqa həzz... – Sonuncu sözdə səsi qırıldı, ildırım sürətilə gözünün önündən keçən mənzərənin peşmanlığından özünü şilləlәyib ağlamsındı, – indi bunları itirməyimə niyə izn verirsən, ey böyük Allahım?! Ölsəm də, bu taxt-tacdan getmərəm... – yalvarışdan daha çox umu-küsü edirmiş kimi üsyankarcasına sızıllandı.

Əli ibn İsa ibn Məhan bu gün özünü, bəlkə də, yüz dəfə söymüş, tək qalanda yüz dəfə üzünə, başına döyəcləmişdi...

İbn Məhan özünün bu vəziyyətə düşməsində əlbir olub taxtını başına yıxan vəziri Validi və Şəmsi günahkar bilirdi. Ölçüyə gəlməyən bu itkinin qisası yalnız ölüm ola bilərdi. Xacə Məluma kənizi Şəmsi yatağına gətirməyi əmr etdi. Qız dünyadan xəbərsiz kimi həmişəki cəldliklə tül libasının ipini açıb ayaqları altına atdı, sevgi və ehtirasla hökmdarına sarıldı. İbn Məhanın bədəni bir anlığa uçunsa da, bütün qəzəbini qan çanağına dönmüş gözlərinə yığıb Şəmsə nifrətlə baxdı. Kənizinin uzun saçlarını sağ qoluna dolayıb, dodaqlarını yerindən qoparacaqmış kimi şəhvətlə iri, kobud dodaqları arasına aldı. Hökmdar qəzəb qarışıq ehtirasla ona təcavüz edir, Şəmsin nəfəsinin az qala kəsildiyini sövq-təbii ilə hiss etsə də, əzilmiş qürurundan doğan nifrəti ona güc gəlirdi. Qız hər tərəfinin ağrısından inildəyir, qışqırırdı. Qurtulmaq üçün çabalayarkən barmaqları ibn Məhanın boynuna toxundu. Ağlı başından çıxmış hökmdar bir an başını cəllad kötüyünün üstündə hiss etdi. Harun ər-Rəşidin onun boynunu vurduracağı gözü önündə canlanır, ona

elə gəlirdi ki, cəllad hər dəfə baltanı qaldırıb boynunda böyük bir kəsik yaradır, amma başını bədənindən ayıra bilmirdi.

– Sən e-lə-din, sən mə-ni bu ha-la sal-dın!!!, – deyə qəzəblə Şəmsin boynunu sıxmağa başladı. Aylardır cənnətdən gəlmiş huri hesab etdiyi qız bu an onun gözündə bütün həyatını alt-üst edən şeytan idi. Cəllad baltasının ağrılarını hiss etdikcə bütün qorxu və qəzəbini əllərinə verirdi: – Sən ifritəsən, itirdim taxt-tacı!!!, – deyib hönkürdü. Gözlərindən sellənən yaş onu süstləşdirib əldən saldı. Yalnız bundan sonra Şəmsin cansız bədənini əlindən buraxdı…

Gözlərinə inana bilmirdi. Ani qəzəblə verdiyi qərarın ağrısı intəhasız peşmanlıq, ağırlıq olub varlığına çökmüşdü. Başını əlləri arasına alıb, “mən nə elədim!” deyə səssiz fəryad qopardı. Aylar boyu ona cənnətin yeddi qapısını açan kənizin cəsədinin yanında oturub, göz yaşı axıtdı. Tez də özünü ələ aldı: indi yas tutmaq vaxtı deyildi, taxt-tacı əldən getmiş, qüruru tapdanmışdı; vəziri onu barmağına dolamış, ələ salmışdı. Xatırlayanda ki, Şəms başını qatmaq üçün Validin ona məkrli bəxşişi idi, bədəninə sarılmış zəhərli ilanı qoparıb atıbmış kimi dərindən nəfəs aldı. Özünə gələndə Şəmsin artıq soyumuş bədənini qorxu ilə kənara itələyib bağırdı:

– Gəlin rədd eləyin bu murdar cəmdəyi burdan!

Keşikçilər Şəmsin meyitini çadırdan sürüyüb Arazın sularına tolazladılar.

İbn Məhan onun arxasınca boşluğa zillənmiş, ayaq üstə donub qalmışdı. Ürəyində kənizinin gözlərindəki oynaq təbəssüm

qədər böyük bir boşluq hiss edirdi. Anladı ki, bir də heç vaxt heç kim çətir kirpiklərini astaca qaldırıb bunca məsum, bunca sevgi və itaət dolu gülümsəməyəcək üzünə. Yalnız bu an hiss etdi ki, Şəms onun üçün yalnız bir şəhvət aləti deyilmiş və o, aylardır sevişdiyi kənizini yox, Araza ürəyini qoparıb atıb…

***

Keşikçilər çayın qarşı sahilində böyük bir qoşun gördülər. Qaçaraq ibn Məhanın çadırına yaxınlaşdılar:

– Hökmdar, müjdə, qurtulduq! Qarşı sahildə böyük bir qoşun var. Qurban olduğumuz xəlifə bizə yardım göndərib.

İbn Məhanın üzü qorxudan bumbuz oldu. Bilmədi sevinsin, ya kədərlənsin. "Axı, mən Allahın seçilmiş bəndəsiyəm, yəqin ki, xəbər Xəlifəyə çatıb, mənə köməyə qoşun göndərib". Çadırdan çıxıb sahilə qaçmaq istəsə də, pis xəbər alacağından qorxub yerindən tərpənmədi. Onu bu gahgir vəziyyətdən qarşı sahildən gələn əsgərlər qurtardı: – Bizimlə gedək, – dedilər.

İbn Məhanın ayaqlarından, elə bil ki, daş asılmışdı, addımını ata bilmirdi. Nə qədər sorğu-sual eləsə də, qarşı sahildən gələn əsgərlər lal-dinməz hərəkət edir, onun çaydan keçməsini tezləşdirirdilər. Onu ortadakı böyük çadırın önünə gətirib "keç içəri!" dedilər. Yerində donub qaldığını görən əsgərlər qollarından tutub içəri atdılar. İbn Məhan parıltılı dəri çəkmələrin önündə üzü üstə yıxılıb qaldı. Başını qaldırmağa qorxurdu. Çəkmələrin sahibinin hökmlü səsi gəldi:

– Vəzirin hardadır?

– Ərməniyyəyə qaçıb.

– O, vətən xainidir… Sən də! Aparın bunu, gözüm görməsin! Onun taleyini ulu hökmdar, xəlifəmiz özü həll edəcək.

Keşikçilər ibn Məhanı elə götürüb apardılar ki, onunla söhbət edənin Azərbaycanın yeni hökmdarı Yəzid ibn Məzyəd olduğunu da anlamadı.

## II fəsil

Nəcd dağının ətrafından keçən bütün dəvə karvanları onlara haqq verir, bilirdilər ki, kimsə inad edib o qəbilənin başçısı ilə dil tapmırsa, sanki yerin altından çıxan bir dəstə adam bir anda karvanını tar-mar edir, ən yaxşı halda karvandakıları dəvələri ilə birlikdə əsir götürür, sonra isə həmin dəvə və əsirləri karvan sahiblərinə qızıl pula satırdılar.

Onlar özlərini insanların malını, canını qoruduqlarına, Allah qarşısında təmiz olduqlarına inandırmışdılar. “Biz olmasaq, ticarət ölər, – deyirdilər, – o qədər quldur dəstəsi yaranar ki, hansı karvanı kimin talan etdiyi bilinməz”. Onlarla dil tapmağı artıq hökmdarlar da sərkərdələrinə əmr etmişdilər. Bəzən bir qoşundan da güclü olurdular. Hardan gələcəkləri, nə zaman hücum edəcəkləri bəlli olmazdı. Bu, bədəvilərin sirri idi, heç bir dövlətə, hökmdara boyun əyməzdilər.

Harun ər-Rəşid tədbirli davranıb bu tayfanın bütün Ərəbistana səpələnmiş karvan yollarına nəzarət edən bir neçə tanınmış başçısını saraya gətirməklə, onları tam nəzarətə

götürdü. Etibarlılığı ilə tanınan Bəni-Əmir qəbiləsinin üzvlərini Harun ər-Rəşid şəhərlərə, böyük ərazilərə öz nümayəndəsi təyin etmişdi.

Qəbilənin başçısı əl-Müləvvəh ibn əl-Müzahim idi. Lap gənc yaşında qəbilə başçısı olan atası onu sevdiyi qızla evləndirmişdi. Amma əl-Müzahim bu dünyadan nakam köçdü. Oğlu Müləvvəh on ildir evlənsə də, övladı yox idi. Əl-Müzahim ölməmişdən bir müddət əvvəl Həcc ziyarətinə gedib Kəbə evində xeyli dua etmişdi. Ziyarətdən qayıdandan sonra yuxuda görmüşdü ki, səhralıqdakı uzun saçlı, qara gözlü bir uşaq ona əl edib çağırırdı. O, hər dəfə yaxınlaşanda gözdən itən uşaq az sonra görünür və yenidən yoxa çıxırdı. Birdən qum tufanı başladı. Güclü külək burulğan yaradıb, qaragözlü körpəni də sovurub özü ilə apardı… Yuxudan ayılanda oğlu əl-Müləvvəhi yanına çağırıb dedi:

– Artıq əminəm ki, mənə nəvə görmək qismət olmayacaq. Bilirəm, sən Nofəllə təskinlik tapırsan, amma nəslimin davamçısının olmayacağını fikirləşəndə məni nisgil bürüyür. Sənə yüz dəfə dedim başqa qadınla evlən, dedin ki, Allah məsləhət bilsə, buna da övlad verər. Həyatına qarışmaq istəmədim. Bizimki də belə gətirdi. Buralar bizə düşmədi. Kimə salam verirsən, sənin sonsuzluğunu eşitdirir. Nifrət edirəm buralara. Sənə vəsiyyətimdir, köç get bu yerlərdən. Bəlkə də getsən, həyatın dəyişəcək…

Üç gün keçməmiş atası vəfat etdi. Qəbri başında bir neçə gün o qaldı, bir də səkkiz yaşlı Nofəl. Əl-Müləvvəh atasının ölümündən sonra bu uşağa daha da bağlandı.

Nofəlin atası Amir, yaxınlıqda yaşayan Fəttah və əl-Müləvvəh yaşıd idi, üçü də, demək olar, eyni vaxtda evlənmişdi. Karvan soymağa da birlikdə gedirdilər. Növbəti soyğunların birində heç vaxt qarşılaşmadıqları güclü müqavimətə rast gəldilər. Karvandakılar çox, onlar isə cəmi üç nəfər idi. Amir möhkəm yaralanmışdı. Son nəfəsində ailəsini dostlarına əmanət edib, gözlərini dünyaya əbədi yumdu.

Altı ay boyunca Amirin hamilə arvadının bir kəlməsini iki etmədilər, hər diləyini yerinə yetirdilər, hər nazını çəkdilər. Amma Amirin övladının bəxti qara gəldi, o doğulanda anası da öldü.

Müləvvəh körpəni evinə gətirdi. Arvadı Rüqəyyanın körpəni kimsəyə vermək istəməsə də, Fəttahın arvadı Sayda uşağı ondan almağa çalışdı. Axşam çağı kişilər qayıdanda bütün qəbilənin Müləvvəhin evinin qabağına yığıldığını gördülər. Qadınlar körpənin üstündə saçyolduya çıxmışdılar. Qəbilənin ağsaqqalları Amirin qardaşı Səidi çağırıb, uşağı onun qucağına qoydular: “Onu ən çox sən haqq edirsən, bu körpə sizinkidir”.

Uşaq qardaşının yadigarı olsa da, Səid Müləvvəhdən keçə bilmirdi. Boynunda haqqı böyük idi. Ağsaqqallar “apar uşağı evinizə” deyib Səidi yola salanda Müləvvəhdən gözünü çəkməməyi, mənalı baxışmaları Fəttahın diqqətindən qaçmadı: “Niyə hamı Müləvvəhə yaltaqlanır? Bəyəm, biz Amirlə dost deyildik?!” Evə gələndə arvadı Sayda Rüqəyyanın onun saçlarını yolduğundan şikayətlənir, ərindən bir də Müləvvəhlə oturub-durmamağı tələb edirdi.

Sonralar Fəttaha məlum olurdu ki, Müləvvəh və Rüqəyya uşağı görmək üçün hər gün Səidgilə gedirlər. Onlar hər axşam balaca Nofəli öpüb-oxşaya bildikləri halda, onu və Saydanı Səid bir dəfə də olsun, evinə dəvət etmədi. Fəttahın ürəyi parçalansa da, arvadını pərişan etməmək üçün hər dəfə ona deyirdi ki, qoy, Nofəl bir az böyüsün, onu hökmən öz tərəfimə çəkəcəm – ondan sonra görək aramıza kim girəcək.

Aylar, illər keçsə də, bu iki ailənin münasibəti düzəlmədi. Bir-birini görəndə qovğa-dava etməsələr də, əvvəlki isti münasibətləri də yox idi. Digər qəbilə üzvləri də olmaqla yenə birlikdə karvan soymağa getsələr də, Fəttahın eyni açılmırdı. Müləvvəhin isə əhvalı da yaxşı idi, qəbilədə hamı ilə münasibəti də. Yaşı elə çox olmasa da, böyük-kiçik – hər kəs onu qəbilənin atası sayırdı. Özünə Fəttahın kin bəsləməsini də görməzdən gəlir, ona hörmətlə yanaşırdı.

Xəbər gətirdilər ki, Oman tərəfdən böyük bir karvan gəlir, əsas yükü də buxur və qızıldı. Müləvvəh xeyli gözləsə də, həmin karvanın sahibləri, adəti üzrə olduğundan fərqli olaraq, bu dəfə elçilərini göndərmədilər.

Həmişəki kimi iki dəstəyə bölünüb sağdan və soldan hücuma keçəcəkdilər. Karvan böyük olduğundan qəbilənin on iki yaşdan yuxarı bütün gəncləri dəvə belində, at belində idi. Sağ cinahdan Fəttahın, sol cinahdan Müləvvəhin dəstəsi hücuma keçəcəkdi. Nofəlin öz dəstəsinə düşdüyünü görəndə Fəttahın uçmağa qanadı yox idi. On iki ildən bəri əlinə ilk dəfə düşən bu fürsəti dəyərləndirib Nofəli özünə tərəf çəkəcəkdi. Sağlam, ucaboylu,

ağıllı və zəkalı yeniyetmə olan Nofəl illərdir övlad sahibi ola bilməyən hər iki ailənin arzusunda olduğu oğul idi. Müləvvəh bu işi zamanın, qismətin axarına nə qədər buraxsa da, Fəttah tələsir, vaxtın onun əleyhinə işlədiyini düşünürdü – bir az da geciksə, gec olacaqdı!

Həmişəki kimi, pusqu qurduqları yerdən Omandan gələn karvanın üzərinə qara yel kimi şığıdılar. İlk həmlədəcə Müləvvəh anladı ki, bu, qurğudur – kimlikləri bəlli olmayan karvanbasanlar onları sıradan çıxarmaq üçün tələ qurmuşdular. Ən dəhşətlisi isə o idi ki, dəvələrin iri xurcunundakılar buxur və qızıl deyil, hazırlıqlı döyüşçülər idi.

Müləvvəh bölgüdə qəbilənin ən qoluqüvvətlilərini Fəttahın dəstəsinə yerləşdirmişdi, öz dəstəsində isə iki nəfərdən başqa qalanı uşaqlar idi. Odur ki, öz iki döyüşçüsünə uşaqları qorumaq üçün kənara çəkilmək əmri verib, meydanda tək qaldı.

Nofəlin yanında olmasından Fəttahın qollarına əlavə güc-qüvvə gəlmişdi. Belə bir ağır döyüşdə imkan tapıb böyüklərdən geri qalmayan Nofələ təriflər yağdırırdı:

– Əla vuruşursan, Nofəl!... Səni Allah qorusun, Nofəl!... Sən hamıdan güclüsən, Nofəl!...

Fəttah on nəfərə qarşı vuruşmağın Müləvvəh üçün çox çətin olduğunun fərqinə varsa da, özünü görməzliyə vurub beyninin bir küncündə onun öləcəyinə, yolundakı səddin aradan qalxacağına ümid edirdi. Özünə rəqib gördüyü biri əbədi olaraq yolundan çəkilsə, bəlkə də, onu qəbilə başçısı seçəcəkdilər. Hər halda, ümidini üzmürdü. Üzünü çevirəndə Nofəli yanında

görmədi, sağa-sola boylandı. Birdən qarşı tərəfdə – karvanın o biri üzündə kürəyini Müləvvəhin kürəyinə söykəyib vuruşan Nofəli görəndə qəzəbindən zəncir çeynədi.

Döyüşü udub dörd qulduru əsir götürdülər. Müləvvəh əlini Nofəlin çiyninə qoyub:

– Artıq əsl karvanbasansan. Əhsən sənə! – deyə onu öydü.

Nofəlin igidliyi haqqında söz-söhbətlər sürətlə bütün qəbiləyə yayıldı. Zarafat deyil, o, qəbilənin günəşi Müləvvəhi qorumuş, bəlkə də, ölümdən xilas etmişdi. Bundan sonra qəbilədə Müləvvəh deyəndə Nofəl əl-Amiri, Nofəl deyəndə Müləvvəh yada düşürdü. Müləvvəh Nofələ ən qiymətli parçalardan əlbisələr almışdı, Rüqəyya onun sevdiyi yeməkləri bişirirdi. Şahinlərini qollarına qondurub, kəklik ovlayıb həyatdan ləzzət alırdılar. Müləvvəh övladsızlığı unutmuşdu, Nofəl isə arxasında ata-ana əvəzi onları görürdü. Bu üçlük nə qədər xoşbəxtiydisə, Fəttah və Sayda bir o qədər kin-küdurətliydi.

Ramazan ayının son həftəsi qazanlar asılmış, dəvə əti yağda qıpqırmızı qovrulmuş, sini-sini plovlar ortalığa düzülmüşdü. Bir azdan bütün qəbilə başçı əl-Müləvvəhin qurduğu böyük süfrədə iftarını açacaqdı. Uca Allaha şükranlıq duaları oxunduqdan sonra qəbilənin böyükləri dünyanın gərdişindən, on bir ayın sultanının fəzilətindən söhbətlər edir, gənclər qulaq asırdılar. Əslində, Ramazan ayının ən böyük qazancı da səmaya bülənd olan duaların çoxalması ilə yanaşı, ağsaqqallar və elm adamlarının onlara ünvanlanan sorğulara sual verənlərlə birlikdə cavab arayışına çıxmalarında idi. İl ərzində hansısa səbəbdən

övladlarının üzünü görməyən atalar onların çəkinmədən hamının yanında verdiyi sualı dinləyir, həm qürur duyur, həm də mənən ondan uzaq düşmüş övladının nə düşündüyünü bilirdi. Bu minvalla keçən Ramazan təkcə nəfsinə hakim olmağın sınaq ayı deyil, həm də dünyanı, kainatı, doğuluşu, ölümü, həyatın mənasını dərk ayı, elm ayı idi.

Əl-Amiri tayfasının əldə etdiyi qənimətlərin satışı ilə məşğul olan, hər il ən böyük bazarlarda alış-veriş edib dünyanın hər yerindən məlumatlı olan əl-Qasımi adlı qoca vardı. O həm də Fəttahın əmisi, böyüdüb yetişdirən ata əvəzi idi. Tanıyanlar bilirdilər ki, ondakı təkəbbür, dikbaşlılıq əmisindən keçib. Əl-Qasımi özünü ən təcrübəli, ağıllı insan, ən maraqlı həmsöhbət kimi təqdim etməyi, beyinlərə yanlışı da doğru kimi yeritməyi, qarşısındakının gözünü boyayıb özünə sayğı duydurmağı əla bacarırdı.

***

Uzun yay gecələrində hündürdən süzülən bədəvi qəhvələrindən kimsə doymur, söhbət uzandıqca uzanırdı. Bu dəfə Nofəl Fəttahın əmisinə elə bir sual verdi ki, hər kəs susub qəbilənin qəhrəmanının hansı cavabı alacağını maraqla izləməyə başladı:

–Pislikləri kainatda kim yaradıb?

Günahlara yaranışdan Yer kürəsi nədən batıb?

Yaxşılığa yamanlığı, xeyrə şəri, insanlığa iblisləri kim cırnadıb?

İbadətmi yer üzünün çıxış yolu? Yoxsa ölüm?…

Təkəbbüründən yeri-göyü titrədən, özünü hamıdan ağıllı sayan Əl-Qasımi hiss etdirməsə də, ürəyinin dərinliyində "bu yetimçəni belə elmli kim böyüdüb?" deyə narahat halda dərin fikrə getdi. Hər kəs Əl-Qasımidən cavab gözləyirdi. O, Nofəlin şeir kimi səsləndirdiyi sualına dolğun bir cavab verməyə çalışdı:

– Bax, cavan oğlan, dünyanın gərdişinə nüfuz etdikcə cavabsız suallar da artır. Bəşər övladı dünyaya gələndən bu yana bəzi suallara cavab tapmayıb. Çıxış yolu üçün isə Allah insanlara bütün suallara cavab verən bir kitabı – Quranı göndərib. O, dünyanı dərk eləməyin mənasız və həddən artıq sualların cavabsız olduğunu bildiyindən Quranda təkcə suallara cavab vermir, həm də əmr edir. Allahın əmrindən çıxmaq, yeni suallar verərək şəkk gətirmək isə şirkdir…

Müləvvəh iftarın başa çatdığını bildirib, ayağa qalxdı. Səid ona yaxınlaşıb, tərəddüdlə dilləndi:

– Heç bilmirəm, sənə necə deyim, amma deməliyəm. Yenə də şükür məsləhətinə.

– Buyur, səni dinləyirəm, – deyə Müləvvəh onu ürəkləndirdi.

– Ey Müləvvəh, sən bilirsən ki, bizim Şeybani nəslində qürur duyduğumuz bir adam var.

– Bilirəm, Yəzid ibn Məzyəd Şeybanini deyirsən.

– Hə, başımızın tacı ibn Məzyəd, çox şükürlər olsun ki, xəlifəmiz Harun ər-Rəşidin yanında sevimli əshabələrdən biridir. Bizim Nofəlin də dayısıdır. Sağ olsun, həmişə zavallı bacısının tifili ilə maraqlanıb. Sənə hörməti çox böyükdür

deyə bu günə kimi uşağı qəbilədən ayırmaq istəməyib. Amma deyir, artıq zamanı gəlib, Nofəli igid bir sərkərdə kimi yetişdirməliyəm. Nofəlin getməyə razı olub-olmayacağını bilmirəm. İndi hər şeyə sən qərar ver. İbn Məzyədə nə cavab verək?

Əl-Müləvvəh fikrə getdi. Oğlu qədər sevdiyi Nofəlin gedəcəyi fikri ürəyini sıxdı. Arvadı Rüqəyyanı düşündü. O bu ayrılığa necə dözəcəkdi?! İçindəki təlatümləri boğub, toxtaq cavab verdi:

– Mən Rüqəyyanı birtəhər yola gətirərəm. Deyərik ki, dayısı ibn Məzyəd Nofəli görmək istəyir. Getsin, görüşsün, tez bir zamanda qayıdacaq. Sonrası Allah kərimdir. Allahın əmrindən kimsə çıxa bilməz. Hansı xeyirlidirsə, onu yalnız uca Yaradan bilir…

## III fəsil

Bu dünyada heç kim ömrü boyu olduğu kimi görünmür. "Elin gözü tərəzidir" desələr də, çəki daşları insanların əyarlarına görə şəxsiyyətlərə qiymət verir. Çəki daşları dəyişməyincə əyarlar da dəyişmir. Dünən qorxaq kimi tanınanlar bu gün nadir hallarda qəhrəman kimi görünür. Bəzən çox kasıb biri ağıllarda varlı, ağıllı isə dəli kimi, xəstə və zəif olan güclü və sağlam kimi görünüb elə də qəbul olunur. Buna alın yazısı da, xüsusi bir bacarıq da demək əsassız olmaz.

Tarixin yetirdiyi belə şəxsiyyətlərdən biri də Abbasilər

sülaləsinin xəlifəsi Harun ər-Rəşiddir. Lap gəncliyindən haqqında dolaşan əfsanə və rəvayətlərə əsasən, Harun nə qədər yağ-bal içində böyümüş, dünyanın bütün naz nemətlərini dadmış, səxavətli, həm də ən güclü və amansız kimi görünür, amma nədənsə heç kəs onun həyatının keşməkeşlərini, hökmdarlıq elədiyi illərin İslam tarixinin ən çətin dönəmi olduğunu, o illərdə Peyğəmbər nəslindən olan davamçıların bir-biri ilə amansız surətdə çəkişdiyini, saysız-hesabsız təriqətlərin hərəsinin yorğanı öz tərəfinə çəkdiyini heç kəs yada salmır. İnsanları Harunun eyş-işrətdə keçən günləri, dünyadan həzz alması ilə bağlı söz-söhbətlər daha çox maraqlandırır, bu barədə əfsanələrə daha çox inanırlar.

Abbasilər xilafətinin üçüncü xəlifəsi Məhəmməd ibn Abdullah əl-Mehdinin və yəmənli kölə Xeyzuranın oğlu Harun şahzadə olsa da, anasının da çəkdiyi əzab-əziyyətlər bahasına, böyük çətinliklə hakimiyyətə gələ bilmişdi. Xilafətin ən çətin dövründə xəlifə elan olunsa da, Harun müsəlman tarixində, bəlkə də, heç bir hökmdarın etmədiyini etmişdi. Onun üçün ətrafındakıların haralı olması önəmli deyildi, çalışırdı ki, xilafətin əhatə etdiyi hər bölgədə, hətta ucqarlarda belə, dövlətə yararlı biri varsa, saraya gətirib dövlət maraqları naminə orduda, idarəetmə və ticarətdə ondan istifadə etsin.

Şeybani qəbiləsinin başçılarından olan Yəzid ibn Məzyəd karvan yollarını nəzarətdə saxlayan səhra komandiri idi. Əmisi Məyan ibn Zaidə xəlifə əl-Mehdinin yaxın adamlarındandı. Xorasanda üsyan başlayanda əmisi onu xəlifəyə təqdim

edib, üsyanı yatıracağına təminat verdi. Yəzid bu vəzifənin öhdəsindən layiqincə gəldiyindən xilafətin ucqarlarında – hələ də ram olmaq istəməyən Azərbaycanda qayda-qanun yaratmaq üçün hakim təyin edildi. Bir il Azərbaycan hökmdarı olduqdan sonra artıq yeni xəlifə təyin olunmuş Harun ər-Rəşid Bizans yürüşü zamanı onu yanına çağırdı, inanılmış sərkərdələrdən biri kimi özü ilə döyüşə apardı.

Valid ibn Tarifinin xəzinəni talan edib aradan çıxması, ibn Məhanın öz vəzirinin toruna düşüb xalqı narazı salması və üsyana sürükləməsi Harun ər-Rəşidi hiddətləndirmişdi. Xəyanət etmiş birinin qaçıb gizlənməsi dövlətin əsaslarına böyük təhlükə olduğundan xəlifənin əsas tapşırığı ibn Tarifinin tezliklə tapılıb edam edilməsi idi. Onun inandığı sərkərdələrindən Yəzid ibn Məzyədi yenidən Azərbaycan hökmdarı təyin etməkdən başqa çarəsi qalmırdı…

Səhrada böyümüş bədəvinin birdən-birə Şərqin böyük şəhərlərindən birinə yerləşməsi Allahın lütfü idi. Nofəl ilk günlər bir az darıxsa da, hər gün aldığı qılıncoynatma, atıcılıq dərsləri, hərb sənətinin incəliklərinə yiyələnmək bütün vaxtını alır, darıxmasına imkan vermirdi. Dayısı bir neçə gün əvvəl ona bir kisə qızıl pul verib, əshabələrindən Musa əl-İbrahimini də ona qoşmuşdu ki, Bağdad bazarında gəzib ürəyi nə istəsə, alsın.

Musa Nofəli bir-birindən gözəl geyimlərin satıldığı sıraya gətirdi. Çoxdan tanış olduğu tacirə yaxınlaşıb, salam-kəlamdan sonra:

– Bizim bu şahzadəyə gərək dünyanın ən gözəl libaslarını

verəsən, – dedi.

Nofəl utanıb “Mən axı şahzadə deyiləm”, deyə astaca etiraz etsə də, Musa Yəzidin Azərbaycana hökmdar təyin edildiyini və deməli, Nofəlin də şahzadə olduğunu dedi: “Sən heç ömründə dünyanın müxtəlif ağacları, gülləri, otlarını, quşları, vəhşi heyvanlarını bir arada görmüsən? Səhralıqda ən çox gördüyümüz uzaqbaşı xurma, sərv ağacları idi. Arranın paytaxtı Bərdə isə əsl cənnətdir. Sən də artıq o cənnətin şahzadəsi, Allahın sevimli bəndəsisən”.

Nofəl burda olduğuna sevinsə də, Müləvvəhdən və Rüqəyya anadan uzaq düşəcəyinə görə narahat idi. Onları əmisi Səiddən, dayısı Yəziddən də çox istəyirdi. Bağdad kimi gözəl bir şəhərdə sarayda qul-qaravaşın əhatəsində olsa da, Müləvvəhin çadırı ona ən doğma yuva, Nəjdin qumu ən güvənli torpaq idi. İndi Bərdəyə – dünyanın cənnətinə getməmişdən əvvəl çox istəyirdi ki, Müləvvəh də, Rüqəyya da onu bu şahzadəyə layiq geyimdə görsünlər.

Səhər tezdən çapar Yəzid ibn Məzyəddən əmr gətirmişdi: “Bizimkilərin təcili Arrana köçürülməsi zərurəti yaranıb. Məşhur İpək yolu burdan keçir. Mən öz qəbilələrimin burda olmalarını istəyirəm. Dövlətin rifahı və əmin-amanlıq naminə bizimkilərin burda olması zəruridir. Kimsə gəlmək istəməsə, məcburi deyil. Amma başa salın ki, mənim buna ehtiyacım var. Bir də bu xəbəri hər iki qəbiləyə Nofəl çatdırsın. Sən də onunla get!”

Bağdadın havası qeyri-adidir. Bu şəhərdə gün səni yandırsa

da, zərər vermir. Səhər tezdən isti təndir çörəyinin ətri ətrafı bürüyür. Yuxudan oyananda ac olmasan belə, o ətirli çörəyin xətrinə qəhvəaltı edərsən. Musa Nofəli lap erkən oyatmış, o, yuyunub gələnə kimi xidmətçilər yeməyini süfrəyə düzmüşdülər. Musa onun tələsik yediyini görüb qəhqəhə çəkdi:

– Bilirəm, oralar üçün darıxırsan. Amma tələsmə, yaxşı ye ki, yolun uzaqlığı, istisi səni yormasın. Biz qəbilələrimizə müjdəni verib, onları toparlayıb, karvanları yola düşdükdən sonra özümüzü Bərdəyə çatdırmalıyıq. Arranda vəziyyət pisdir. Üsyan hələ də yatırılmayıb, camaat Valid ibn Tarifinin tapılıb edam edilməsini tələb edir. Oranın adamları mərd və qorxmazdır. Xəlifə üsuli-idarəsindən olan birinin xalqı bu qədər qəzəbləndirməsi, əslində, camaatı Əmir əl-Mömininə qarşı qaldırmaqdır… Biz ərəblər Arrana girmək, dinimizi onlara qəbul etdirmək üçün nə qədər qan tökdük, qılınc gücünə dinimizi qəbul etdirdik, amma bu, əbədi davam edə bilməz. İndi biz onlarla qaynayıb-qarışmalı, dinimizin necə mütərəqqi bir din olduğunu sübut etməliyik…

***

Nofəlin şahzadə paltarında gəlişi bütün qəbiləni necə sevindirmişdisə, camaat "Qəhrəman Nofəl… Qəhrəman Nofəl…" deyə onu salamlayırdı. Dünən Nofəlin qəbilə üzvlərinə "biz sizi cənnətə aparacağıq, bundan sonra cənnətdə yaşayacaqsınız!" deməsi hər kəsi çox sevindirmişdi. Bütün

qəbilə üzvləri Yəzid ibn Məzyədə, qəhrəmanları Nofələ dualar qılıb, Allaha şükr edirdilər.

Əl-Müləvvəhin isə ürəyində ikili hisslər baş qaldırmışdı. Bir yandan gözünü açandan qoynunda böyüdüyü, ata-anasının qəbirləri olan bu qumlu səhralığı qoyub getmək, digər tərəfdən də atasının ölümqabağı dediyi sözlər: "Çalış bu yerləri tərk elə get. Buralar bizə düşmədi. Bəxtini başqa yerlərdə sına". Atasının vəsiyyəti onun qərarına təsir etsə də, yenə tərəddüd içində idi. Müqəddəs Kəbədən uzaq düşməkdən qorxurdu…

Həyatın elə dönüş nöqtələri olur ki, köklü qərar qəbul etmək lazım gəlir. Lazımi zamanda lazımi yerdə olmaq, əslində, Allah ilə olmaq deməkdir. O səninlədirsə, heç nədən qorxmaq lazım deyil. Müləvvəh əmindi ki, həqiqi inamla Allaha bağlandığı üçün onu ən doğru qərara yönəltmiş olacaq – bundan sonra hər şeyi zamanın axarına buraxmaq qalırdı. İndi qəlbində çoxdan əlini üzdüyü bir ümid də cücərdi. Bəlkə, Allah ona Nofəlin cənnət dediyi o torpaqlarda bir övlad da verdi. Müləvvəh gecənin qaranlığında şadyanalıqla qılınc rəqsi edən qəbilə igidlərinə baxarkən göy üzündə bir işıq zərrəsi ayrılıb hərəkət etdi. Ulduz düz onun başı üzərində dayanıb, sanki bir az da gücləndi, bir az da irəli gəldi.

Müləvvəh bədəninə dolan qəribə istilikdən əvvəlcə qorxdu, sonra bu istilikdən xoşlandığını, sanki yeni bir adam olduğunu hiss etdi. Aman Allahım, bu həmin o istilik idi! Otuz yaşından bu yana bir gün qəfildən hiss etmişdi ki, belində, qarnında, ayaqlarında, beynində, gözlərində hiss etdiyi o qəribə istilik daha

yoxdur. Həmin gün düşünmüşdü ki, həmən istilik insan bədənini tərk etməsə, yəqin o heç zaman ölməz. İndi o istiliyi yenidən hiss etməsi onu həyəcanlandırdı. Bu, dünyanın ən şirin yanğısı, ən müqəddəs susuzluğu idi. Sanki birdən-birə hər şeyi, insanları, bu qumlu səhranı, dəvələri, ayı, ulduzu daha çox sevməyə başladı! Çadıra keçib Rüqəyyanı bağrına basdı, lap gəncliyində olduğu kimi…

## IV fəsil

İnsan onu ən böyük arzusuna qovuşduran bir torpağı müqəddəs saymazmı?! Üstəlik, bu torpaqlar cənnəti xatırladırsa… Müləvvəh qəbiləsi ilə Arrana köç etdikdən bir ay sonra arvadının hamilə olduğunu öyrəndi. Onun qəbiləsini Bəndovan yaxınlığında yerləşdirdilər. Dəniz sahili ilə meşəlik, dağlıq ərazilərdən ta Bərdəyə kimi uzanan, tacirlərin Çin yolu adlandırdığı yol boyu bütün ticarət karvanlarını qorumaq, vergi toplamaq, dövlətin qayda-qanunlarına riayət olunmasına nəzarət etmək vəzifəsi ona və Şeybani qəbiləsinə tapşırılmışdı. Hər iki tayfaya ümumi nəzarət isə Nofələ tapşırılmışdı.

Fəttah evini onlardan bir az aralıda tiksə də, Azərbaycana köç edəndən bəri onun da üzü gülür, daha Müləvvəhi görəndə üzünü yana çevirmirdi. Müləvvəh hələ dünyaya gəlməmiş övlad payı üçün Allaha hər gün şükr edib, bu sevinci Fəttaha da bəxş etsin deyə yerin-göyün sahibinə yalvarırdı.

Bir neçə gün sonra Müləvvəh onu rahat buraxmayan

fikirlərini arvadı ilə bölüşəndə Rüqəyyanın gözləri doldu:

– Arxayın ol, Sayda da hamilədir. Dünən Səidin arvadı bizi barışdırdı. Dedi ki, ikinizə də Allah lütf edib, övlad verib. Sayda hönkürüb ağladı, sonra da boynumu qucaqladı, barışdıq.

Müləvvəh əllərini açıb: – Sənə şükürlər olsun, Allahım, məni bu töhmətdən qurtardın, – deyə ürəkdən şükür etdi. Fəttahın övladı olmasaydı, ona Nofəli öz tərəfinə çəkdiyi üçün məzəmmət və nifrəti bitib-tükənməzdi.

Müləvvəh Bəndovanın küləyindən qorunmaq üçün evinin ətrafına şam ağacları əkmişdi. Övladı bu ağacların kölgəsində oynayacaqdı.

Yəzid ibn Məzyəd artıq Bəndovanda yeni bir şəhərin əsasını qoymaq üçün göstəriş vermişdi. Paytaxt Bərdədə otursa da, ibn Məzyəd burada bir liman şəhəri yaratmaq istəyirdi. Artıq xilafətin hər yerindən memarlar, xəttatlar, şair və rəssamlar Arran ərazisinə gətirilirdilər. Bu torpaqların bərəkətli, xəyalları gerçəkləşdirən bir yer olmasına hər gün bir işarət vardı. Təxminən eyni vaxtda Səidin də arvadının hamilə olduğu xəbəri yayıldı. Nofəl sevinsə də, əmisinin övladından daha çox Müləvvəh və Rüqəyyanın övladını dünyaya gəlişini gözləyirdi. Özü də istəyirdi ki, məhz oğlan doğulsun, ona qardaş olsun, o da bildiyi hər şeyi qardaşına öyrətsin. O özü kimi at belində, əli qılınclı, qorxmaz bir qardaş arzusunda idi.

Bəndovana köçürüldükdən sonra Fəttahın əmisi əl-Qasımi buralara elə valeh olmuşdu ki, illərlə səfərə çıxdığı ticarətindən əl çəkib oturaq həyata keçmişdi. O, Lökbatanda dəvə

karvanlarının yolu üstə kiçik bir karvansara inşa edib, gəlib-gedənlərin qarnını Şamaxının ən dadlı qoyunlarının ətindən hazırladığı şaurmalarla doyururdu.

Əl-Qasımi əvvəlki təkəbbürünü bir az azaltsa da, xasiyyəti heç dəyişməmişdi. Bir Ramazan iftarında Nofəlin ona verdiyi sualı isə heç unuda bilmirdi. “Ağıl yaşda deyil, başdadır” misalını öz-özünə təkrarlayır, Nofəlin suallarına bir vaxtlar çətinliklə də olsa, verdiyi cavabdan başqa cavab tapa bilmirdi.

Pislikləri kainatda kim yaradıb?

Günahlara yaranışdan Yer kürəsi nədən batıb?

Yaxşılığa yamanlığı, xeyrə şəri, insanlığa iblisləri kim cırnadıb?

İbadətmi yer üzünün çıxış yolu, yoxsa ölüm?

Bədəvi ərəblərdə yalnız karvan soyan quldurlar şair olurdu. Tacirlərdən, dövlət adamlarından, din xadimlərindən şair nadir hallarda çıxardı. Bu, karvanbasanların daha azad ruhlu qəbilələrdən olduqlarına dəlalət etsə də, şeir yazmalarına səbəb çoxlu suallarının olması idi – onlar dünyanı məktəbdən deyil, həyatdan öyrənirdilər.

İndi Nofəlin sual dolu şeirini hər gün təkrarlaya-təkrarlaya şaurma satan əl-Qasımini, əslində, nə sual, nə şeir, nə də tutarlı bir cavab maraqlandırırdı. Onu maraqlandıran yalnız pul idi.

Müləvvəh Rüqəyyanın kənizi Səliməyə tapşırmışdı ki, son dönəmlər arvadından daha da muğayat olsun. “Çalış onu gözdən qoyma. Yaddan çıxarar, ağır bir şey götürər. Bax ki, Rüqəyya vaxtlı-vaxtında doğru-düzgün yemək yesin. Yuxusuna,

istirahətinə diqqət etsin". Müləvvəh karvan yollarında, iş başında olduğundan ürəyi rahatlıq tapmır, fikri-zikri arvadının və doğulacaq övladının yanında qalırdı.

Səlimə ona tapşırılmış işin öhdəsindən yaxşı gəlirmiş kimi davransa da, artıq Rüqəyyanı əsəbiləşdirməyə başlamışdı. Qadın, demək olar, hər şeyə qarışır, "otur, sən tərpənmə", "ona dəymə", "bunu götürmə", "yemək ye", "su iç" və bu qəbildən daha nələrsə danışdıqca, Rüqəyyanın acıqlanmağa üzü gəlməsə də, hiss edirdi ki, Səlimə onu bezdirir. Bu gün isə Rüqəyya bir şeyə əmin oldu ki, Səlimə təkcə onu bezdirməyib, səsi gələndə uşaq da tərpənib qarnını təpikləyir, sanki etiraz edirdi. Qadının səsi kəsilən kimi uşaq sakitləşirdi. Eyni təpkiləri uşaq əl-Qasımi ilə arvadı onlara dəvətsiz ziyarətlər edəndə də verirdi. Rüqəyya hiss edirdi ki, bətnindəki adi körpə deyil…

Vaxt yaxınlaşdıqca Müləvvəh övladının dünyaya təşrif buyurmasını həyəcanla gözləyir, arvadını bir an belə tək qoymamağa çalışırdı. Bir gün günəş batandan sonra möcüzə baş verdi. Həmin gün qəbilədə bir-birinin ardınca üç körpə dünyaya gəldi – Müləvvəh və Səidin oğlu, Fəttahın isə qızı doğuldu. Mamaçalar bütün gecəni ora-bura qaçışırdı, qəbilə üzvlərinin sevinc və həyəcanı bir-birinə qarışmışdı.

Uşaqlar üçü də ay parçası kimi gözəl, sağlamdılar, vaxtlı-vaxtında yeyir, yatırdılar. Bircə iş vardı ki, Qeys durmadan ağlayırdı. Körpəni yırğalamaqdan Müləvvəhin də, Rüqəyyanın da qolları sözlərinə baxmır, onun səsi bütün qəbiləni başına alırdı. Neçə loğman çağırsalar da, körpənin dərdinə çarə tapa

bilmirdilər. Uzun illər sonra övlad sevincinə qovuşan Müləvvəh və Rüqəyya bir neçə gün ərzində sanki neçə il qocalmışdılar.

Balaca Qeys ana bətnində iki fərqli əlin istisini həmişə hiss edir, bu əllərin onu qoruduğunu duyurdu. Amma son vaxtlar ona doğru qara bir kölgənin gəldiyinin fərqində idi. Bu kölgənin özü də, səsi də Qeysi qorxudurdu. Dünyaya göz açıb gün işığına çıxandan sonra həmin qara kölgənin həniri daha yaxından gəlir və Qeys dayanmadan ağlayaraq, sanki öz valideynlərini xəbərdar etməyə çalışırdı.

Hələ də nəfəsi qarala-qarala ağlayan körpənin yanına onun kimi qığıldayan, onun boyda bir canlı qoydular. "Nəfəsi çox ılıqdır. Qoxusu isə hələ yeni öyrəndiyim, heç vaxt hiss etmədiyim bir ətirdir. Özümü necə də xoşbəxt hiss edirəm! Şükürlər olsun ki, qara kölgə də harasa lap uzaqlara çəkilib! Ana, ata, baxın, heç ağlamıram! Mən bu nəfəsin daim yanımda olmasını istəyirəm!".

– Şükürlər olsun, ağlamağını kəsdi. Allah səndən razı olsun, Sayda. Sən olmasaydın, biz nə edərdik? Allah balaca Leylini qorusun!, – Rüqəyya dil-ağız edirdi.

– Qeysin səsi bizim evə kimi gəlib çatır. Ürəyim dözmədi. Fəttahın yatdığını görüb Leylini də götürüb gəldim.

Qeys neçə gündən bəri ilk dəfə səhərə kimi sakitcə yatdı, valideynləri də rahat nəfəs alıb şirin yuxuya daldılar.

"Dünənki o gözəl qoxu harasa gedib, yanımda yoxdur. Ana, ata, o kim idi? Getdi harasa? Niyə yanımdan götürmüsüz? Mən o gül nəfəsi istəyirəm…" Qarnı tox, altı quru olsa da, Qeys yenə

ağlamağa başladı.

Mülәvvәh Qeysin ağlamasını eşidib, ona yaxınlaşdı. Körpәnin beşiyi başındakı Sәlimәyә acıqlandı:

– Sәn onu niyә tәrpәdirsәn?! Yaxşıca sakit durmuşdu!

– Dedim başının altını düzәldim, – qadın günahkarcasına cavab verdi.

– Sәnә deyilmәmişdi ona toxunma?!

Mülәvvәh sanki indi anlamışdı ki, Sәlimә hәr dәfә yaxınlaşdıqda Qeys ağlamağa başlayır: “Nahaq demәyiblәr ki, yeni doğulmuş körpәnin yanına qırx gün namәhrәm buraxmayın”.

Cibindәn çıxardığı ağzıbağlı kisәni Sәlimәyә uzatdı, “al, haqqını halal elә, çillәsi çıxmayınca gәlmә”.

Sәlimә pul kisәsini qapıb evdәn çıxanda Mülәvvәh qәti bu fikrә gәldi ki, Sәlimәni uzaqlaşdırsın. Qeys bir dә o günlәrdәki kimi çox ağlamadı.

Mülәvvәh әmin idi ki, ağ işığın onu seçdiyi hәmin gecә oğlu Rüqәyyanın bәtninә düşüb. O, sövq-tәbii ilә Qeysin adi bir uşaq olmadığını hiss edir, hәssas ruhlu olduğunu duyurdu. “Bәlkә dә, Sәlimә heç kimin bilmәdiyi cin, ifritәdir. İnsan qiyafәsindә dolaşan cinlәrin sayı-hesabı yoxdur. Kaş, әtrafımızdakı hәmin o insan qiyafәli mәxluqları tanıya bilәk. Gәrәk bundan sonra diqqәtli olaq”.

## V fәsil

Körpəlikdən Leylinin gözəlliyi dillər əzbəri idi. Fəttah bir vaxtlar heç Saydanı da belə qısqanmamışdı. Bu gözəl çiçək böyüdükdən sonra onu elə bir əl dərməlidir ki, həm Leylini sevib qorusun, həm də Fəttaha əsl oğul olsun. Qızının varlığına hər gün şükür etsə də, oğulsuzluq nisgilini unutmurdu.

Qeys Zeydlə birlikdə boy atıb böyüyür, oynayırdı. Ətrafdakı hər şeylə maraqlanır, hər şeyi bilmək istəyirdi. Gözləri üstündə olsa da, valideynləri ona sərbəstlik vermişdilər, ürəyi istədiyi vaxt evdən çıxıb tay-tuşları ilə oynaya bilərdi. Hardan tanıdığını xatırlamadığı bir qoxunun, nəfəsin şüursuz arayışında idi. Axtardığının hardasa yaxında olduğunu sövq-təbii ilə hiss etsə də, hələ ki onu tapa bilmirdi.

***

Artıq böyümüşdülər. Leylinin valideynləri onun çölə çıxmasına nadir hallarda imkan verirdilər. Sayda onun yalnız bacısı qızı Ayişə ilə oynamasına razı olurdu.

Nofəl hərb və dövlət işlərindən vaxt tapan kimi Bəndovana gələr, həm Müləvvəhgilə, həm əmisi Səidgilə baş çəkər, sonra da bütün qəbilə üzvləri ilə görüşüb əlindən gələn köməyi onlardan əsirgəməzdi. Bəni-əmir qəbiləsi onunla qürur duyur, hər uğuruna sevinirdi. Budəfəki gəlişinin məqsədi qəbiləsi üçün mədrəsə açdırmaq idi. Oğlanlı-qızlı qəbilənin hər bir gəncinin, uşağının təhsil almasını vacib sayırdı. Qeysə isə diqqəti xüsusi idi. Onu qardaşı qədər sevir, hər gələndə hədiyyələr alıb

gətirirdi.

Qeyslə Zeyd evin qabağında, Müləvvəhin illər öncə əkdiyi sərv ağaclarının altında, Nofəl, Müvəlləh və Səid isə bir az aralıda oturmuşdular. Böyüklər bədəvi qəhvəsi içib söhbət edirdilər. Uzaqdan Əl-Qasımi göründü. Köhnə xasiyyəti idi, Nofəlin gəldiyini eşidən kimi tez özünü yetirər, ona xoş gəlmək üçün hünərlərini ağızdolusu öyər, zarafatlar edər, uzun-uzadı xatirələrindən, dünyada gördüklərindən danışardı. Nofəl onu görcək "görəsən, biz də qocalanda belə boşboğaz olacağıq?" – deyə zarafat etdi, gülüşdülər.

Əl-Qasımi yeniyetmələrin yanından ötəndə nəvaziş göstərmək üçün əlini Qeysin saçlarına uzatmaq istədi. Qeys artıq unutduğu həmin o qara kölgənin üzərinə yeridiyini hiss etdi, qorxudan bütün bədəni titrəməyə başladı, geri-geri çəkilib özünü Nofəlin üstünə atdı.

– Nə oldu, darıxdın qardaşın üçün? – Səid Əl-Qasıminin pərt olmaması üçün təbəssümlə dilləndi.

Nofəl Qeysin qorxduğunu görüb, ayağa qalxdı. Əl-Qasımiyə əl uzadıb, ayaqüstü hal-əhval tutduqdan sonra "mən getməliyəm" deyə, onun burda çox qalmasına imkan vermədi. Nofəlin onu görən kimi qalxıb getməsini, Qeysin qorxub titrəməsini görən Əl-Qasımi pərt idi. Bir az aralanandan sonra dodağının altında deyindi:

– Hmm, illərlə gözlə, gözlə, axırda dünyaya gətirdikləri uşağa bax. Əməlli-başlı dəlidir ki bu!

Nofəl artıq Qeysin qeyri-adi, həssas uşaq olduğunu anlamışdı.

Bərdəyə yola düşmək üçün sübh tezdən oyanmışdı. Səid isti çörək dalınca getmiş, arvadı isə yemək hazırlayırdı. Nofəl fürsətdən istifadə edib əmisi oğluna dedi:

– Səni çox istədiyimi bilirsən. Bilirəm, sənə də mənim xətrim əzizdir. Ona görə səndən bir istəyim olacaq.

Zeyd qəbilənin qəhrəmanının ondan nəsə istəməyindən qürur və məmnunluq duyaraq diqqət kəsildi.

– Zeyd, sən igid oğlansan. Həmişə Qeysin yanında ol, ona qardaşın kimi dayaq dur, kimsənin ziyan verməsinə imkan vermə, onu qoru… Mənə söz verirsənmi?

Zeyd əmisi oğlunu razı salacaq bir ahəngdə sakitcə "söz verirəm" dedi.

Ağıllı hökmdar təbəələrinin elmli olmasını istəyər. Nadan və cahilləri idarə etmək nə qədər asan olsa da, bu, dövləti inkişafa deyil, məhvə aparar. Xilafətdə elmin yüksəliş illəri idi… Bəndovan məscidi böyük və əzəmətli idi. Məscidin nəzdindəki mədrəsədə Arranın böyük alimi Əhməd Bərdəi dərs deyəcəkdi.

Məktəb yolu elə də uzaq deyildi. Hamı dəstə-dəstə mədrəsəyə yollanırdı. Camaatın həmişə məscidə gedib-gəldikləri yol olsa da, bu gün sanki yola göydən işıq ələnmişdi. Mədrəsədə məntiq, hədis, təfsir, sərf, vəz, bəlağət, kəlam, hikmət, fiqh, fəraiz, əqaid, üsulü fikir, elmi-həyat dərsləri veriləcəkdi. Yola səpələnən elmin işığı üzlərdəki sevinc işığına qarışmışdı.

Sinif otağı açıq havada idi. Səhər günəşinin şəfəqləri mədrəsənin həyətinə yayılmışdı. Əhməd Bərdəi ilk dərsə başladı. Fikirləri hikmətli, nitqi dünyanın ən möhtəşəm hafizinin

səsi qədər sirayətedici, səlis bir müəllimi dinləmək böyük zövq idi.

– Allah-təala lütf eləyib, bütpərəst Şərqə müqəddəs kitab göndərdi. Amma nə baş verir?! Hələ də o kitabdan bütlər yaratmaq üçün istifadə edirlər. Quranın hikmətini, içindəki böyük elmləri öyrənmək və öyrətmək əvəzinə, yaratdıqları bütləri beyinlərə yeridirlər.

Zeydlə ön sırada oturub diqqətlə müəllimi dinləyən Qeys bayaqdan bəri burnunu qıdıqlayan, hər nəfəs aldıqca bədəninə yayılıb ürəyini döyündürən o uzaq ətri tanıdı. Nə qədər çalışsa da, daha fikrini dərsə verə bilmədi. O doğma ruh burda, lap yaxında idi. Müəlliminə hörmətsizlik edib arxaya çevrilmək istəməsə də, ürəyi uçunurdu.

– Hikmət həqiqətdir. Ən böyük həqiqət isə budur ki, Quranı dərk etmədən əzbərləmək özü korluqdur. Onun hər surəsindəki kəraməti, elmi anlamaq lazımdır ki, yaranışdan bu günə hələ də dərk edilməyən dünyada əsas və tək yolu, doğuşdan ölümədək olan yolu qət etməyin həqiqətini öyrənəsən. Öyrənməyin ibtidası sualdır. Bütün suallar nə vaxtsa cavabını tapır, gərək o cavab üçün yetişəsən…

Uşaqlar maraqla dinləyir, arabir sual verib, cavab alırdılar.

– Biz sizinlə həqiqətin yoluna düşüb asta-asta hər şeyi öyrənəcəyik. Bir az fasilə verək. Çox istidir. Sularınızı için, dincəlin, sonra hədis və fiqh dərsləri ilə davam edərik.

Əhməd Bərdəi sözünü bitirib, məscidə girdi.

Qeysin heç vaxt unutmayacağı o an gəldi. Arxaya dönəndə

indiyə kimi rast gəldiyi gözəlliklərin ən mükəmməlini gördü. Qeyri-ixtiyari ayağa qalxdı, donub qaldı. Qarşısındakı ağ işıqdan yoğrulmuş insan idi – heç vaxt kölgə düşməyəcək ağ işıq!!! Ağlını başından alan, ömrü boyu ixtiyarsız aradığı rayihənin mənbəyi olan bu işıq onu özünə çəkirdi. Qollarının nə vaxt qanadlara çevrildiyini özü də hiss etmədi. İki alovlu qanad həmin işıq topasını ağuşuna alıb bərk-bərk qucaqladı.

– Səni ömür boyu axtarmışam, – Qeysin sözlərini təkcə köksünə sığınmış Leyli duydu.

Bir-birini əsla tanımayan qızla oğlanın mədrəsədə, hamının gözü qabağında qucaqlaşdığını görənlər heyrətdən donub qalmışdılar.

Leyli başını qaldırıb Qeysin üzünə belə baxmadı. Yalnız onu həzzə boğan, canından heç vaxt getməyəcək qolların istisini hiss edirdi. Ətrafdakı səs-küy onları sanki dərin bir şirin yuxudan ayıltsa da, bir-birindən başqa heç kimin fərqində deyildilər.

– Siz nə edirsiz? Nə baş verir? – Ayişə heyrətlə gözlərini bərəldib qışqırırdı.

– Qeys, burax qızı, neyniyirsən? – Zeyd dostunun qolunu dartışdırırdı.

Bu dəhşətli hadisə bircə saata bütün qəbiləyə yayıldı. Fəttah bütün qohum-əqrəbasını yığıb, qəzəbindən az qalırdı, yerin altını üstünə çevirsin.

– Belə azğınlıq, tərbiyəsizlik olarmı?! O küçüyü öldürsəm də, ürəyim soyumaz! – bağırır, deyinir, gözlərindən qan damırdı. Əl-Qasımi qardaşı oğlunu sakitləşdirməyə çalışsa da, yanğına

körüklə gedirdi:

– Mən sənə vaxtilə deyirdim, inanmırdın. Deyirdim, axı, əl-Müləvvəhin oğlu dəlidir, məni görəndə qaçıb gizlənir. İndi nə oldu belə ürəkləndi? Necə yəni sən heç kimə fikir vermədən hamının gözünün qabağında Fəttahın qızını qucaqlayasan?! Bu nə cürətdi?! – bir gözü Fəttahda, onun Qeysə ən ağır cəza kəsəcəyinə ümid edərək səsini daha da qaldırırdı. – Məcnundur bu! Əl-Müləvvəh bədbəxtdir. İllər boyu gözlə-gözlə, axırda da əkib-doğduğun belə cünun olsun!…

Sayda qəzəbindən dil-dodağı qurumuş ərinə su verib, onu sakitləşdirməyə çalışdı:

– Axı, sən özün həmişə deyirdin ki, Leylini elə adama ərə verəcəm ki, onu çox sevsin, bizim kimi qorusun. Bəyəm, Qeys pis oğlandır? İllərdir tanıdığımız ailənin övladıdır, atası o boyda hörmət-izzət yiyəsi… Yəqin qızımızı sevir, cavandır, bir səhvdir edib, yəqin…

İçdiyi su Fəttahın sanki əsəblərinin üstünə səpilirdi. Arvadının sözləri, deyəsən, ağlına batırdı. Bəlkə də, Sayda bir az da davam etsə, ürəyi yumşalardı, amma əl-Qasımi ona sözünü bitirməyə imkan vermədi:

– Sizə deyirəm ki, o hər məni görəndə qorxub gizlənir. Beləsindən ailə qoruyan kişi olar? Leylini necə qoruyacaq? Ona necə ər olacaq? Onu qızdan uzaq tutmaq lazımdır. Deyirəm sizə, Məcnundur o, Məc-nun!

Fəttah bayaqkı qədər qəzəbli olmasa da, səsi boğula-boğula son sözünü dedi:

– Leyli mədrəsəyə getməyəcək!

Qonşu otaqdan bütün danışılanları eşidən Leyli baş verənlərin gerçək olduğuna hələ də inana bilmirdi. O nə yaşadı, nə baş verdi? Doğrudanmı, Fəttah kimi ömrü boyu ona evdən çıxmağa belə imkan verməyən atanın gözünün ağı-qarası, bircə qızı bunca özünü unudub əsla tanımadığı bir oğlanın onu qucaqlamasına imkan verdi? Üzünə belə baxmadığı Qeysin ağuşunun istisi, bu vaxta kimi dadmadığı bu naməlum həzzin dumanlı təsiri bir yandan, qonşu otaqdakı çığırtı-bağırtılar da bir yandan beynini qarışdırarkən, atasının “mədrəsəyə getməyəcək!” sözləri qulaqlarında ildırım kimi çaxdı! Dizi üstə çöküb hönkürdü…

Bütün qəbilə gözünü bərəldib əl-Müləvvəhin nə deyəcəyini gözləsə də, Qeysin hərəkəti atasını sevindirmişdi. Neçə il idi ki, onu dərd götürmüşdü. Qeysin Əl-Qasımini görəndə titrədiyi gündən məyus idi ki, oğlu qorxaqdır. İrəlidə onu bir cəngavər, bir sərkərdə kimi görmək istəyirdi. Həmin gün Qeysin titrəyib Nofələ sığınması atanın əl-qolunu sındıraraq yanına salmışdı. Bu gün mədrəsədə baş verənlər isə sübut edirdi ki, Qeys çox ürəklidir və heç nədən qorxmur.

Uzun müzakirələrdən sonra Müləvvəh və Rüqəyya qərara gəldilər ki, Nofəli də götürüb Fəttahın qapısına elçi getsinlər…

***

Sinif müəllimin gəlişinə hazır idi. Bircə Ayişənin yanındakı yer boş idi. Tez-tez dönüb arxaya baxan Qeysin səbri tükəndiyindən dostundan xahiş etdi ki, Leylinin niyə gəlmədiyini

Ayişədən soruşsun.

Dünəndən qızdan gözünü çəkməyən Zeyd üçün bu, yaxşı fürsət idi. Uzun, dəniz kimi dalğalı saçlarına vurulduğu qızın altdan-altdan ona baxdığını da hiss etmişdi. Amma qıza yaxınlaşmağa macal tapmadı, vəz dərsi başladı. Müəllim hüceyrələrdən danışırdı.

– … İnsanın qarşı cinsi sevməsi üçün, ilk növbədə, qarşısındakının nəyisə onda maraq doğurur. Kimsə qızın saçlarına vurulur, bir başqası gözlərinə, digəri gülüşünə, başqa biri hansısa əzasına. Qız da deyək ki, oğlanın boyuna, saqqalına, səsinə. Sonra maraq dairəsində olan şey onu elə cəlb edir ki, qarşıdakı insanı daha da yaxından tanıyır, yerdə qalanlar bəyəndikləri ilə eynilik təşkil edib onu itələmirsə, bu sevgi daimidir. Hüceyrələr də belədir. Toxum münbit torpağa düşərsə, inkişaf edər. Amma şərait bərbaddırsa, ən gözəl toxumdan da kül törəyər.

Kimsə arxadan söz atdı:

– Müəllim, onda Qeys Leylinin nəyinə vurulub?

Hamı pıqqıldayıb gülüşdü.

– Onu Qeysdən soruşsanız, yaxşı olar, – deyə müəllim söhbəti bağladı.

Zeyd Ayişədən aldığı pis xəbəri Qeysə ötürdü:

– Atası Leylinin mədrəsəyə gəlməsini qadağan edib…

Uzun illər arayıb tapdığı səadəti bircə gündə əlindən alırdılar. Üstünə məşum bir ağırlıq çökdü.

Qəbilənin hörmətli ağsaqqalları, əyanları Müləvvəhə qoşulub

elçiliyə getdilər. Fəttahın yanında Əl-Qasımidən başqa kimsə yox idi. Nofəl hökmdarla Bağdada getdiyindən gələ bilməmişdi. Son dəqiqəyə qədər Nofələ nə cavab verəcəklərini düşünməkdən az qala dəli olan Fəttah da, əmisi də rahat nəfəs aldılar.

Leyli bütün günü yataqdan qalxmamış, mədrəsədən qayıdandan bu günə kimi iştahadan kəsilmişdi. Sayda qızının ağzını arayıb Leylinin də Qeysə dəli kimi aşiq olduğunu öyrənmişdi.

– Bizim bircə övladımız var. Qızımız Qeyssiz ölə bilər. Sənin hikkən önəmlidir, yoxsa qızının gələcəyi? – Sayda göz yaşları içində ərini fikrindən döndərməyə çalışırdı.

Adət-ənənəyə uyğun qız istənildi. "Qəbiləyə səs salmış bu qeyri-adi hadisə onu göstərir ki, bu iki gəncin qovuşması elə Allahın əmridir". Qız atası elçiləri təmkinlə dinlədi, görən deyərdi yəqin verəcək qızı. Eyni təmkinlə cavab versə də, sanki illərdir ürəyinə yığılıb qalmış kin-küdurəti sözlərinə yükləməyə əlinə fürsət düşmüşdü:

– Sənin kimi hörmətli bir adama "yox" deməyə əlimdə bir əsas yoxdur. Amma qızı verməmək üçün ən böyük əsas sənin oğlundur, Müləvvəh. Qeys ağla, məntiqə sığmayan hərəkətlər edir. Qızımı biabır edir. O, cünundur. Mənim dəliyə veriləsi qızım yoxdur!

Əl-Qasımi istədi, qardaşı oğlunun sözünə qüvvət versin, amma fürsət tapmadı. Müləvvəh artıq ayağa qalxmışdı, yanındakılara "gedək" deyib pərt halda Fəttahın evini tərk etdi.

Qeys evlərinin arxasındakı iki qabarıq qum təpəciyindən

gözlərini çəkə bilmirdi. Təpəciklərdən bir az sağda qumlar dalğalanıb sıralanmışdı. Qeys diksindi. Qarşısındakı dolğun qabarıqlıqlar, enişlər, məsafə, xətt, mütənasib əyriliklər, bihuşedici incəlmələr ona nəyisə xatırladırdı. Aman Allah, qumluqda uzanıb ona baxan, sinəsi, saçları, dümdüz incə beli, cazibədar ayaqları qumdan olan bu vücud ki Leylidir! Xəyala daldı. Nə vaxtsa o gözəlliyə toxunacaq, onun adi insan deyil, bu qum dənəcikləri kimi bir-birinə söykənən huri-mələk toxumalarından yarandığını özü hiss edəcək. Bu, Leylinin özüdür. Ona baxır, onu gözləyir…

Səhər açılar-açılmaz yerindən dik atılıb, evlərinin arxasındakı qumluğa qaçdı. Gözləri qum üstündəki Leylisini axtardı. Gecəki küləkdən sonra qum heykəl yoxa çıxmışdı. Bir az irəli qaçıb, dünən heykəlin olduğu yerdə dayandı. Məyus-məyus ətrafa boylandı. Uzaqdakı təpənin kənarında kimsə oturmuşdu. Beli o qədər incə idi ki, qum saatını andırırdı. Qeys ayaqlarını qucaqlayıb, başını dizinə qoyan qızın Leyli olduğunu yalnız indi anladı. O incəlikdə belin bədəni necə saxladığı bir möcüzə idi. Həm də ki qumdan ola?!

Çox yaxına getmədi. Elə olduğu yerdən xəyalən qızın yanında oturdu. Əlini belinə dolayıb özünə tərəf çəkdi. Leyli başını onun çiyninə qoydu:

– Məni çox sevirsən?

– Dünya günəşi sevdiyi qədər.

– Yox, sən mənim günəşimsən, axı, – Leyli gülümsədi.

Qeys bir ovuc qum götürüb, barmaqlarının arasından buraxdı:

– Mən qum zərrəsiyəm. Nə qədər ki sən məni qızdıracaqsan, mən sinənə qonub səninlə olacam. Bir gün külək məni sovurub aparsa, orda, – Qeys dənizin ortasını göstərib, – qaya kimi bitəcəm, – dedi.

Leyli dənizə tərəf boylandı. İri dalğaların arasında Qeysin dediyi qayanı axtardı. Amma qaya əvəzinə, dalğaların öz qanadları üzərinə qaldırıb batmağa qoymadığı qayıq var idi. Qayıq da qumdan idi və dalğaların suları onu əritmirdi. İçində ayaq üstə durub sahilə baxan isə Qeys idi.

– Mənim yanıma gəlirsən?

– Mən sənin yanındayam.

Leyli inadla etiraz etdi:

– Yox, Qeys, sən qayıqdasan… Məni aparmağa gəlirsən… Səni gözləyirəm… Gəl məni apar…

– Qeys, Qeys, məktəbə gecikirik, tez gəl, gedək, – Zeydin səsinə xəyaldan ayıldı.

Qum Leylini burda qoyub əsl Leylinin yanına getsinmi? Tərəddüd edirdi. Birdən çevrilib getdi. Yəqin Leyli bu gün məktəbə gələcəkdi. Qumdan olanı deyil, əsl Leylini görəcəkdi. Bəs, birdən məktəbə gəlməsə?… Arxadan Leylinin səsi gəldi:

– Gəl məni qurtar, Qeysss…

Çevrildi. Külək təpəcikdə oturan Leylini qum dənəciklərinə döndərib ətrafa səpələmişdi. İndi Leyli hər tərəfdə idi – havada, yerdə, ağaclarda, evlərin üstündə… Hamısı da bir səs olub onu köməyə çağırırdı. Məktəbə çatana kimi Qeysin ürəyi, beyni param-parça olmuşdu, bilmirdi hansı Leylinin, haradakı

Leylinin dalınca qaçsın.

Bu dünyada hər şey xəyaldır. Bircə xəyallarda gördüklərin məhv olub, səni aldatmasın. Bəlkə, buna görədir ki, səhrada uzun müddət gəzənlər orada xəyal gücü ilə dəniz, palmalarla əhatə olunmuş göl görürlər. Dəniz xəyalların limanı, insanı sevgisinə qovuşduran qayıqların güman yeridir. Çünki dənizlərin dibi də, sahilləri də qumdur. Qum isə yaranışın, gerçəkləşmək istəyən xəyalların təməl toxumalarıdır…

Bu düşüncələrin təsiri altında məktəb yolunu necə getdiyinin fərqinə vara bilmədi. Yol boyu hər kəs ona baxıb yanındakı ilə xısınlaşır, şəhadət barmağını gicgahında fırladıb bir-birinə Qeysin dəli olduğunu bildirirdilər.

Sevdiyi, illərlə arayışında, həsrətində olduğu bir qızı qucaqlamağın dəlilik olduğunu düşünən kişilər sanki səhərdən axşama kimi bütün iş-güclərini hansısa qadına sarılmaq üçün etmir, qadınlar da hər şeyi, bişirdikləri yeməyin dadından tutmuş evlərinin təmizliyinə qədər hər işlə onlara sarılacaq bir kişidən ötrü məşğul olmurdular. Bəlkə də, çoxları Qeysə dəli deməklə onu üstüörtülü təqdir edir, hər kişi özünə bir Leyli, qadınlar da ona heç nədən, heç kimdən çəkinmədən sarılacaq bir Qeys arzusunda idilər. Bir sözlə, hər kəs xoşu gəldiyinə, sevdiyinə bircə dəfə də olsa, sarılmaq istəyirdi, içlərindəki qorxu isə onları durdurur, əslində, Qeysə deyil, özlərinə dəli deyirdilər. Qeysə tənə edənlər şüuraltı düşünürdülər ki, min ildə, nə yaxşı, bir Qeys çıxdı meydana! Gizli sevgisini, xoşladığını nəinki dilə gətirməyə, düşünməyə belə qorxanlar ürəklənmişdilər. İndi hər

kəs cünunluğu bəhanə edib ondan daha çox söz açır, Qeysdən danışılanlarda xəyalən özlərini təsəvvür edib rahatlanırdılar.

Qeys məktəbin qarşısında görünər-görünməz ən ürəklilər dodağını yanlarındakının qulağına mümkün qədər yaxınlaşdırıb "Dəli gəldi…" pıçıldadılar. O əsnada neçə qız, neçə oğlan insanın həssas nöqtələrindən olan qulağında isti nəfəs, məhrəm toxunuş hiss etdi. Həmin anda bir-birinə ömürlük aşiq olanlar da, həyəcanlanıb sadəcə, xoşhallananlar da oldu. Qeysin dillərə düşmüş dəliliyi hər kəsin özünə qoyduğu sərhədi aşmaq üçün güc, həmin anda dəlilikdən alınan ləzzət idi…

Leyli bu gün də məktəbə gəlməmişdi. Qeys oturacağın üstünə çıxıb bərkdən soruşdu:

– Leyli niyə gəlməyib?

– Səndən qorxur, Qeys, – arxadan kimsə dilləndi. Gülüşdülər.

Qeys səs gələn tərəfə baxmadan dedi:

– Hamınız korsunuz!

– Sən də cünunsan, Qeys. Bizə niyə kor deyirsən? – hamı nə isə deyir, onun hərəkətini müzakirə edir və danışdıqca onun doğrudan dəli olduğuna özlərini əmin edirdilər.

– Görmürsüz qum dənələrini? – nələrisə göstərirmiş kimi əlini havada dolandırdı.

– Görürük, sən qum dənəsisən, Qeys, – hamı gülüşdü.

Qeys yerinə oturub öz-özünə danışırmış kimi sakitcə dilləndi: "Axır ki, gözünüz açıldı. Biz hamımız qum dənələriyik, Leyli isə günəşdir…"

## VI fəsil

Zaman durmadan axır, onlar böyüyür, nə Leylinin kədərli siması, nə də Saydanın göz yaşları Fəttahın ürəyini yumşaldırdı. Qızını məktəb üzünə həsrət qoymuşdu. Qeys hər gün dərsə yeni bir ümidlə gedir, daha böyük xəyal qırıqlığı ilə qayıdırdı. Artıq üç gün idi ki, Zeyd və Ayişənin vasitəçiliyi ilə göndərdiyi məktublarına da cavab gəlmirdi. Dərsdən sonra Zeyddən ayrılıb Leyligilə sarı üz tudu. Yanından keçən hər kəsi qara kölgə kimi görürdü. Qara kölgələr sağdan, soldan Qeysi sıxsalar da, başını əlləri arasına alıb, əsəb və həyəcandan titrəyə-titrəyə, hər şeyə rəğmən xilasına, ağ işığa doğru gedirdi. Başını yuxarı qaldırdı, göydən birbaşa Leyligilin evinə süzülən ağ işığı görəndə üzünə təbəssüm yayıldı. Öz üstünə düşən ağ işıq isə daha güclü idi. Getdikcə əlləri, qolları yenə də alışdı, alovlu qanadlar onu daha da güclü etdilər. Daha qara kölgələrdən qorxmurdu, varlığına onları dəf edəcək güc-qüvvət yağmışdı.

Leyligilin evinə çatanda önünə Fəttah çıxdı. Bu adamın qızın atası olduğunu vecinə almadan sakit, özündən əmin halda "Çəkil!" dedi. Fəttah hay-küy salıb onu itələmək istəyəndə Qeysin alovlu qanadları əllərini yandırdı, alov bircə anda ətrafı sardı, ev alışıb-yanmağa başladı.

Qonum-qonşu tökülüşüb gəldi, su daşıyıb evi söndürməyə çalışırdılar. Qeys aranın qarışmasını fürsət bilib evə girdi, yatağında aclıq və susuzluqdan zarıyan Leylini qucağına aldı, evin arxasında yanğından əmələ gəlmiş böyük dəlikdən çıxıb,

Şirvan qoruğuna doğru qaçdı. Arada nəfəsini dərib, sürətlə hərəkət etməsinə yardım edən qanadlarını tərpədirdi.

Leyli baş verənlərin gerçəkliyinə inana bilmir, hələ də yuxuda olduğunu düşünürdü. Yol kənarına çəkilib bir az dincəlmək istədilər. Qeys qızı qucağından endirib əlindən tutdu, irəlidə pıqqıldayıb qaynayan vulkanın yaratdığı palçıq gölü sanki onlara qabarcıqların dili ilə nə isə demək istəyirdi. Qeys bu çağırışa cavab verdi, sevinclə özünü palçıq vulkanının ortasına atdı. Leyli də gülərək onu təkrarladı. Qızın heç düşünmədən dalınca gəlməsi Qeysi daha da xoşbəxt edirdi. Uzanıb bədənlərini tamamən palçığa qərq etdilər. Leyli əli ilə palçığı Qeysin üzünə sürtdü, o da eynilə cavab verdi. Palçıqdan bircə gözləri görünür, ləzzətlə əylənir, ucadan gülüşürdülər. İndi hər ikisi dəli idi. Dünyanın ən xoşbəxt dəliləri. (başlıq eləmək olar)

Günəş şəfəqləri palçığı qurutduqca üz-üzə dayanıb bir-birinə gülümsəyən iki torpaq adama çevrilirdilər. Həyat yenicə yaranmışdı. Yer üzündə ikisindən başqa kimsə yox idi – Qeys və onun sevgisindən yaranmış Leyli. Azad və xoşbəxt idilər. Kimsə onların sevgisinə mane ola bilməzdi. Sevib-sevilib artacaqdılar. Yalnız sevgidən törəyənlər gözəl, qüsursuz və əsl insan olurlar. Dünya sevgiyə qərq olacaqdı, insanlar yalnız sevgidən doğulacaqdı…

Bədəninə hopmuş palçıq quruyub torpaqlaşdıqca Qeys beynini tar-mar edən fikri qovmağa çalışdı. Torpaqdan ilk yarananlar – Adəmlə Həvva bir-birini sevməmişdilərmi? Sevmişdilərsə, bu qədər xəbis, naqis insanlar onlardan

törəməmişdirmi? Hələ dünyanın lap başlanğıcında onlardan törəyənlər bir-birinə qənim kəsilmədilərmi? Yoxsa cənnətdən qovulmalarının səbəbi də bu idi? Görəsən, Rəbbimiz hansının sevgisinə inanmadı? Yasaq meyvəni biri kimin inadına yedi, o biri də sevgisinə, yoxsa nəfsinə xəyanət etdi?…

Onları pak, təmiz torpaqdan yaratdı. Cənnətin qədrini bilməyənlər yarandıqları bu sadə, məsum torpağın qədrini biləcəkdilərmi? Bəlkə, elə bilmədiklərinə görə Allah da sevgisini seçilmişlərə verdi, sevgidən yaradıb sevdirdi.

Amma Adəm və Həvvadan sonra bütün dünyanın sevəcəyi bir insan olmadığından, dünyadakı insanların da hamısını sevəcək insan doğulmadı. Yenə bircə Allahdan başqa. Hər qul yalnız öz Allahını sevdi. Allah da öz qullarını. Qeys Leylini, Leyli də Qeysi sevdiyi kimi…

Qeys ömür boyu aradığına qovuşmuşdu. İndi Leyli lap yaxınında, qarşısında dayanıb gülümsəyirdi. Gözləri xoşbəxtlikdən süzülən, quruyub torpağa çevrilən palçığa bürünmüş Leylini səhradakı qum heykələ oxşatsa da, bu o Leyli deyildi. Qeys həyatında, bəlkə də, bu qədər xəyal qırıqlığına uğramamışdı. Təpəciyin üstündəki qumdan Leyli daha cazibədar, daha möhtəşəm idi. İlahi, nə vaxtadək xəyalımızdakından da yaxşısını vermək əvəzinə, bizi mütəəssir edəcəksən? Bu o Leyli deyil, axı. Yoxsa üstünü torpaq örtüb? Mən bu qızı qaçırıb uzaqlara aparıram. Hər zaman da istərəm ki, yanımda olsun. Bir tək o qumluqdakı Leylini hər gün xatırlamaq üçün…

Yola davam etdilər. Leylinin yorulduğunu hiss edən kimi Qeys onu qüvvətli qollarının üstünə alırdı. Düşüncələr isə bir an belə onu tərk etmirdi.

İrəlidə bir ceyran gördülər. Bu, dişi ceyran idi. Sufilərin dediyinə görə, həmişəyaşar olan bu ceyran bütün sevgililərin dərd ortağı olan məşhur Ana ceyran idi. Qeysin baxışları ona ilişib qaldı. Ceyran da bir xeyli onlara baxdı, çevrilib yoluna davam etdi.

Qeys qeyri-ixtiyari onun arxasınca düşdü. Yol boyu üzərlərinə yağan ağ işıq selinin sanki fərqində deyildilər. Ceyran arabir çevrilib baxır, sonra yoluna davam edirdi. Bəndovandan xeyli aralanmışdılar. Ana ceyran onları qoruğun dərinliyində sıx meşənin ortasındakı bulağın başına gətirdi. Bir az aralıda, iki nəhəng çinarın arasında sıx bitmiş ən gözəl güllərdən yaranmış yataq vardı. Qeys qızı yatağa uzatdı. Dodaqlarından öpüb sarıldı. Neçə gün idi ki, Leylinin varlığını sarmış o istilik qızı yenidən ağuşuna almışdı. Xoşbəxtlikdən qanadlanmışdılar…

Qeys Leylini gördüyü ilk gündən hər axşam onun xəyalı ilə bir şeir yazırdı. Kağıza köçürməzdi. Sevgilisini görə bilmədiyindən şeirlərini Leyliyə çatacağı ümidiylə, göylərə söyləyərdi. Bu gecə sevgililər murada yetmişdilər. Leyli heç nə düşünmədən sadəcə çox xoşbəxt idi. Həyatdakı ən böyük arzusuna çatan Qeysin şair ürəyi yerindən qopmaq istəyir, amma bunu sevgilisinə bildirmirdi. Nə idi bu pəjmürdəliyin səbəbi? Qumluqda gördüyü Leylini ağlından çıxara bilmirdi. Başını sinəsinə qoyub mışıl-mışıl yatan Leyli o deyildi. Anlaya bilmirdi, talemi onu sınağa

çəkir, yoxsa Leyli? Ya bəlkə, mən doğrudan Məcnunam…

Meşədə gəzəndə ağacların birindən asılmış ud gördülər. Qeysin çox gözəl ud çaldığını qəbilədə hər kəs bilsə də, Leyli təəccübləndi, şıltaqlıqla onun üçün nəsə ifa etməsini istədi. Qeys sevgilisini məmnun edə biləcək daha bir səbəbi olduğuna sevinib "Rast" ifa etməyə başladı. Muğamın mayesi Leylinin ürəyinin səsi, məqamı Qeysin sevinc və həyəcanla vuran ürək döyüntüləri idi. Ud ikisinin də yerinə onların ürək səsləri ilə danışırdı. Sevgi, sevinc, xoşbəxtlik, hətta bir-birindən gizlədikləri təlaş sayəsində ürək atışları mürəkkəb ritmdə, aritmiyada vurduqca ud bunu təkrarlayır, fanilərin eşidərkən ölə biləcəkləri cənnət musiqisini xatırladırdı. Qeysin nəbzi sevgi və çaşqınlıqla vurduqca Leylinin ürək ritmləri sevgidən doğan həzzin zirvəsində sinəsini qaldırıb-endirirdi. Mənsur Zəlzəl əl-Daribidən bu yana kimsə udu belə gözəl dilləndirməmişdi. "Rast" bütün muğamların anası olsa da, onun necə yarandığını hələ də kimsə doğru-düzgün bilmirdi. Qeys bu sirri bu gün, elə indicə çözmüşdü. "Rast" iki sevən qəlbin döyüntüsündən yaranıbmış…

***

El birliyi ilə Fəttahın evindəki yanğını söndürdülər. Qeyslə Leylinin valideynlərindən başqa kimsə onların yoxa çıxdığının fərqində deyildi.

Fəttah Müləvvəhə evi Qeysin yandırdığını, qızı qaçırdığını deyir, qəzəblə onu tapıb cəzalandıracağına and içir, az sonra sakitləşib çarəsizcə Müləvvəhə dil tökürdü: "Səni and verirəm,

kimsə qızımı oğlunun qaçırdığını bilməsin, onları tap gətir, nə desən, edərəm”.

Müləvvəh də çox narahat idi. Oğlu Leylini də götürüb hara gedə bilərdi? Qeysin yoxa çıxdığını kimsəyə bildirməsə də, oğlu ilə fəxr edirdi. Nə olursa-olsun, təki oğlu xoşbəxt olsun.

***

Bu səhər də meşənin ən gözəl çiçəkləri ilə Leylinin ətri bir-birinə qarışmışdı. Əl-ələ tutub meşədə gəzir, tez-tez sarılır, baxışları ilə sevgilərini ifadə edir, bu gerçəkləşmiş arzu üçün hər ikisi ürəyində dönə-dönə şükr edirdi.

Ana ceyran bütün ceyran və cüyürləri Leyli ilə Qeysin yatağının ətarfına toplamışdı. Onlar dövrə vurub rəngbərəng quşların oxuduqları nəğmələrə iki çinar arasında rəqs edirdilər. Qarşıdakı təpəlikdə isə bir bəbir ailə üzvləri ilə toplaşıb olanları seyr edirdi. Sufilərin Ata bəbir adlandırdığı meşənin şahı sanki Qeyslə Leyliyə deyirdi ki, mən də burdayam, sizin arxanızdayam.

Aşiqlərə xoşbəxtlik üçün daha nə lazım idi?! Meşənin dadlı meyvələrindən, bitkilərindən yeyir, ceyranların südündən içir, təbiətin gözəlliyindən zövq alır və meşənin əsl sahibinin onları qoruyacağına etibar edərək məmnun, hüzurlu günlər keçirirdilər.

## VII fəsil

Xeyli müddət mədrəsəyə getməməyi də artıq böyük söz-söhbət yaratmışdı. Müləvvəhgil Zeydi, Fəttahgil Ayişəni min

bəhanə ilə evə buraxmır, hər iki ailə övladının xəstə olduğunu deyir, Bəndovanda olmadıqlarını gizlədirdilər.

Əl-Qasımi bu gün özünün karvansarayında qalacaq tacir İbn Salamı qarşılamaq üçün əldən-ayaqdan gedirdi. Varlı tacir görən kimi ona mədhiyyələr yağdırmaq, köz şaurmasına qonaq eləmək, sonra hər şeyin qiymətini üçqat hesablamaq köhnə şakəri idi. İbn Salam təriflərdən sərməst olmuş, şaurma da çox xoşuna gəlmişdi.

– Bu yerlərin qoyun-quzusunun əti çox ləzzətlidir. Çünki dağlarda ən şəfalı otlardan yeyirlər.

– Buralar mənim çox xoşuma gəlir. Burda ev tikdirəcəm. Ticarətimi də elə burdan idarə edərəm. Yaşlanıram. Özümə bir yuva qurmağın zamanıdır.

– Bəs, bu günə kimi nə əcəb evlənməmisən? – Qasımi marağını gizlədə bilmədi.

– Mən məlaikə axtarıram. Tapa bilsəm, elə həmin an evlənəcəm, – deyib yayıla-yayıla güldü.

Əl-Qasımi fikirləşdi ki, bundan gözəl fürsət ələ düşməz. Nəyin bahasına olursa-olsun, Leylini qaytarmalıdırlar. Həm də İbn Salamın o qədər qızılı var ki, kimsə Leylini onun əlindən ala bilməz.

– Mən sənə deyərəm o mələyin yerini. Bütün Məşriq və Məğribdə belə qız tapa bilməzsən.

İbn Salam ciddiləşdi, sanki nəyisə nəzərdən qaçıracaqmış kimi gözünü həmsöhbətinin ağzına dikdi. Əl-Qasımi dil boğaza qoymadan Leylinin dillərə dastan ola biləcək gözəlliyindən,

atasının qəbilənin ən hörmətli adamlarından biri olduğundan ağız dolusu danışdı. Elə bil, karvansarayda müsafirlərinə otaq bəyəndirirdi. İbn Salamın həyəcandan əl-ayağı əsməyə başlamışdı. O, gözəl qadın görəndə belə titrəmə tutub tamamilə gücsüzləşirdi. İndi Əl-Qasıminin dediyi nişanələrdən təsəvvür etdiyi o gözəllik də görməzə-bilməzə ağlını başından almışdı.

Əl-Qasımi daha fürsəti fövtə verməyib ibn Salamı elə həmin axşam Fəttahla da tanış etdi. Qardaşı oğlunu kənara çəkib niyyətini açıqladı. Ağlabatan fikir idi, Fəttah əlüstü razılaşdı. Qərara gəldilər ki, Leyliyə ər olacaq ondan yaxşı namizəd yoxdur. İbn Salamın boynuna qoydular ki, Leylini səs-səmir salmadan tapıb gətirsin, qızı ona versinlər.

***

Qeysin Leylini qaçırıb qeybə çəkilməsi xəbərini eşidən Nofəl tədbirini gördü. Arranın bütün gizli xəfiyyələrinə əmr verdi ki, gəncləri duyuq düşürmədən yerlərini müəyyən edib, ona xəbər versinlər. Xəfiyyələr bütün Arran və Şirvanı didik-didik eləməyə başladılar.

## VIII fəsil

Hər gün günəş zirvədən şəfəqlərini yayıb meşənin dərinliyindəki böyük gölün şümşad sularını isidəndən sonra aşiqlə məşuq gölə baş vururdu. Arada bir-birinə sarılanda ağaclar utancaqlıqla gözlərini yumur, gülüşləri ətrafa yayılanda budaqlar və yarpaqlar da bu xoşbəxtliyə şərik olub sevinclə rəqs

edirdilər. Qeyslə Leyli bu səhər də adətlərini pozmayıb gölə üz tutmuşdular. Yaxınlaşdıqca qəribə səslər eşitməyə başladılar. Səssizcə ağacların arxasına keçib, gölün ətrafını izlədilər.

Görkəmindən dərviş olduğu bilinən xeyli adam gölün suyu üstündə rahatca gəzir, sahildəki Ana ceyrana sitayiş edərək, “bizi pərimizə qovuşdur” deyə asta səslə oxuyurdular. Ayaqlarında balıq pərlərindən ayaqqabı, əyinlərində yaşıl çay yosunundan qəribə libas vardı. Dərslərdən birində öyrəndiklərinə əsasən, Qeys onların su dərvişləri olduğunu anladı. Çay və göllərin üstüylə hərəkət edib, müqəddəs bildikləri su pərisini axtarırdılar. Su pərisi Mütləq həqiqətin yolunu göstərib onları sualtı cənnətə aparacaqdı. Suyun üzərində aram-aram rəqs edən dərvişlər astadan oxumağa davam edirdilər:

*Ey pəri, gözəl pəri,*
*Sən tez gətir müjdələri…*

Əl-ələ tutub gölü əhatəyə alan, sağa-sola hərəkət edənlər isə meşə dərvişləri idi. Əyinlərində qurudulmuş kətan zoğlarından geyimlər, başlarında zirinc çubuqlarından hörülmüş araqçın vardı. Onlar da yalnız meşələrdə yaşayar, hər dərviş bir ağac seçib ona qayğı və sevgisini bəxş edər, Ata bəbirə sitayiş edərdilər. Meşə dərvişlərinin cənnəti elə meşə olduğu üçün onlar heç bir şey aramırlar. Su dərvişləri nəğmə və sitayişlərini bitirib göldən süzülən arxın üstüylə gəzə-gəzə arxın töküldüyü böyük dağ çayına tərəf getdilər.

Meşə dərvişləri toplanıb, öz aralarında xısınlaşandan sonra dəstə ilə aşiqlərin gizləndiyi yerə tərəf gəlməyə başladılar.

Qeys onların məqsədini bilmədiyindən ilk ağlına gələn Leylini ondan ala biləcəkləri oldu, qızı qucaqlayıb özünə möhkəm sıxdı. Nə olur-olsun, sevgilisini kimsə əlindən ala bilməzdi. Qəflətən göydən süd kimi ağ işıq zolağı uzanıb, ikisini də ağuşuna aldı. Qeysin qolları qanadlara çevrilib alovlandı.

Meşə dərvişləri bircə anda diz çöküb alova və işığa bürünmüş Qeyslə Leyliyə təzimə başladılar. Allah onların cənnətinə mələkləri nazil etmişdi, təslimiyyəti vacib sayırdılar. Gördükləri bu möcüzəyə yaxınlaşmağa cürət etmədən gəldikləri kimi səssiz-səmirsiz meşənin dərinliyinə çəkilib gözdən itdilər.

Bir azdan aşiqlər baş verənləri tamamən unudub hərgünkü kimi gölün yamyaşıl sularında qol-boyun olub üzür, gülür, əylənirdilər.

– Leyli, deyəsən, Allahın vəd etdiyi Cənnət elə buradır. Gəl, burdan heç vaxt heç yana getməyək. Ömür boyu burda yaşayaq. Övladlarımız da elə burda doğulub, boya-başa çatsın. Burda xoşbəxtliyə qara kölgə salan şər qüvvələr yoxdu. Görürsən, burdakı hər kəs, hər şey bizə sayğıyla yanaşır, kimsə eşqimizi özü üçün maneə saymır, kimsə məni Məcnun, səni haqdan azmış hesab etmir. Əsl xoşbəxtlik budur, Leylim, biz istədiyimiz kimi yaşayırıq və heç kim bizim istəyimizə qarışmır, qarşı çıxmır…

Qeys danışdıqca xoşbəxtlikdən gözləri alışıb-yanan Leyli sevgilisinin sinəsinə sıxılıb:

– Mən də xoşbəxtəm, əzizim. Mən də heç yana getmək istəmirəm, – dedi, – getməyək, xəbis insanlardan uzaqda, asudə, rahat yaşayaq, – sonra qızara-qızara əlavə etdi: – Çoxlu uşağımız

olsun, sənin kimi ağıllı, qəhrəman, sevgisinə sahib çıxan güclü oğullarımız…

Məcnun sözünü havadan alıb “sənin kimi dünya gözəli qızlarımız” deyə davam etdi, dodaqları ilə astaca Leylinin dodaqlarına toxundu…

***

İbn Salam əshabələrinin hərəsinə bir kisə qızıl verib, Leylini axtarmağı əmr etdi. Adamlarından dördü meşəyə, ikisi isə səhralığa üz tutdu. Axtarışları meşədə edən atlı dəstəsi ağacların dərinliyində tonqal qalayıb, dincəlmək üçün ətrafına toplanmışdılar. Elə həmin saatlarda Nofəlin xəfiyyələrinin başçısı Qeyslə Leylinin yerini tapdıqları xəbərini gətirdi:

– Çox xoşbəxtdirlər. Çətirli çinarların altı evləri, ətirli güllər, çiçəklər yataqları, meşə heyvanları, quşları da dostları. Cənnətin özüdür ora…

Nofəl bu xəbərə çox sevindi. Müjdəni Müləvvəhə çatdırıb onunla birlikdə həmin yerə getməyə qərar verdi.

Neçə müddətdir oğullarının dərdindən üzülüb əldən düşən Rüqəyya ilə Müləvvəh xəbəri eşidəndə sevincdən qanadlandılar. Nofəl dərhal yola çıxmağı təklif etsə də, onun uzun yol qət etdiyi və yorğun olduğunu bilən Müləvvəh oğlunu görməyə səbirsizlənsə də, gecəni yatıb dincəlməsi üçün israr etdi. Nofəl razılaşmağa məcbur oldu.

Süfrə ətrafında əyləşmişdilər. Nofəl “Fəttahla Sayda nə edirlər, Leylinin getməsində sizi də günahkar görürlərmi?”

soruşdu. Rüqəyya boşqabları süfrəyə düzə-düzə “sənə sevdiyin plovdan dəmləmişəm, – dedi, – əvvəlcə yeməyini ye, uzaq yol gəlmisən”.

Harda olsa, qarşısına ən ləziz yeməklər düzülən şahzadə Nofəl üçün heç biri Rüqəyya ananın yeməklərinin yerini verməzdi. Həmişəki həvəs və iştahla yeməyə girişdi.

Qan bağı olmayanlar nə qədər mehriban və yaxın münasibətdə olsalar da, doğmalıq bambaşqa bir duyğudur. Nadirən olsa da, yadların da bir-birinə doğmalıq qədər, bəzən daha artıq sevgisi və bağlılığı olur. Bu insanlar da Nofəlin ən doğmaları idi. Sözlərindən çıxmaz, qəlblərini incidəcək iş tutmaz, həmişə sayğı və sevgi ilə davranardı.

Bu ailənin dəyişməz qaydalarından biri də yemək süfrəsində səssiz olmaları idi. Müləvvəh Nofələ ta uşaqlığından öyrətmişdi ki, süfrə başında danışmaq nemətlərə hörmətsizlikdir. Həmişə deyərdi ki, Allahın bizə bəxş etdiyi növbənöv nemətlərin qədrini bilib dadını, ləzzətini duya-duya yeməliyik. Belədə nemətlər tək mədəmizdən keçmir, həm də dadından aldığımız zövq beynimizə, ruhumuza hopur, hüceyrələrimiz təzələnir. Adamın təkcə qarnı doymur, ruhu da doyub dincəlir. İnsan ruhunu idarə edən həzlər, əslində, qiymətsizdir.

Müləvvəh Nofələ həzlərin ibtidası olan yeməkdən ta sevgi və azadlığa kimi hamısını anlatmış, o da bunları qulağında sırğa etmişdi. İndi Qeysin sevgisinə duyduğu sayğı da bu ailədə aldığı tərbiyənin təsirindəndi.

Süfrə yığışdırılandan sonra Nofəl bayaq cavabsız qalan sualını

yenidən verdi. Müləvvəh həmin anı yenidən yaşayırmış kimi boğula-boğula astadan dilləndi:

– Fəttah məni qəbilənin ən hörmətli ağsaqqallarının qarşısında təhqir elədi. Qızını vermədiyi azmış kimi, hələ üstəlik, “sənin oğlun Məcnundur” dedi.

Nofəlin bir anda qəzəbdən ürəyi alışıb-yandı. Onu böyüdüb boya-başa çatdıran, bu qəbilənin hər evinə, ailəsinə ata olan Müləvvəh kimi bir insanı belə aşağılamaq kimin həddi idi? Gedib Fəttahı boğazlayıb başını kəssə, yeridir. Müləvvəhi kimsəsiz görüb, nədir, bu nə cürətdir?! Üstəlik, qardaşı qədər doğması olan Qeysə cünun damğası vurmaq!

Müləvvəh Nofəli sakitləşdirdi. Axı, istəsə, özü də Fəttaha ən tutarlı cavab verəcək, ya da bu hörmətsizliyin qisasını alacaq gücdə idi. Amma bu rəzilliyi özünə sığışdırmırdı. Hər kəs özünə layiq bildiyi kimi davranar, Fəttahın etdiyi də əslində, Müləvvəhi deyil, onun özünü qəbilədə gözdən salırdı. Heç olmasa, onun kimliyini nəzərə alıb “yox”u da ləyaqətlə deməli, qapısına gələnin kim olduğunu unutmamalı idi. Başqa bir tərəfdən, Müləvvəh az da olsa, Fəttaha haqq verir, bir qız atası kimi qorxularının olduğunu anlayırdı. Deyilənlər Nofəlin ağlına batdı, hirsini soyutdu. Onu böyüdən kişinin bunca ağıl, məntiqlə fikir yürütməsi ilə, comərdliyi ilə qürur duydu.

Nofəl özünə yer tapa bilmir, gözünə yuxu getmirdi. Müləvvəhgili duyuq salmadan səssiz-səmirsiz gecə ilə yola çıxıb dəstəsi ilə birgə yola düşdü.

IX fəsil

Bu səhər aşiqlər göldən qayıdanda yamyaşıl otların arasından bir səs eşitdilər. Astaca otları aralayıb baxanda təzə doğulduğu bəlli olan bəbir balası gördülər. Alnının ortasında, qaşlarının arasındakı qara ləkələr xırdaca alov dilimlərini xatırladır, gözünün altında, burnunun hər iki tərəfindəki naxışlar kəpənək qanadlarına bənzəyirdi. Maviyə çalan gözləri, üfürülmüş zəncirotu saplağına bənzəyən bığları vardı. Leyli uşaq kimi sevinir, "nə gözəldir!", "nə şirindir!" deyə üzündən təbəssüm çəkilmirdi. Qeys körpə bəbiri qucağına aldı. Leyli lap astaca toxunub sığallayanda bala bəbir isti, məhrəm toxunuşdan xoşhallanırdı. Bu körpənin qayğıya, ən əsası, qidaya ehtiyacı vardı. Qərar verdilər ki, anasını axtarıb tapsınlar.

Aşiqlərin yatağının yerləşdiyi iki çinarın arası meşənin əsas mərkəzinə çevrilmişdi. Bütün ceyranlar, cüyürlər hər gün olduğu kimi, yenə dostlarına baş çəkməyə gəlmişdilər. Qayalığın üstündə, ailəsinin əhatəsində Ata bəbir həmişəki yerini tutmuşdu.

Qeys bala bəbiri əllərinin üstündə yuxarı qaldırdı ki, bəlkə tanıyıb yiyəlik edən olar. Ata bəbir uzandığı yerdən qalxıb nərildədi, ani baxıb yenidən yerinə yatdı. O biri bəbirlərdən də önə çıxan, körpə bəbirə maraq göstərən olmadı. Qeys qayalığa doğru irəliləyərək, bala bəbiri otların üstünə qoydu və geri çəkildi. Xeyli gözləsələr də, bəbirlərdən yaxına gələn olmadı. Körpə bəbir qalxmaq istəyəndə dizləri əsdi, yerə oturdu.

Acından taqəti yoxdu, qırıq-qırıq narahat səslər çıxarırdı.

Ana ceyran ağacların arasından çıxıb ona doğru getdi. Əvvəlcə alnını yalayıb sakitləşdirdi. Sonra yerə uzandı. Süd iyi alan bala bəbir ayaqları dolaşa-dolaşa Ana ceyrana yanaşdı və acgözlüklə onun döşlərini əmməyə başaldı. Əmib doyduqdan sonra ceyran qalxıb dişləri ilə bəbir balasının boynunun dərisindən tutdu, gətirib Qeysgilin önünə qoydu. (otyeyənlər bu hərəkəti eləmir, bunu ancaq yırtıcılar eləyir, yəni balanı dişləri ilə götürməyi) Leyli yenə uşaq kimi sevindi:

– O bizim oldu, Qeys, o bizimdir. Dünyanın ən şirin balacası bizimdir!

– Bizimdir, Leyli. Onu Ata bəbir kimi güclü və ağıllı böyüdəcəyik, – deyib, körpə bəbiri qucağına aldı.

Bəbir balasını aralarında yatırdıb hərəsi bir tərəfdən sığallayırdı. Körpə bəbir öz anasını itirsə də, onu sevən, qayğıkeş insanlara rast gəlmişdi, daha onun da ata-anası vardı.

– Qeys, bəs, onun adını nə qoyaq?

– Məncə, Bəbirxan olsun. Çünki o böyüyüb Ata bəbirin yerini tutacaq. Bəs, sən onun adının nə olmasını istəyərdin?

– Məndən olsa, adını Şirinim qoyardım. Axı, o çox şirindir, Qeys, – Leyli şıltaqlıqla dilləndi. – Amma qoy sən deyən kimi, Bəbirxan olsun. Mən ona Şirinim Bəbirxan deyəcəm, – Leyli çox sevinirdi. Sevgilisi yanında olsa da, meşənin bütün güclü və gözəl heyvanları ilə dostluq etsələr də, ikisinə aid bir canlının olması onu çox məmnun edirdi.

***

Nofəl yol boyu özünü qınayırdı ki, gərək Qeysi də, ailəsini də özü ilə Bərdəyə aparaydı. “Axı, siz mənim ailəmsiniz. Mənim yanımda kimin cürəti çatardı ki, sənə Məcnun deyə?!” Arabir gözü əl uzatsa çatacaqmış kimi yaxında görünən iki parlaq ulduza sataşırdı. Hətta bir an ona elə gəldi ki, ulduzlar məhz onun atının yoluna işıq saçır. “Yox, belə şey ola bilməz. Yəqin yorğunluqdan gözümə görünür”. İndi lap yaxına gələn ay kimi işıqlı ulduzların birindən Qeys, o birindən Leyli baxırdı – ikisi də mələk kimi məsum, yaraşıqlı və gözəl… Ömür boyu heç nədən qorxmayan igid sərkərdə təlaşlandı. Bu nə deməkdir? Dönüb dəstəsinə baxdı. Kimsə nə əl məsafəsindəki bu iki ulduzun, nə də aşiqlərin fərqində idi.

Birdən Nofələ hər şey aydın oldu. Aşiqlər təkcə onun gözünə görünüb işarə vermişdilər. Qeysdə nəsə bir qeyri-adilik olduğunu həmişə hiss etmişdi. Möcüzə olduğunu isə indi bildi. Qeyri-ixtiyari bir vərdişlə ayaqlarını atın yanlarına vurub, onu dəhmərlədi. Qeysə tez çatmaq, qardaşının səadətinə şahid olmaq, onu bağrına basıb sevincinə qoşulmaq istəyirdi.

Nəyin bahasına olursa-olsun, onları müdafiə edəcək, Qeyslə Leylini ayırmağa imkan verməyəcəkdi. “Kaş, onların yanaşı parlayan ulduz olduğunu Fəttah da görə biləydi! Əgər onların göydə ulduzu da birgədirsə, yerdə də bir-birini tapıb qovuşublarsa, onları ayırmaq taleyə qarşı gəlmək qədər ağılsızlıq deyilmi?! Görəsən, bu qəbilənin adamları Allaha, doğrudanmı, inanırlar? Bütün varlığı ilə bir-birinə bağlı olan iki sevən

insanı ayırmaqla onlara zülm etmək imansızlıq deyilmi? Axı, sevgi hər insana bəxş edilməyən ilahi səadət, yalnız göylərdən gələn qiymətli bir hədiyyədir. Hər şeydən vaz keçib bir-birinə sığınan iki insanı ayırmağa çalışmaq qəddarlıq deyilmi? Bəlkə, təkcə Qeys yox, bütün ağıllı insanlar onlar üçün məcnundur? Budurmu sizin həqiqətiniz, dininiz, imanınız? Bir gənc qəlbinin səsi, ruhunun çağırışına qulaq verməkdənsə, nə tez onu günahlandırmağa qalxdınız? Qeysə "Məcnun" deyə gülüb sərsəri hesab edənlər, məgər hamınız başdan-ayağa günahkar deyilsinizmi? Baxın, Fəttah qızını Qeysə vermədi, amma onlarsa meşədə də olsa, bir yerdə deyillərmi? Şad-xürrəm yaşamırlarmı? Kim qalib çıxdı? Sizin bu oyunbazlığınız, adət-ənənə deyə arxasında gizləndiyiniz kin-küdurətiniz, yoxsa ilahinin nuru olan eşq və aşiqlər?!

Bu sevgilərinə sadiqliyə görə Allah onları mükafatlandırıb, yer üzündə cənnətdə yaşamağı nəsib edib. Sizin hər gün etdiyiniz ibadətlər, apardığınız gərəkli-gərəksiz mücadilələr əbədi həyatda qazanmaq istədiyiniz Cənnət üçün deyilmi? İçinizi küdurətdən təmizləyib sevgiyə qucaq açmaqla, başqalarının həyatına qarışmaqdan əl çəkib öz səadətinizin qayğısına qalmaqla siz elə bu dünyada da hüzurlu bir cənnət həyatı yaşayıb, daha az günah etməzsinizmi? Bu, sizin əbədi cənnətə aparan yolunuzu daha da asanlaşdırmazmı? Həmişə möcüzə arzusundasınız. Sevdiyinin eşqindən qanadlanan Qeys özü aranızda yaşayan möcüzə deyildimi? Sizə möcüzə-filan lazım deyil, məzhəkə, qaravəlli lazımdır – birini "Məcnun", başqasını

“əxlaqsız” adlandırıb ələ salasınız, məzələnib kef edəsiniz, sizdən fərqlənəni hər gün daşlayıb, daş atan tərəf olduğunuzdan qürur duyasınız…”

Nofəl yol boyu onu müşayiət edən ulduzları izlədikcə riqqətə gəlir, fikirləri bir-birini sürətlə əvəz etdikcə, bütün dünyaya qarşı çıxmaq bahasına olsa belə, aşiqləri qoruyacağına inanırdı.

Meşə dərvişləri uzaqdan alov gördülər. Onların ən çox qorxduğu şey meşə yanğınları idi, neçə dərvişin ağac sevgilisi yanğında məhv olmuşdu. Alov gələn tərəfə qaçdılar. Ortadakı tonqalın ətrafında yaraqlılar xumarlanıb yatmışdı. Dərvişlərdən biri yerdən iri yarpaqlı budaq götürüb tonqalı söndürməyə başladı.

– Mənim ağacımın yarpaqları tonqal alovundan büzüşüb, məhv olur. Siz hər şeyi məhv etdiniz. Mən onu necə sevib qorumuşdum, – dərviş ağlamsınıb şikayətləndi. Tonqalın üstünə sallanmış ağacı qucaqlayıb sığalladı, yarasına məlhəm olmağa çalışdı.

O biri dərvişlər də tonqalı döyəcləyib tamamən söndürdülər. İbn Salamın yaraqlıları səsə oyanıb, dərvişlərə qılınc çəkdilər:

– Siz kimsiniz, tonqalı niyə söndürdünüz? – deyə bağırdılar. Bu qəribə qiyafəli adamların görkəmindən vahimələnib üstlərinə getdilər.

– Biz meşə yandıranların qənimiyik! – deyə hallarını əsla pozmadan cavab verən dərvişlər

bir göz qırpımında ağaclara dırmandılar, zirinc çubuqlarından hördükləri böyük toru yaraqlıların üstünə atıb, onları eyni

cəldliklə yuxarı çəkdilər. Torun ağzındakı toxunma ipləri dərvişlər hərəsi bir ağacdan çəkib, yaraqlıları bir-birinə elə sıxdılar ki, onlar əl-qollarını hərəkət etdirə bilmədilər. Bir xeyli asılı vəziyyətdə qalan yaraqlılar bu cındırından cin hürkən əcaib məxluqlarla dil tapmağa çalışdılar:

– Ey, səsimizi eşidirsiniz? Bizi buraxın, nə qədər istəsəniz, qızıl verərik.

– Kəs səsini, bizə dünya malı gərək deyil, – ən yaşlı dərvişin laqeyd səsi eşidildi.

Yaraqlılar nə qədər səsləsələr də, dərvişlərdən səs-səmir gəlmirdi, yaxınlıqdakı ağaclarda olduqları da sual altında idi. Həbs edildikləri torda ağaclardan asılı, hərəkətsiz qalmışdılar. Sıxışdıqlarından əl-qol açıb tordan qurtulmağa çalışsalar da, itələşib bir-birinə daha da ağrı verirdilər. Qurtulacaqlarına ümidləri get-gedə azalırdı.

Nofəl dəstəsi ilə meşədəki talaya yaxınlaşanda dan yeri yenicə sökülürdü. Göstəriş verdi ki, səssiz hərəkət etsinlər. Sevgililəri qəfil oyatmaq istəmirdi.

Bir az sonra artıq iki qardaş sarılıb bir-birini gördüyünə sevinir, hal-əhval tuturdular. Qeys bu qəfil gəlişə, məkanlarının tapılmasına nə qədər təəccüblənsə də, çox şad idi. Ayaqüstü söhbətdən sonra Nofəl gəlişinin məqsədini açıqladı:

– Yığışın gedək, sizi aparmağa gəlmişəm. Sizin nikahınızı özüm kəsdirəcəm. Əminəm ki, daha Fəttah da etiraz etməyəcək. Nikahdan sonra istədiyiniz yerdə yaşayarsınız.

Heç birindən səs çıxmadı. Nofəl onları razı salmağa çalışıb,

bu gedişin onların hər ikisi və ailələri üçün daha yaxşı olacağını izah etdi. Qeys Fəttahın razı olacağına inanmırdı. Qorxurdu ki, qayıtsalar, Leylinin üzünü bir daha görməsinə imkan verməyələr. Nofələ də fikrini açıq dedi.

Nofəl Leylini yola gətirməyə çalışdı ki, o da sevgilisinə təsir etsin, getməyə razılaşsınlar. Leyli də olanları unutmamışdı, atasının ona mədrəsəyə getməyi qadağan etdiyini, elçiləri qapıdan qaytardığını xatırladıb, əlavə etdi ki, getməyin düzgün qərar olduğuna inanmır.

Onun sözünə, nüfuzuna güvənməməkləri Nofəlin izzəti-nəfsinə toxundu, bir az incik, bir az sərt "Siz mənim kim olduğumu bilmirsinizmi? – deyə onlara gücünü xatırlatdı. – Gedək! Sizə şərəf sözü verirəm ki, kəbininizi kəsdirəcəm. Kimsə də sizə mane olmayacaq. Sizi ayırmağa çalışan qarşısında məni görəcək. Arxayın olun!"

Başqa əlacları qalmadı. Həm Nofəlin sözünə inandıqlarından, həm də sözünü yerə salmaq istəmədiklərindən razılaşdılar. Bu razılığı səssiz, sözsüz bir-birinə baxmaqla bildirdilər. Nofəl onların bir-birinə necə baxdıqlarını gördü, onlar ibadət edənlərin göyə, susuzun bulağa, torpağın günəşə, Ayın dənizə baxdığı kimi baxırdılar. Gənclərin bu sevgisi Nofəli də xoşbəxt edirdi. Gülümsədi, özünə də Qeys kimi sevə bilməyi arzuladı.

## X fəsil

Leylinin ömrü boyu bircə addım aralanmadığı

valideynlərindən, böyüdüyü Bəndovandan bu qədər uzaq, meşənin ortasında, bir-birindən fərqlənməyən təkrar günlər yaşamağı sevgilisi ilə birlikdə qalmaq xətrinə qəbul etdiyini düşünəndə Nofəl qızın iradəsinə, sevgisinin böyüklüyünə heyran olurdu. “Qeysə Məcnun deyirlər, bəs Leyli? Hər şeyə rəğmən bu meşənin dərinliyində kim bu qədər qala bilərdi? Qeysə bu baxışlarla baxmaq o deməkdir ki, mən ondan başqa kimsəni görmürəm. Leyli yalnız bu sevgi naminə yaşayır. Sən xoşbəxtsən, Qeys…” Ürəyində qardaşına qibtə edir, onların sevgisi önündə məğrur başını əyirdi.

Yol boyu bu fikirlər yenə Nofəli tərk etmədi. O belə bir sevgi görməmişdi. “Əziz qardaşım, dayım ibn Məzyəd məni öz varisi, şahzadə də elan etdi, bu qədər var-dövlət, bu boyda hakimiyyət verdi. Amma mən deyirəm, Qeys, sən dünyanın ən varlı, ən güclü, ən ağıllı adamısan. Təkcə Leylinin sənə o baxışlarına görə dünyanı vermək olar. Uca Rəbbimiz sizi göylərdən endirib ki, bizə dünyanın əsl həqiqətini, ən şirin neməti olan sevgini öyrədəsiniz. Sizin sevginiz Ona olan sevgidir. İnsanlar bir-birini sevmədən Rəbbimizi necə sevə bilərlər?!…”

Bəndovana kölgələrin öləziyən vaxtı çatdılar, şər qarışırdı. Sayda qızını duz kimi yalayır, sevincdən gah gülür, gah ağlayır, gah da Nofələ dua edirdi. Fəttah qızının gəlişinə sevinsə də, özünü tox tutur, üzünə belə baxmırdı.

“Əgər Allah insanların bu qədər günahlarını bağışlayıb onları sevirsə, insanlar niyə bir-birini bağışlamasınlar? – Nofəl barışıq yaratmağa çalışırdı. – Sən də bu cavanları bağışla. Bəyəm,

onlar hansısa pis iş tutublar? Seviblər bir-birini. Biz bu dünyaya sevməkdən başqa nə üçün gəlmişik ki? Özün fikirləş, sevgidən böyük nə var? Rəbbimizin özü sevgi deyilmi?"

Fəttah içindən "Məcnunun böyüyü burdaymış" fikrini keçirsə də, üzdə susurdu. Nofələ sayğısı sonsuzdu. Bəlkə də, həmin gün elçiliyə Nofəl də gələ bilsə idi, Fəttah qızını verməyə məcbur olar, nə Müləvvəhə o sözləri deməyə, nə də onlara etiraz etməyə üzü gələrdi. İndi də qızını tapıb gətirməsi böyük yaxşılıq, əvəzsiz lütf idi. Nofəlin sözləri ürəyincə olmasa da, hörmətindən susdu.

Nofəl düşündü ki, Fəttah mədrəsə görmədiyinə görə ibadət zamanı oxuduğu Allah kəlamlarını anlamır, yoxsa qəlbi belə qatı olmazdı. Amma öz fikrini elə özü də təkzib etdi: həyat da bir məktəb deyilmi? Bu yaşa çatıb, həyat ona heç bir şey öyrədə bilməyibmi? Axı, insanın baxdığı hər yerdə Allahın nişanəsi var. Fəttahlar, əl-Qasımilər və onlar kimi çoxları gözəlliklərə, yaxşılıqlara kar, kor olub, pisliyə boyun əyir, qorxudan uydurduqları bütlərə sitayiş edirlər… Fəttah kimi bir ataya Leyli kimi mələkxislət, sevgi dolu bir qız övladının bəxş olunması da Allahın lütfü idi. Nofəl düşünürdü ki, Leylinin müqəddəsliyi, məsumiyyəti qızın valideynlərinin deyil, Qeysin qismətidir. Allah-təala sevdiyi bəndələri yer üzünə tək göndərmir, ruhunu tamamlayacaq olanı da onun üçün göndərir və ruh əkizini tapmaq, ona can atmaq, çatmaq və xoşbəxt olmaq insanın öz əlindədir. Qeys bu bəsirət gözü kor olanların düşündüyü kimi, Məcnun-filan deyil, öz eşqinə sahib çıxan, kimsənin etməyə cürəti çatmayanı edə biləcək qədər qurd ürəyi

yemiş aşiqdir. Nofəl qardaşı ilə qürur duyur, ona baxdıqca ürəyi dağa dönürdü.

Nə vaxtdır övladlarını görməyən Müləvvəhlə Rüqəyyanın evində də bayram idi. Anası gedib-gəlib oğluna sarılır, bu müddət ərzində dəyişmiş, böyümüş, kişiləşmiş Qeysə baxmaqdan doymur, "boyuna qurban, ay bala" deyə sevib-əzizləyir, qarşısına cürbəcür yeməklər düzür, hamısından yeməsi üçün israr edirdi. Nofəl Müləvvəhin sual dolu baxışlarını görüb dedi:

– Mən cavanlara söz vermişəm ki, onlara kəbin kəsdirəcəm. Məncə, daha Fəttah da səhvini başa düşüb. Qızı Qeysi bu qədər sevirsə, başqa yolu da yoxdur. Siz də hazırlaşın, onları evləndirək.

Səhəri gün Qeys mədrəsəyə gedəndə Zeyd uzaqdan görüb sevindiyindən qaça-qaça ona yaxınlaşdı:

– Xoş gəldin, Qeys. Harda idin?… Gör bir nə qədər vaxt keçib? Müəllimimiz bizə xeyli dərs keçib, çox şey öyrədib… Burda sənin haqqında hərə bir söz danışırdı. Sən niyə mədrəsəyə gəlmirdin?

Qeys dinməyib sadəcə gülümsəyir, suallarına cavab ala bilməyən dostu dil boğaza qoymadan danışır, sanki bu müddətdə olub-keçən hər şeyi birnəfəsə çatdırmağa çalışırdı. Qeys isə bu şəhərdən, bu adamlardan çox uzaqda – sevgilisi ilə birlikdə idi: yenə ağacların əhatələdiyi gölün yaşıl sularında üzür, bir-birinə sarılıb öpüşür, ceyranlara, cüyürlərə qoşulub meşəni gəzirdilər. Yenə də hər gün öz əlləri ilə ən gözəl, rəngarəng

çiçəklərdən Leylisinə çələng hörür, başını sevgilisinin dizlərinə qoyub alnında, üzündə gəzən incə barmaqların arasından ağ-mavi buludları izləyir, bir-birinə şeir, mahnı oxuyurdular…

Yalnız Əhməd əl-Bərdəini görəndə mədrəsəyə çatdıqlarının fərqinə vardı. Müəlliminə yaxınlaşıb ədəb-ərkanla salamlaşdı.

– Səyahətin necə keçdi?

Qeys xəfifcə gülümsədi. Bəndovanda kimsə onun şəhərdə olmadığını bilmirdi. Amma müəllimi arif adamdı, gözündən heç nə yayınmazdı, ona yalan demək sayğısızlıq olardı.

– Əslində, səyahət deməzdim. Amma dünyanı tanımaq çox gözəldi, müəllim. Sən demə, dünya biz düşündüyümüzdən çox, lap çox gözəlmiş. Çox uzaqda deyil, elə yaxınımızda, ətrafımızda nə qədər gözəlliklər varmış…

Əl-Bərdəi tələbəsinin nurlu üzünə baxır, sözlərinə qulaq verdikcə onunla qürur duyurdu.

– Elədir, Qeys, Cənnət çox yaxındadır. Hər kəndimizdə, hər obamızda. Azərbaycan özü bir cənnətdir.

– İnsan cənnətini öz içində gəzdirməsə, hara gedirsə-getsin, hər yer ona cəhənnəm olar… İnsanların əksəriyyəti nə burda cənnətdə yaşaya bilir, nə də əbədi cənnəti qazanmaq üçün addım atır. Orda, meşədə isə heyvanlar bir-birinə insanlardan daha mehribandır.

Qeysin səsi sanki çox uzaqdan gəlirdi, müəllimi ilə üz-üzə dayanıb danışsa da, baxışları onu ələ verirdi.

Qeys sinif otağına girən kimi gözləri Leylini aradı – yenə gəlməmişdi. Gələcəyinə ümidini kəsəndə Zeydə döndü:

– Leyliyə məktub yazacam. Ver Ayişəyə, ona çatdırsın.

Kağızı önünə qoyanda isə anladı ki, məktubu yaza bilməyəcək. Nə yazsın, Leylinin bilmədiyi nə desin? Bir insan sənin canına, qanına hopubsa, ona necə məktub yazmaq olar? Sadəcə, içində pıçılda, o səni eşidəcək, düşün, fikrini oxuyacaq, cismən lap uzaqlara get, harda olursan ol, o səninlədir. O və sən birləşmisiniz artıq, iki ürək bir ürək kimi vurur, iki beyin bir beyin kimi düşünür. Sən ona məktub yaza bilməzsən. Yazmaq istədiyin hər kəlmə anındaca ona çatır. Sən ondasan, o səndə. Sənə məktub yaza bilmərəm, Leylim…

Dərsdən sonra Zeydi evlərinə dəvət etdi. Rüqəyya ana Bəbirxana dəvə südü içirirdi. Zeyd körpə bəbirin gözəlliyinə heyran oldu, xeyli oynadılar. Qeysgildən çıxanda Ayişə ilə həmişə görüşdüyü sərv ağacının yanına gəldi.

Qeys dostunu yola salandan sonra hündür bir sərvə söykənib xəyala dalmışdı. Yaxında Leyli ilə nikahları kəsiləcəkdi. Hər gün birlikdə mədrəsəyə gedəcəkdilər. Nə qədər maraqlı şeylər öyrənəcək, elmə yiyələnəcəkdilər. Leyli ilə harda təbiət var, oranı gəzib-dolaşacaqdılar. Heyvanların, quşların, balıqların, ağacların, güllərin, otların yaşamını öyrənəcək, bütün təbiəti qoruyacaqdılar. Uzaqdan görünən qadın onu xəyaldan ayırdı. Qadın tanış gəlməsə də, onunla daban-dabana addımlayan qara kölgə çox tanış idi. Amma daha əvvəlki kimi, qara kölgə görəndə qorxub titrəmədi. Qadın lap yaxına çatanda qapqara kölgə Qeysin önündə dayanıb, var gücüylə ruhuna, bədəninə sirayət etməyə çalışır, mma bircə addım da yaxına gələ bilmirdi.

Qeys ruhundakı bu qoruyucu gücdən, qüvvətdən ləzzət alırdı. Leylinin həmişə onunla olan ətri, işığı öz işığı ilə birləşib o qədər güclənmişdi ki, yer üzündəki bütün qara kölgələr toplaşıb üstünə gəlsəydi belə, yenə də Qeysi qorxuda bilməzdilər. Bir vaxtlar qara kölgədən qorxub, doğma işıq, kömək axtaran Qeys indi içindəki bu işıqla bütün qaranlıqları əridəcək gücdə olduğunun fərqində idi. Nə qədər ki Leyli onda idi, güclüydü Qeys.

Qara kölgəli qadın yaxınlaşıb salam verdi: – Böyüyüb sərv boylu oğul olmusan, Qeys. Məni, yəqin ki, tanımazsan. Hardan tanıyacaqsan, çox körpə idin.

Qeys maraqla qadına baxıb, beynini qurcaladı. Nə illah eləsə də, qadını tanıya bilmədi.

– Mən Səliməyəm, körpəliyində sənə dayəlik etmişəm.

– Çox sağ olun, yəqin üstümdə əziyyətiniz çox olub. Haqqınızı halal edin. Sizə necə kömək edə bilərəm?

Üzünü örtüklə qapatmış qadının yalnız gözləri görünürdü. O bomboz torlu gözlərdən sanki bir qadın deyil, min ölü baxırdı.

– Üzümü açıb səni qorxutmaq istəmirəm, Qeys. Mən cəhənnəmdəki ölülərdən də pis vəziyyətdəyəm. Bunu əlacsızlıqdan yalnız sənə deyirəm… Mən sizdən ayrılandan sonra cüzam oldum. Mənə kömək elə, buralardan lap uzaqlara gedim, məni kimsə tanımasın…

Qeys heç bir şey demədən səhər atasının cibinə qoyduğu qızıl pulları çıxarıb qadının ovcuna tökdü. Səlimə diz çöküb onun ayaqlarına qapandı. Həmişə mərhəmətli olan Qeys indi heç nə hiss etmir, qadına acımırdı belə. Yenə heç nə demədən bir addım

geri çəkilib, xəfifcə gülümsədi. Qadın qalxıb uzaqlaşdı, bir neçə addım gedib arxaya dönəndə Qeys onun bomboz gözlərindən axıb-tökülən nifrəti aydın gördü. Qara kölgəsi yorğun-yorğun dalınca sürünürdü.

Ayişə görüşə çox tədirgin və bikef gəlmişdi: (burda Qeysadən Zeydə keçid anlaşlılmaz oldu)

– Çox pis şeylər oldu, Zeyd. Yazıq Leyli bu dərdə necə dözəcək?

Zeydin səbir kasası daşdı. Leylinin başında nəsə bir fəlakət olduğunu düşünüb Ayişəni tələsdirdi: – Ayişə, adamın ürəyini partlatma, de görüm, nolub Leyliyə?

– Dünən Nofəl onları gətirəndən sonra gecə ilə kəbin kəsdirib Leylini ibn Salam adlı bir tacirə ərə verdilər. Leyli indi ibn Salamın evindədir. Lökbatanda özünə böyük ev tikdirib. Xalam deyir ki, evin ətrafında xeyli yaraqlı keşik çəkir. Yazıq xalam burda pərişandır, Leyli də orda. Qeys hələ bilmir. Eşitsə, Allah bilir, nə edəcək.

– Ayişə, sən qaç Qeysgilə. Rüqəyya anaya çatdır bu xəbəri, qoy bilsinlər, – Zeyd tələsik tədbir tökdü. – Birdən Qeys onlardan xəbərsiz hərəkət edər. Mən isə təcili Nofələ xəbər verməliyəm.

Əmisi oğlunun gətirdiyi bu qara xəbərdən Nofəlin dünyası başına yıxıldı. Axı, o Qeyslə Leyliyə söz vermişdi ki, onların kəbinini kəsdirəcək. Dünən niyyətini qızın atasına da bəyan etmişdi. Fəttah hansı cürətlə belə bir addım atıb? Deyək ki, Müləvvəhi də, məni də heçə saydılar, bəs qızın rizası olmadan bunu necə edə bilərlər? İndi mən Qeysin üzünə necə baxacam? –

Nofəl kimsəyə bir söz demədən öz içində ah-vay edirdi: “Mənə deməzmi ki, bizi sən bura gətirdin, sən ayırdın? Biz Leyli ilə bir yerdə deyildikmi? Biz ikimiz xoşbəxt, cənnət kimi bir yerdə rahat yaşamırdıqmı? Sən bizi bura Leylini İbn Salama ərə versinlər deyə gətirmisən? Nofəl içindən Qeysin qəzəbli suallarını eşidir, heç birinə cavab verə bilmirdi. Mən onları ayırdım, onlar gəlmək istəmirdilər. Mən nə etdim, İlahi!”

Atlanıb döyüşçüləri ilə birgə üzü Lökbatana, İbn Salamın iqamətgahına doğru çapdı.

Ayişə özünü Rüqəyya anaya çatdırıb olub-keçənləri danışdı. Qadın ağlaya-ağlaya Leylinin ərə verildiyini Müləvvəhə, o da Qeysə söylədi.

– Oğlum, görürsənmi, bax Fəttah da, onun qızı da qədirbilməzdirlər. Alma ağacından ayrı düşməz. Ot kökü üstə bitər. Gəldiyindən bir gün keçməmiş ərə getdi. Sən nur topu kimi oğulsan. Boyun əkdiyim sərvlərə çatır. Sən Leylidən daha yaxşısına layiqsən. Məncə, böyük Allah nə edirsə, xeyrə edir. Bəlkə də, Leyli ilə evlənməyin irəlidə sənə bədbəxtlik gətirəcəkdi. Şükürlər olsun Allahın böyüklüyünə. O adil Allah bizi darda qoymur.

Qeys sakitcə dayanıb dinləsə də, qulaqlarında Leylinin ağlamasından, “Qeys, Qeys…” deyə çağırmasından başqa heç nə eşidə bilmirdi.

– Oğlum, elə günü sabah ziyarət üçün Kəbəyə yola düşək. Gözümün nuru oğlum, Allaha ən yaxın olan o müqəddəs məkanda dua edib yalvaracam ki, o Gözəgörünməz özü sənə ən

düzgün yolu göstərsin, səni qorusun. Əziz oğlum, inan mənə, sən başqa bir qızla daha xoşbəxt olacaqsan. – Qeysin içində Leyli ağlayırdı, “Qeys… Qeys…” səsləri atasının səsinə qarışırdı. – Oğlum, məni qırma, səndən acizanə xahiş edirəm. Yol uzaqdır, mən də yaşlanmışam. Bu müqəddəs ziyarətimdə məni tək buraxma, oğlum.

“Qeys… Qeys… sevgilim…” deyə ağlayan Leylinin hıçqırıqları atasının səsini batırırdı. Əlini ürəyinin üstünə qoydu. Gözünün nuru Leylisi indi başqasının evində, başqasının arvadıdır. İndi onun gülən qara gözlərinə başqası baxır. İndi onun dodaqlarına başqasının dodaqları toxunur. Görəsən, əri ona çiçəklərdən çələng hörəcəkmi? Görəsən, Leyli ərinin də başını dizinə qoyub saçlarını oxşayacaq, ona mahnılar oxuyacaqmı? Gözlərindən yaş gilələndi. Bunları niyə düşünürdü? Leylinin sevgisinə, sədaqətinə niyə şübhə edirdi? Nə idi onun əl-qolunu bağlayıb sevgilisini xilas etməyə yollanmaqdan saxlayan? Dönüb baxdı, anası “balam bədbəxt oldu” deyə-deyə ağlayır, atası onunla ziyarətə getsin deyə hələ də yalvarırdı. Qeys atasının gözlərindəki yaş gilələrini görəndə ürəyi parçalandı, ilk dəfə idi onun ağladığını görürdü. Həmişə təmkinli, gülərüz, qürurlu Müləvvəh indi çox aciz və köməksiz görünürdü. Dağ boyda insan dərddən kiçilmiş, beli bükülmüşdü.

“Mənim üzümdən, hamısı mənim ucbatımdan. Mən valideynlərimə oğul olmadım, dərd oldum. Eşqim üzündən “Məcnun” dedilər, atam, anam dözdü, məni müdafiə etdi. Mənim üzümdən Fəttah kimi alçağın qapısına elçi getməyi

özünə rəva bildi. Yenə mənim üzümdən o namərdin sözlərini udmağa məcbur oldu. Nə vaxta kimi mən onları incitməyə davam edəcəm, nə vaxta kimi mən anamın gözündə yaş, atamın alnında dərinləşən qırış olacam…" Əlini yenə sancan ürəyinin üstünə qoydu, bu dəfə bərk sıxdı, içindən gələn hıçqırıq səsləri və adını eşitməmək üçün…

Leylini burada qoyub müqəddəs Kəbəni ziyarətə gələcəyinə inanmasa da, Müləvvəh oğluna hələ də yalvarırdı. Dizləri üstə çökən atasının gözlərindən axan yaş artıq selə dönmüşdü. Müləvvəh sanki ömrü boyu boğduğu bütün dərdlərini bu gün ağlayırdı. Onu bu vəziyyətdə görmək Qeysi çox üzürdü:

– Ayağa qalx, ata, – Müləvvəhin çiyinlərindən tutub qaldırdı, – səni bu vəziyyətdə görmək mənə ölümdən betərdi, – deyib atasını qucaqladı. – Bağışla məni, ata, hər şey üçün bağışla. Mən sənin sözünü yerə sala bilmərəm, mən də gedəcəm səninlə Kəbə ziyarətinə. Mənim də Rəbbimizə ediləcək dualarım var.

Oğlunun ziyarətə onunla getməyə razı olması Müləvvəhin qəddini düzəltdi. Elə bil odlanıb yanan ürəyinə su səpdilər. Uçmağa qanadı yox idi. O inanırdı ki, özünün də, oğlunun da duaları qəbul olunacaq, Qeys Leylini unudub ondan əl çəkəcək, ondan da gözəl və ağıllı bir qızla özünə həyat quracaq…

Döşəyin üstünə bardaş qurub oturan Müləvvəh bir qədər toxtamış, mütəkkələrə söykənib Rüqəyya ilə sabahkı səfərdən danışırdı. Qapı döyüldü. "İnşallah, xeyirlisi olsun, görək kimdi gələn?" Gələn Zeyd idi, Nofəlin öz dəstəsi ilə Lökbatana, İbn Salamın əlindən Leylini almaq üçün getdiyini dedi.

Mülәvvәh әsәbilәşdi: – Çox nahaq yerә gedib ora Nofәl! Mәnә desәydi, qoymazdım getmәyә! O qız artıq başqasının halal arvadıdır! Mülәvvәhin oğluna belә bir hәyat yoldaşı lazım deyil!

Qeys susurdu.

– İnşallah, Qeyslә Kәbә ziyarәtinә gedib gәlәk, Qeysi daha uyğun xanımla evlәndirәrik.

Qeys susurdu.

– Onun atası Qeysә "mәcnun" dedi, mәni hamının arasında tәhqir etdi. Oğlumun xәtrinә susdum. Amma Allah bilir ki, mәn o ailәni heç vaxt Qeysә layiq görmәmişәm.

Qeys yenә dә susurdu…

Razılıq әlamәti kimi görünsә dә, Leylinin uğrunda hәr şeydәn vaz keçәn Qeysin susması çox müәmmalı idi. Sanki onu dәyişmişdilәr, әvvәlki adam deyildi. Oğlunun bu müәmmalı susqunluğu büruzә vermәsә dә, Mülәvvәhi daha çox әndişәlәndirir, mәchul vәziyyәtdә saxlayırdı.

## XI fәsil

Meşәnin bәzәyi olan qoşa çinar Qeys vә Leylinin onların güvәnli kölgәsini tәrk etdiklәrini anlamışdı. Kökündәn tutmuş yarpaqlarına qәdәr hәr hissәsi can dәrmanı olan çinarlar hәm dә dünyanın әn güvәnli ağaclarıdır. Meşәnin iki әn yaşlı sevgili cütlüyü olan qoşa çinar Qeys vә Leylinin birdәn-birә yoxa çıxmalarına çox mәyus olmuşdu. Yarpaq-yarpağa yaxın olduqları digәr çinarlardan bir-birinә xәbәr göndәrmişdilәr ki,

onların hara getdiklərini öyrənsinlər. Meşəyə xəbər yayıldı ki, aşiqlər cəngavər atlılara qoşulub gediblər. Onların bir daha geri gəlməyəcəkləri düşüncəsi ağacları məyus edirdi.

Az sonra baş verən hadisə onları fikirdən ayırdı və ruhlarına ümid işığı tutdu. Bu yerlərdə görünməz iş idi, bu günlərdə yaxınlıqdakı göldə erkək qu quşu peyda olmuşdu. Sularda dərdli-dərdli üzüb göylərə baxaraq sevgilisini çağıran qu quşu ümidini itirib başını suların üstünə uzatdı.

Həmin gecə qoşa çinarlar bir-birinə sarılıb ağladılar, "Allahım, sevgililəri ayırma" deyə, yarpaqlı budaqlarını səmaya açıb dua etdilər. Erkək qu quşunu son gördüklərində ümidsiz halda ölümünü gözləyirdi. Qoşa çinarlar bu quşun bir işarət olduğunu anlayırdılar. Deməli, onların Qeys və Leylisini də bir-birindən ayırıblar. İndi, yəqin ki, Qeys də bu qu quşu kimi ümidsizliyə qapılıb, canını tapşırmaq istəyir. Bir-birinin göz yaşlarını yarpaqlarını tərpətməklə silən çinarlar çox istərdilər ki, adamlara təsir edə bilsinlər. Ayaqları olsaydı, Bəndovana kimi gedər, iki sevgilini ayıranlara sinə gərər, onları öz gövdələrində gizlədib kimsəyə verməzdilər. Heyif ki, əllərindən heç nə gəlmirdi. Kədər və ümidsizliyə qapılan çinarlar səhərə kimi göz yaşı tökdülər.

Kainatın ümid işığı, həyatın davam etdiyini yer üzünə ilk müjdələyən Günəş sübh şəfəqləri ilə qaranlıqları sökəndən sonra gölün üstündəki duman çəkildi. Qoşa çinarlar budaqlarını titrədib sağa-sola hərəkət etdirməklə sevinclərini bildirir, rəqs edirdilər. Suyun üzündə iki qu quşu gah sevgi rəqsi edir, ağappaq

qanadlarını çırpıb, suyu bir-birinin üstünə sıçradır, gah da sakitcə üz-üzə dayanıb, dimdiklərini bir-birinə söykəyirdilər. Dünən can verən erkək quya can gəlmişdi, bir neçə saat əvvəl son damlasına kimi itirdiyi ümidi sevgilisi ilə bərabər geri dönmüşdü. Çinarlar ümidli sevinc rəqslərindən doymurdular, bu ayrılıb-qovuşan qu quşları Allahın göndərdiyi bir işarədir, demək, Qeyslə Leyli də mütləq qovuşacaqlar.

***

Bu gecə hər kəs, hətta Sayda da inanırdı ki, Nofəl Leylini İbn Salamın əlindən alıb gətirəcək. Nə qədər sərt danışsa da, Müləvvəh də, arvadı Rüqəyya da Leyli gələrdisə, qəbul edəcəkdilər, təki övladları Qeys xoşbəxt olsun.

Yaxınlaşan atlıları görən keşikçilər İbn Salamın evinin damından oxlarının yayını çəkib, gələnləri nişan aldılar. Nofəl keşikçilərə səsləndi:

– Evin böyüyü ilə danışmalıyıq. Qabağımıza çıxa bilən kimsə varmı? – Nofəlin qan tökmək, kimsəni öldürmək fikri yoxuydu. Leylini özü ilə götürüb səssiz-səmirsiz gedəcəkdilər.

Damdakı keşikçilərdən birinin barmaqları boşalırdı, yayı çəkib oxu buraxdı. Təsadüfdənmi, ya qəsdlə atdığı ox yavərlərdən birini qolundan yaraladı. Daha Nofəli kimsə dayandıra bilməzdi. Əmr etdi, evin damında gizlənmiş, ətrafını sarmış keşikçilər ox yağışına tutuldu, qılınclar işə düşdü. Qan su yerinə axır, Nofəl və döyüşçüləri amansızlaşıb heç kimi sağ buraxmırdılar. Qapını sındırıb içəri keçdilər. Nofəl gözlərinə

inanmadı. Fəttah və Əl-Qasımi əllərində Quran, evin ortasında diz çöküb onu gözləyirdilər.

– Ey qəhrəmanlar qəhrəmanı, adil, qüdrətli və bütün millətin hamisi, səni and veririk bu müqəddəs Allah kəlamına, əl saxla! Bu Quranla Leylinin kəbini kəsilib, indi o, İbn Salamın halalca arvadıdır. Bizi tapdalayıb, qarışqa kimi əzə də bilərsən, amma bu Qurandan keçmə!

Nofəl bir Əl-Qasımi ilə Fəttaha, bir də əllərində tutduqları Qurana baxdı. Allahın kəlamına da, onun buyurduqlarına da ehtiramı sonsuz və şəksiz idi. "Məni nə çətin sınağa çəkdin, İlahi!" – deyə ürəyində fəryad etdi. Dövlətin içində onu dayısı ibn Məzyədin gözündən salmağa çalışan qüvvələr bununla həm də hökmdarın özünün nüfuzunu zədələmək istəyirdilər. İndi Əl-Qasımi ilə Fəttah onu elə bir seçim qarşısında qoyurdular ki, nəticəsi təkcə Nofəlin özü üçün deyil, həm də arxa-dayağı olan hökmdar dayısı üçün də ağır olacaqdı. Bütün Azərbaycana, sonra da bütün xilafətə yayacaqdılar ki, bunlar müqəddəs Quranı tapdalayıblar, Nofəl başqasının halalca arvadını zorla əlindən alıb qardaşı üçün aparıb.

Nə etsin, kimi seçsin, başına nə kül ələsin?! Axı, yazıq Qeyslə Leyli sevgilərinə sığınıb bəxtəvər ömür sürərkən onların isti aşına soyuq su qatıb o gətirdi, cəngavər sözü verdi, qürrələndi, "məgər məni tanımırsınız?" deyə təminat verdi. "Onları mən bədbəxt etdim" deyə içində səssiz-səmirsiz fəryad qopdu. Bircə anda min fikir keçdi beynindən. Qarşısında diz çökmüş bu rəzillərə baxıb-baxıb, heç bir şey deməyə haqqı olmadığı ilə

barışdı və eşiyə çıxdı. Qəzəb və kədərdən boğula-boğula sakitcə adamlarına geri çəkilmək əmri verdi. Dörd nəfər ayırdı ki, onlar Bəndovana qayıdıb sabah Kəbə ziyarətinə gedəcək Mülə vvəhi bütün yol boyu müşayiət etsinlər. Özü isə Bərdəyə, işinin başına döndü.

Yol boyu Nofəlin kədərdən bağrı yarılırdı, qardaşının üzünə bir daha baxmağa cürət edə biləcəkdimi? Meşədə o ilahi baxışlarla bir-birini süzən aşiqləri istəmədən olsa belə, ayırmaqla ömrünün, yəqin ki, ən böyük günahını etmədimi? "Bu nə sınaqdır, İlahi?! Hansı günahıma görə məni belə bir əzablı sınaqla cəzalandırdın? Niyə məni belə bir seçim qarşısında qoydun, Allahım? Axı, bilirdin ki, bu məqamda qardaşımın səadəti yox, sənin əmrini seçməyə məcbur qalacam". İçindən şıltaq bir səs Nofəlin ürəyini oyurdu: "Təkcə Allah kəlamına hörmətindənmi verdin bu qərarı, yoxsa özünün və haminin hakimiyyətinə kölgə salmamaq üçün qardaşının eşqini qurban verdin?" Bayaqdan bəri dolub qalmış Nofəlin gözündən özünü tanıyandan bu zamana kimi ilk dəfə bir damla yaş süzüldü! Üsyan edən vicdanı susdurmağa çalışmaq nə ağırdır, İlahi! Bir çarə, bir kömək, bir ümid yeri kimi yenə başını göylərə qaldırıb cavab tapmaq istədi. Göy üzü bomboş idi, nə ay vardı, nə ulduzlar. Nofələ elə gəldi ki, o gün səmadakı qoşa ulduz təkcə ona göründüyü kimi, indi də bütün səma cisimləri təkcə ondan küsüb, ondan gizləniblər. Başını aşağı saldığı anda düz qarşısına düşən iki ulduz ilğım kimi sayrışdı, bircə an yanıb söndülər…

## XII fəsil

Qarşıdakı uzun, keşməkeşli yolun çətinliyi nə Qeysi, nə də Müləvvəhi qorxudurdu. Ata inanırdı ki, Allah onun dualarını məhz müqəddəs məkanda eşidib qəbul edəcək, ailənin əzabları arxada qalacaq. Qeys isə bu yolçuluğa yalnız atasının sözünü yerə salmamaq üçün razılaşmışdı. Çünki ən böyük möcüzəni Allah ona artıq bəxş etmişdi – o, hər şeydən vaz keçəcək qədər sevməyi bacarır, ruhuna hopmuş Leylisini içində gəzdirir, bundan böyük nə möcüzə baş verə bilərdi ki?!

Mülәvvəh gördüyü yerlərdən, eşidib-bildiyi rəvayətlərdən danışır, yolu qısaltmağa, oğlunun könlünü açmağa çalışırdısa da, Qeys dinib-danışmırdı. Atası elə bilirdi bu yolçuluq oğluna əziyyətdir. Qeys isə içində Leyli ilə söhbətləşir, gördüyü hər şeyi onunla bölüşür, səsini, gülüşlərini eşidir, yorulanda çiyninə qoyduğu başını sığallayır, saçını oxşayır, yolun necə keçdiyini hiss etmir, sanki yorğa yerişli dəvələrin belində ləngər vura-vura getmir, quş kimi səmada uçurdu. Hər şeyi yuxarıdan izləyir, elə bu karvanın özünü də, atasını, Səidi, keşikçiləri göy üzündən görür, danışıqlarını lap uzaqdan eşidirdi.

Oğlunun son günlər heç bir suala cavab verməməyi, dinib-danışmamağı Mülәvvəhi qorxudurdu. “Daim susqun olmaq da cünunluğun əlaməti deyilmi? Əcəba, oğluma Məcnun deyənlər haqlı olmasınlar? Yoxsa Qeys Leylinin eşqindən doğrudan xəstələndi, ağlını itirdi? Ya bu müqəddəs haqq yolunun sahibi, sən məni naümid qoyma, oğlum ziyarətdən evimizə tam sağalmış

qayıtsın. Sən özün onu Leyli adlı bəladan qurtar, ya yerin, göyün, ərşin kürşün sahibi!…”

***

İbn Salam rahat nəfəs aldı. Ömrü boyu yığıb-topladığı var-dövləti işə yaramışdı. Bütün Şərqin ən böyük bazarlarını, ticarət limanlarını gəzib-dolaşdı, heç bir gözələ könül verib həyatını qura bilmədi. Gördüyü neçə-neçə gözələ yaxınlaşanda onu əsmə tutdu, başqa bir adam oldu – ayaqları titrəyib-süstləşən, bədənini soyuq tər bürüyən, kişiliyinə güvəni qalmayan biri. Hər dəfə də bu rüsvayçılıqdan uzaqlaşıb yeni bir yerdə məskunlaşan İbn Salam illərdir qarşısına elə birinin çıxmasını arzu edirdi ki, ona yenə həmin hallara düşməyə, rüsvay olmağa imkan verməsin. Leylinin böyükləri qızı öz ovuclarında gətirib onun önünə qoymuşdular. Daha rüsvay olmayacaqdı. Yenə gücdən düşüb süstləşsə belə, ona daha neçə kərə şans verəcəkdilər.

Leyli nikahdan bəri yatağından qalxmırdı. Qız sanki yaşamırdı, yalnız nəfəsi gedib-gəlirdi. Qızdırmadan yanan Leyli hər gün uzun-uzadı “Qeys, Qeys, hardasan?” deyə sayıqlayır, axırda əldən düşüb, azacıq yuxulayırdı. İbn Salam əbasını çıxarıb, qızın yanına uzandı, titrəyən əlini Leylinin sinəsinə apardı. Qız bircə anda ilan çalmış kimi sıçrayıb onu var gücü ilə itələdi. İbn Salam kişiləşib inadla qızı qucaqlamağa çalışdı. Leylinin ruhuna heç vaxt özünün belə fərqinə varmadığı güc hakim oldu. İbn Salam Leylinin vurduğu şillənin təsirindən

müvazinətini itirib çarpayıdan yerə sərildi. Nə edəcəyini bilməyən ibn Salam onu daim təqib edən hallara düşdü. Başını qaldırıb qızın üzünə baxanda vahimələndi: gözləri nifrətlə alov saçır; baxışları ilə səssiz-sözsüz onu söyür, lənətləyir, "səndən min qat güclü kişinin ağuşundan alıb özünə arvad etməklə kişi olacağınımı düşündün?" deyə məzəmmət edirdi. Ağlına sığışmırdı, bircə əlin içinə yerləşəcək qədər incəbelli, cizgilərindən körpətək məsumluq yağan zərif, gözəl qadın necə bu qədər güclü, bu qədər qəddar ola bilər? İbn Salamın yenə dizləri titrədi, süstləşib ət topasına çevrildi. Daha bir cəhd etsə, kim bilir, bu dişi canavardan daha nə zərbələr yeyəcəkdi?! Gözlərini qaldırmadan əbasını götürüb yataq otağından çıxdı.

Həyatında belə zərbə almamışdı. Neçə vaxtdır nə ümidlərlə pul kisəsinin ağzını açıb Əl-Qasımiyə, Fəttaha pul paylayanda bircə qızıl sikkəsinə də heyifsilənməmiş, Leyli kimi bir gözələ sahiblənməyin hər şeyə dəydiyini düşünmüşdü. Bu da axırı…

Adamlarına hazır olmağı əmr edib yola çıxdı. Əl-Qasımiyə onunla çox təcili bir işi olduğunu, karvansaraya gəlməsə, var-dövlətinin tamamən əlindən çıxacağı xəbərini yollayıb, bu rüsvayçılıqdan yaxa qurtarmaq üçün Bağdada yola düşdü…

## XIII fəsil

Yolu yarılamışdılar. Məsafə azaldıqca Qeys hər şeyi unudurdu; bu dəvə karvanını da, ətrafdakı insanları da, hər şeyi unudub düşünürdü ki, o, Leyli, bir də Allah var

kainatda, vəssalam. Kəbə ətrafında Leylinin əlindən tutub yanaşı addımlayacaqlar, bu günə kimi görməyin kimsəyə qismət olmadığı Allahı görəcəklər – kainatda yaşamış və bundan sonra da yaşayacaq bütün gözəl varlıqların ən gözəli, cənnətin özündən də gözəl olan Allahı…

"Ən gözəl, ən ağıllı, ən ədalətli, ən güclü, ən mükəmməl varlıq olan Allah da insandır. Ölümsüzlük onu allahlaşdırıb. Əgər əbədi yaşasaydılar, insanlar da Allah olmaq istəyəcəkdi. Allah insanı bütlərdən xilas edib, Kitab göndərdi. Söylədi ki, tək mənim əmrimə tabe olun ki, ölümə yox, Cənnətə gedəsiniz, orda siz də ölümsüz olub əbədi həyat yaşayın. O kitabı qəbul etdiklərini desələr də, insanlar yeni bütlər yaratmağa davam etdilər. İnsanlar yer üzündə də ölümsüz olsaydılar, hərə özündən bir büt yaradıb allahlıq iddiasında olardı. Allahın yeganə qüdrət sahibi olduğunu bilə-bilə ona doğru-düzgün beyət etməyən insanları yenidən haqq yoluna gətirmək üçün nə qədər səbr edir, əziyyət çəkir Allah…

Bəs, nə üçün Allah yer üzü ilə bu qədər əlləşir? Niyə yer üzünü unudub, öz cənnətində rahat yaşamır? Çünki Cənnətdə doğuluş yoxdur, yalnız ölümsüzlük var. Ona görə yer üzü insanların doğulub sınaqdan keçdiyi yer oldu. Bütün sınaqlardan keçən, sevimli bəndələrini Allah öz yanına, Cənnətə aparır. Cənnətdəkilər ölümsüzdürsə, bəs, onlar niyə allahlıq iddiasında deyillər?…" Bu sual doğulanda Qeysin fikir zənciri qırıldı.

Səhralıq ərazilərə girəndə görünən qayalıqlardan yonulmuş saraylar və heykəllər əzəməti ilə göz oxşayırdı. Hiss olunurdu

ki, hansısa qədim yaşayışın mirası olan bu tikililərdə həyat yoxdur və bəlkə də, əsrlər öncə tərk ediliblər. Bu günlərə müəyyən əfsanələr, hansısa daş kitabələr gəlib çatsa da, kimsə belə yerlərin nədən və nə üçün tərk edildiyini bilmir.

“İstər sivilizasiyalar, istərsə də ümumən dünya düzəni haqqında həddindən artıq cavabsız suallar var. Minilliklər boyu dünyanı ideal görmək istəyən insanlar ədalətli cəmiyyətdə yaşamaq üçün yeni düzən qurmaq istəsələr də, ya azlıqda qalıb, ya edam edilib, ya da bəzi dönəmlərdə olduğu kimi diri-diri yandırılıblar. Neçə-neçə sivilizasiyalar intibah edib mükəmməlliyə çatmaq istədikdə, ya hansısa bir qüvvə tərəfindən məhv edilib, ya insanlar özləri oraları tərk edib və o yerlərin tarixdə yalnız qalıqları qalıb…” Qeys bu vaxta kimi oxuduğu kitablardan aldığı bilgilər əsasında yolboyu uzun-uzadı mühakimələr yürüdür, gördüklərinə beynində şərh verməyi ətrafındakılarla ünsiyyətdə olmaqdan daha maraqlı hesab edirdi.

Həmin o əzəmətli saray və heykəllərə baxdıqca düşünürdü ki, görünür, bu insanların Leylisi olmamış, günlərini sevgilərinə həsr etmək əvəzinə, min bir əziyyətlə tikdikləri, indi də boş qalan bu kimsəsiz binaları qurub-yaratmağa sərf ediblər. Halbuki, hər şey, həyatın, yaşamın mənası da, zövq də, həzz də, ən böyük saray, ən böyük heykəl də elə Leylidir.

Ən böyük möcüzənin içində daşıdığı Leylisi olduğundan əmin olsa da, mənzilə yaxınlaşdıqca ürəyində bir duyğu baş qaldırırdı. Nə isə fərqli bir şeylə qarşılaşacağını hiss edir, bu möcüzənin necə təzahür edəcəyini isə hələ bilmirdi.

***

İbn Salam Bağdad yoluna gəlib çıxsa da, hələ özünə gələ bilməmişdi. Ömrü boyu axtardığına sonunda ürəkdən “yetişdim” deyib sevindikdən sonra xəyallarının alt-üst olması onu məhv edirdi. Həyatda az qala hər şeyin pulla alınacağına tam əmindi. “O hansı qadındır ki, var-dövlət qarşısında ərimir, dünənki uşaq, müqayisədə lüt-üryan sayıla biləcək Qeysə görə mənim kimi imkanlı kişidən imtina edir, hələ üstəlik, taleyinə təpik atar kimi ərinə də şillə vurub yıxır?!” O məşum an gözünün önündən getmirdi. Kaş, bir az cürətli ola, halalca arvadı olsa da, Allahın əmrinə qarşı gələn bu asi qadını yerində oturda biləydi! Kimdən alırsan bu cürəti? Səni mənə kisə-kisə qızıl qarşılığında satan idbar atandanmı? Yoxsa o… İbn Salam Leylinin gücünü Qeysdən aldığını o vahiməli baxışlarından anlamışdı. Bu deyilməmiş gerçək, kəbinli arvadının başqa birisinə sevgisi, hətta onunla heç bir zaman qovuşmaq ümidi olmasa belə, o adama sədaqəti İbn Salamı az qala dəli edirdi. Bu hissin adı qısqanclıq idimi? Yoxsa mənliyinin alçaldılmağına dözə bilmirdi? Bəlkə, o da Leyliyə aşiq olmuşdu? Bu fikirləri başından qovmağa çalışsa da, özünə belə etiraf etmək istəməsə də, ürəyi sözünə baxmırdı. Bütün yaşananların dərdi bir yana, Leylini bir daha görə bilməyəcəyinə əminlik hissi də onu qəhr edirdi. Ümid ölərsə, insan da ölər. İbn Salamın ümidi son damlasınadək onu tərk etmişdi. “Heç kim özünü aldatmasın, ağılsızlar məni də ağılsız yerinə qoydular, biabır oldum. Çox dediniz, pulla hər şey alınır. Nadan hərislər! Satın alına

bilinməyən şeylər də var bu həyatda" deyə eyni şeyləri təkrar edə-edə heydən düşən İbn Salam dərdini kimsəyə açıb-bükə bilməsə də, gözünün yaşını da saxlaya bilmədi.

Bağdada çatanda adamları kəcavədən hənirti gəlmədiyini görüb pərdəni aralayanda, İbn Salamın üzü üstə yıxılıb qaldığını gördülər. Dünyanın hər yerindən istədiyi gözəli pul gücünə sarayına gətirdə biləcək var-dövlət sahibi Leylinin qəhri ilə canını tapşırmışdı. Onu Bağdad yaxınlığında dəfn etdilər…

Leyli yatağından qalxa bilmirdi. Qulluqçuların gətirdiyi yeməklər hər gün sinidə qalıb soyuyur, geri qaytarılırdı. O qədər zəifləmişdi ki, əlini qaldırıb saçına belə apara bilmirdi. Hələ də bədənində qalan Qeysin istisi onu qızdırmasaydı, ac-susuz qalıb əldən düşən bədəni çoxdan bumbuz olar, ölərdi.

İbn Salamın ölüm xəbəri Bəndovana da gəlib çatdı. Onun o gecə tələm-tələsik Bağdada getməsinin, paytaxta çatmamış ölməsinin səbəbini nə Fəttah, nə də əmisi bildi. Amma ikisi də onun ölümündə Nofəldən şübhələnirdi.

– O gecə hücum edəndə, görünür, İbn Salam bərk qorxub ki, Nofəl Leylini onun əlindən alıb aparacaq.

– Bəlkə də fikirləşib ki, Nofəl yenə də gələ bilər, ona görə tez-tələsik çıxıb gedib, –Əl-Qasımi qardaşı oğlunun sözünə qüvvət verib əlavə etdi ki, – bəlkə, doğrudan ticarət işləri üçün gedirmiş Bağdada, Nofəl onu yolda öldürtdürüb, Lökbatandakı evində öldürmədiyindən peşman olub, yarımçıq işini sonradan Bağdad yolunda tamamlayıb.

Sayda onların söhbətini kəsib "Mən nə hayda, siz nə hayda, –

dedi, – Leyli ölüm ayağındadır. Bu gün Ayişə yanına getmişdi. Deyir heç başını qaldırıb üzümə baxmadı. Yazıq qızım günlərdir yemək yemir, su içmir, zəifləyib əldən düşüb. İcazə verin gedim, ya Leylini bura gətirim, ya da mən yanında qalım".

Əmisi qala-qala Fəttaha söz düşməzdi. Üzünə baxdı. Əl-Qasımi başını yelləyib razılıq verdi ki, anasını qızın yanına aparsın. Fəttah Saydanı da götürüb, Lökbatana yola düşdü.

Leyli qızdırma içində sayıqlayır, "Qeys… Qeys… hardasan, Qeys?…" deyə ara-sıra pıçıltı ilə, qırıq-qırıq səslənirdi. Sayda özünü otağa atdı. Ağlaya-ağlaya "Gözəl qızım, körpə quzum, səni nə kökə salıblar, ceyrangözlüm. Sakit ol, Leylim mənim, indi səni evimizə aparacağıq…" deyə qızını öpür, oxşayır, onu özünə gətirməyə çalışırdı. Leyli İbn Salama ərə verildiyi üçün anasından da incimiş, küsmüşdü. Gözlərini açıb anasını görəndə kövrəldi, gözünün yaşı selləndi. Bu saat doğma bir adamın sinəsinə sıxılıb təsəlli tapmasına çox ehtiyacı olsa da, onu satmış ailəsindən heç kimi görmək, müdafiəsinə durmağı bacarmayan anası ilə də kəlmə kəsmək istəmirdi. Üzünü divara çevirdi. "Qızım, İbn Salam öldü. Leylim, sən qurtuldun. Sevmədiyin adamla daha bir yerdə yaşamalı olmayacaqsan. Qalx ayağa, qızım, qalx, gedək evimizə".

Leyli İbn Salamın ölüm xəbərinə bir an sevinsə də, inanmadı. O artıq heç kimə, ən çox da valideynlərinə inanmır, kim bilir, bu dəfə hansı məqsədlə yalan söyləyirlər deyə düşünürdü.

– Mən heç yerə getməyəcəyəm, – heysiz-heysiz pıçıldadı. – Qeys gəlib məni aparacaq. Bilirəm, mən Qeyssiz yaşaya

bilmədiyim kimi, o da mənsiz yaşayan deyil, bilirəm, gələcək, – son sözlərindən özü də kövrəldi, yenə üzünü divara çevirib valideynləri ilə getməyəcəyini bildirdi.

Bayaqdan bəri içəridəki söhbətləri eşikdən dinləyən Fəttah arvadına səsləndi:

– Gəl qayıdaq, o qayıdan deyil.

– Sən istəyirsənsə, get. Mən qızımı bu vəziyyətdə qoyub heç yana gedən deyiləm, – Sayda qızının çəlimsiz, halsız əlini öpüb, ovucları arasına aldı…

***

Müqəddəs Səfa və Mərva təpələri arasındakı vadidə Zəmzəm bulağına çatanda Müləvvəh əllərini qaldırıb sidqlə dua etdi:

– İlahi, əmrlərinə sorğu-sualsız əməl edən əməlisaleh babamız İsmayıl, anamız Həcər sənin bəxş etdiyin bu müqəddəs bulaqdan su içib lütfünü qazandılar. Qoy, bu saf su oğluma da şəfa, onun haqq yoluna qayıtmasına vəsilə olsun. Səndən başqa ümid yerimiz yoxdur, Allahım, sən özün kömək ol, – sonra Zəmzəmin suyundan içib, camı Qeysə uzatdı.

– Ata, bəyəm mən haqq yolunda deyiləm?

– Nədir sənin yolun, oğlum, hara gedir sənin yolun?

Qeysin üzünə bir an elə bil günəş doğdu, təbəssümlə cavab verdi:

– Leyliyə! Leylidir mənim yolum.

Müləvvəh oğlunun cavabına çox mütəəssir oldu. Nə ümidlərlə bu boyda yol gəliblər. “Allah böyükdür. Hər halda, bu ziyarət

ağlını başına gətirər", – deyə düşünüb Qeysin sözlərinə fikir verмədi.

Kəbə ətrafında yeddi dəfə dövrə vurub təvaf etdikdən sonra qara daşın önündə durdular.

– Öp, oğlum, Cənnətdən nazil olmuş bu müqəddəs daşı! Dua et, Qeys, dua et ki, Allah günahlarını bağışlasın, Məcnun adı üstündən götürülsün!

Qeys təəccüblə atasını dinləyib gülümsədi. Heç nə demədən dodaqlarını qara daşa yaxınlaşdırdı. Leylinin ətri saçıldı. Qeysin bütün vücudu titrədi. Onun ruhuna, qanına hopmuş Leyli də bədənindən çıxıb qara daşı öpdü.

– Leylii! – deyə astadan sevinclə səsləndi. – Mən bilirdim, bilirdim möcüzə olacağına. Sən böyüksən, Allahım, – deyib, Qeys əllərini şükranlıqla dərgaha qaldırdı, – sən mənə möcüzəni göstərdin, Leylimin mənimlə olduğunu sübut etdin.

Onu heyrətlə izləyən Müləvvəhə çevrildi:

– Hər yer Leylidir, ata, yer də, göy də, ətraf da. Mən hardayamsa, Leyli ordadır. Gördün, Leyli burda da yanımdadır…

Müləvvəh oğlunun sevincini görüb, sözlərinə qulaq verib əmin oldu ki, oğlu sağalmaz bəlaya düçar olub. Bu müqəddəs məkan belə onu ağla gətirmədisə, deməli, daha heç nəyə ümid etmək olmaz. Özünün və oğlunun günahlarının bağışlanması üçün uzun-uzadı dualar edib ziyarətini bitirdi.

Sabah sübhdən evlərinə yola düşəcəkdilər. Müləvvəh bütün gecəni yata bilmədi. Müqəddəs Kəbəni ziyarət etdikdən

sonra oğlunun şəfa tapacağına şübhə etmirdi. Bu gün ziyarət edərkən oğlunun hər addımda Leyli deməsi, hər yerdə Leylini görməsi onu qorxutmuşdu. Əvvəllər ona Məcnun deyiləndə çox əsəbiləşər, oğlunun belə bir adla çağırılmasına qəzəblənərdi. Amma bu ziyarət əsnasında Müləvvəhə aydın oldu ki, oğlu doğrudan da xəstələnib və bu xəstəlik dəlilikdən, ağlını itirməkdən də çox Leyli xəstəliyidir. Müləvvəh də ömrü boyu bir qadınla yaşayıb. Rüqəyya ilk baxışdan xoşuna gəlmiş, sonra aralarında sevgi yaranmış və uzun bir yolçuluqla həyata birgə davam etmişdilər. Müləvvəh hətta uzun müddət övladları olmasa belə, başqa arvad almamışdı. Təbii ki, evlilikləri ərzində aralarında söz-söhbətlər də olmuşdu. O da Rüqəyyanı görməyəndə darıxır, yanında olmasını istəyirdi. Amma daha arvadını sevdiyi, hörmət etdiyi üçün ağlını itirmədi ki! Müləvvəh bunları düşündükcə bir kişinin bir qadının dərdindən dəli olmasını acizlik əlaməti hesab edir, oddan kül törədiyinə üzülür, arzu və ümidlərinin doğrulmadığı üçün dərdlənirdi. “Onun dünyaya gəlməsini nə ümidlərlə gözlədim, İlahi, sən şahidsən. Mən dedim ocağım sönməsin, soyum oğlumdan davam etsin. Mən dedim oğlum da mənim kimi güc-qüdrət sahibi olsun. Heç olmasa, öz övladım kimi böyütdüyüm Nofəldən nümunə götürsün. Qeysin nəyi çatmırdı ki, hamının hörmət edəcəyi, qorxusundan qarşısında tir-tir əsib təzim edəcəyi igid olmaq əvəzinə, bir qıza görə dəli-divanə olub Məcnun adını qazandı?!” Müləvvəh bilmirdi ki, ona qəzəb daha çox güc gəlir, yoxsa kədər? Bircə onu bilirdi ki, bu ağır dərd ürəyini didib-parçalayır!

Allaha üsyan etməyi ağır günah saysa da, içindən hönkürüb “kaş, mənə oğul verməyəydin, elə sonsuz qalaydım!” deyə üsyan etdi. Az sonra sakitləşib asiliyi üçün dönə-dönə Allahdan bağışlanma dilədi. “Özün bilən məsləhətdi, ya gözəgörünməz, şükür məsləhətinə…”

Karvan çoxdan yola çıxmışdı. Hava nə qədər isti və cansıxıcı olsa da, Qeysin üzü gülür, gözlədiyi möcüzə ilə Kəbədə qarşılaşdığı üçün ürəyində Allaha şükür və səna edir, yenə ətrafda danışılan hər şeyə laqeyd qalıb içindəkilərlə söhbət edirdi.

Uzun yollar geridə qalır, cəmi bir neçə günə Bəndovana çatacaqlarını düşünüb rahat nəfəs alırdılar. Növbəti dəfə dincəlmək üçün qaldıqları karvansaray sahibi söhbət əsnasında məşhur tacir ibn Salamın Bağdad yolunda öldüyünü dedi. Səid Qeysə hiss etdirmədən Müləvvəhi bir kənara çəkib, xəbəri ona çatdırdı. Müləvvəh xəbərə sevindiyini gizlədə bilmədi:

– Allah keçsin günahımdan, amma inan ki, burda bir hikmət var, Səid. Allah ziyarətimi, dualarımı qəbul edib, bunun başqa izahı ola bilməz.

Səid dul bir qadını öz oğluna layiq bilən Müləvvəhin sevincinə də, sözlərinə də təəccübləndi: “Bəyəm, yer üzündə qız qəhətdir? Biz ona elçi gedib istədiyi qızı alarıq”.

Müləvvəh yenə oğlunun xətrinə çox şeyi gözardı, qulaqardı etməli idi. Bir də ki, insanlar əsasən güc-qüdrət qarşısında lal olur, düşündüklərini, öz aralarında pıçıltıyla qeybətləşdiklərini bərkdən deməyə çəkinirlər. Mən oğluma o qadını gəlin

gətirəndən sonra kimin nə həddinədir ki, Müləvvəhin oğluna, Nofəlin qardaşına güldən ağır söz deyə. Öz aralarında nə danışacaqları isə daha məni maraqlandırmır. Səidə isə düşündüklərini bir az başqa cür dedi:

– Mən yüz il qala, məni təhqir edib evindən əliboş qaytaran, oğluma Məcnun deyən adamın qızını evimdə gəlin etməzdim. Amma oğlumdan keçə bilmirəm, Səid. Kəbədə də dua etdim ki, Qeys bu sevdadan qurtulsun, cəngavər ola bilmədisə, heç olmasa, mədrəsəyə qayıtsın, elm öyrənib xalqına, qəbiləsinə yararlı insan olsun. Amma görürəm ki, oğlumun Leyli sevdası bir başqadır. Leylidən sonra az qalıb ki, anasını da, məni də unutsun. Nə edə bilərəm ki?! Mən oğlumu tamamən itirmək istəmirəm, onun istədiyini biz də istəməyə məcburuq.

Müləvvəhin sözləri Səidə çox ağlabatan gəlmirdi, "bir kişi ki bir qadını ürəyindən söküb ata bilmir, daha nə igid oldu?" deyə düşüncələrini özünə saxlayıb, qayğıkeşliklə "Bəs indi nə etməyi düşünürsən?" soruşdu.

– İbn Salam öləndən sonra yəqin Fəttah səhvini anlayar. Dul qalmış qızını evində saxlamaq ona da sərf eləməz. Məncə, indi Qeyslə Leylini evləndirmək tək bizə yox, elə Fəttahgilə də sərf edər. Onların da, bizim də üstümüzdən bu tənəni götürərik.

Qeysin yaxınlaşdığını, aralarındakı söhbəti eşitdiyini heç biri fərq etmədi, o da hiss olunmadan uzaqlaşdı. Atasına, Səidə, onlar kimi düşünən hər kəsə, hər kəsə yazığı gəldi. "Siz bədbəxtsiniz! Leyliyə, mənim Leylimə, çiçəklərin ən gözəlinə, ulduzların ən parlağına, yağış kimi duru sevgilimə

nələri yaraşdırırsınız! “Dul qalmış qızını evində saxlamaq ona da sərf eləməz”. Səndəmi, ata, mənim ən doğmam? Axı mən sənin qanından, canından ayrılmışam, səndəmi mənim sevgimi duya bilmirsən? Səndəmi mənim sevdiyimə adidən adi yanaşır, mənim Leyliyə olan sevdamı mərəz hesab edirsən? Anlamağınızı istəmirəm, bu sevdanı duymaq üçün ruhunuz, qəlbiniz olmalı, ata… Leyli mənim dünyamdır, nəfəsimdir, mən onsuz boğulub ölərəm. Leyli mənim ruhumdandır, yarımdır. Bir insanı görər-görməz, varlığını yanında hiss edər-etməz içindən “Odur” deyə bilməyin necə möhtəşəmlik olduğunu, heyif ki, heç vaxt bilmədiniz. Nə qədər də bədbəxtsiniz. Siz bütün dünyadan vaz keçib bir sevgiliyə qucaq açmağın səadətini, onu kimsənin əvəzləyə bilməyəcəyinin, təkrarsızlığının verdiyi zövqü heç vaxt duymayacaqsınız. Qürurundan, adından, var-dövlətindən, mənliyindən vaz keçib sevdiyinə dönüşməyin necə bir cənnət həzzi olduğunu heç bir zaman hiss etməyəcəksiniz. Hamınızın halına acıyıram, ən çox da sənin, ata…”

Qeys üzüntü və kədərlə içindən keçirdiyinin bircəciyini də dilinə gətirmədi, onları eşitdiyini atasıgilə hiss etdirmədi. Hər şeyi mənasız sayırdı. Onların danışıqları kimi, onlara nəyisə başa salmaq da mənasız idi. Ruhu ilə duymayana heç nəyi anlada bilməzsən, Qeys bunu anlayıb qəbul edəcək qədər ağıl və təmkinə malik idi. Atasıgildən aralanan kimi yenə hər şeyi, az öncəki ağrısını unudub içinin işığına büründü…

## XIV fəsil

Anasının təkidlərindən sonra Leyli yemək yeməyə başlamış, bir az özünə gəlmişdi. Qeysin Kəbə ziyarətindən qayıdacağını səbirsizliklə gözləyirdi. Leyli Kəbədən qayıdan sevgilisinin İbn Salamın ölüm xəbərini eşidən kimi onun arxasınca gələcəyinə əmin idi. Bu əminlik qıza bir az da güc verir, bütün ağrı-acılarını unudub bir müddət əvvəlki səadət dolu həyatına geri dönəcəyinə onu inandırırdı. Qeyslə evlənib, yenə də mədrəsəyə gedəcəkdilər. Bir daha ayrılmayacaq, xoşbəxt ömür sürəcəkdilər.

Leyli xəyalları ilə baş-başa ikən xalası qızı gülə-gülə özünü onun otağına atıb gözaydınlığı verdi: "Qeys Kəbə ziyarətindən qayıdıb".

Sevincək yatağından qalxıb, Ayişəni qucaqladı. "Sənə şükürlər olsun, Allahım! Qeys sabah gələcək, hökmən gələcək" deyə güzgünün önünə keçdi.

***

Yəzid İbn Məzyədə xəbər çatdı ki, xəvariclər ölkədə üsyan hazırlayır, kənd-kənd, şəhər-şəhər gəzir, narazıları ayağa qalxmağa sövq edirlər. Hökmdara o da məlum oldu ki, üsyançıların rəhbəri illər əvvəl xəzinənin yarıdan çoxunu ələ keçirib aradan çıxan Valid ibn Tarifidir. O zamanlar Tarifini hər yerdə axtarsalar da, sanki iynə olub yerin altına girmişdi.

Hökmdar Nofələ gizli göstəriş verdi ki, Valid ibn Tarifinin axtarışını təzələsin, harda gizlənməsindən asılı olmayaraq, onu

tapıb üsyanı yatırsın.

Nofəl ata-ana əvəzi olan əl-Müləvvəh və Rüqəyya ilə görüşüb, onların xeyir-duasını almaq üçün Bəndovana getdi.

Ona verilən tapşırıq gizli olduğundan hara, hansı istiqamətə yola düşəcəyini bildirmədən döyüşə gedəcəyini deyib xeyir-dua istədi. Əl-Müləvvəh Nofələ görə narahat olsa da, Allahın onu hifz etməsi üçün dualar etməkdən başqa yolu qalmadı.

Qeys də bu xəbəri eşidib məyus oldu, Nofələ nəsə olacağından qorxdu. Sanki Leyli də ona dedi ki, qardaşını tək buraxma. Ayağa qalxıb:

– Mən də səninlə gedəcəm, – dedi.

Əl-Müləvvəh öncə oğlunun sözlərini qulaqardına vurub eşitməzlikdən gəlmək istəsə də, bir anlıq düşündü ki, əcəba, doğrudanmı, Qeys Leylini burda qoyub, döyüşə getmək istəyir? Gözünün ağı-qarası tək oğlunun bu döyüşdə həlak olmaq ehtimalı da yüksək idi. Axı, Qeys heç bir vaxt döyüş təlimi keçməmiş, qan töküb, baş kəsməmişdi. Ata ürəyi oğlunun gözündən qırağa getməsini istəməsə də, düşündü: "Bəlkə, oralarda Leylini unudar, döyüşdə iştirakı Məcnun adını da üstündən götürər".

Nofəlin cavab vermədiyini görən Qeys səbirsizləndi:

– Siz istəsəniz də, istəməsəniz də, mən Nofəllə gedəcəm.

Əl-Müləvvəh dumanlanmış beynində bir də Rüqəyyanı düşündü. Narahat ana ürəyi bunu qəbul edəcəkdimi? Bu xəbəri eşitməyə hazırdımı?

Qeysin qərarını Rüqəyyaya dedikdə bu günə kimi bir dəfə də

olsun Qeysə səsini qaldırmayan Rüqəyya vahimələnib özündən çıxdı:

– Sən ömründə bir toyuq başı da kəsməmisən, döyüşdə necə adam öldürüb, qan tökəcəksən? Bir də ki nə oldu? Leylini burda qoyub gedəcəksən?

– Ana, qan…qan..qan… Nə qədər olar, mən ona görə gedirəm ki, qan tökülməsin. Leyli də daim yanımdadır…

Əl-Müləvvəh dözməyib otaqdan çıxdı. Bu müddət ərzində ilk dəfə eşidiləcək bir səslə, – sən doğrudan da cünunsan, Qeys, – dedi…

***

Nofəl Bağdada ilk getdiyindən bu günə kimi yanında olan Musa əl-İbrahimiyə tapşırdı ki, səfər boyunca Qeysi gözdən kənar qoymasın.

Kəşfiyyat xəbər vermişdi ki, Valid ibn Tarifi Topxana meşəsində gizlənib.

Nofəlin dəstəsi əsasən gecələr hərəkət edir, kimsəni duyuq salmamaq üçün meşənin içi ilə irəliləyirdi. Xeyli yol qət etmişdilər. Düşərgə qurub, dincəlmək qərarına gəldilər. Ağacların kölgəsindən yaranmış alatoranın yerinə gecənin qaranlığı çökmüşdü.

Uzaqdan gələn bəbir nəriltisi, çaqqalların ulaşması gecənin səssizliyini pozur, yaxınlıqda isə bayquş ulayırdı. Yerində qurcalanan Musa əl-İbrahimi uzandığı yerindən qalxıb oturdu:

– Bayquşun səsi məni dəli edir, yatmağa qoymur.

Bayquşlardan uzaq durmaq lazımdır, onlar bədbəxtlik gətirir.

Musa əl-İbrahimi çadırın girişində keşik çəkən əsgəri səsləyib, – o bayquşu susdurun, – əmrini verdi.

Əsgər getmək istədikdə, Qeys ona səsləndi:

– Dur, getmə. Sən körpə olanda anan yatmazdan əvvəl layla oxuyardımı?

Əsgər cavab verdi:

– Hə, məni də, qardaşımı da anamız laylasıyla yatırardı.

– Bax, indi ulayan bayquşun balaları var. Əslində o ulamır, öz dilində körpələrinə laylay çalır. Get öz işinin başına, bayquşla da işin olmasın.

Əsgər Musa əl-İbrahimiyə baxdı. Musa başı ilə işarə etdi ki, gedə bilərsən, arxasınca, – bayquşu rahat buraxın, qoy ulasın, – istehza ilə dedi.

Əsgər çadırı tərk etdi. Bayaqdan bəri yata bilməyib, yerində qurcalanan Əl-İbrahimi bayquşun ulamasına diqqət kəsilmişdi. İndi bu səs onu xumarlandırırdı, sanki bayquş öz balalarına deyil, ona da laylay çalırdı…

Qeys sübh tezdən oyandı. Musa da gümrah və şən görünürdü. Dəstəmaz alıb namazlarını qılandan sonra Qeys soruşdu:

– Gecəni necə yatdın?

– Bayquşun laylasıyla. Çoxdandır, belə rahat yatmamışdım…

Xeyli yol qət edəndən sonra atlardan enib dincəlmək qərarına gəldilər. Qeys iri gövdəli çinara söykənib gözlərini yumdu. Xəyalən Leylinin incə belinə sarılıb, alnını alnına qoydu. “Qeys, öz meşəmizə nə zaman qayıdacağıq?” Ayaqlarına nəsə xəfifcə

toxundu. Hər ikisi diksinib aşağı baxdı. Bir bala qurbağa atılıb, palıdın arxasında gözdən itdi. Leyli: – görəsən, bu öz gölməçəsini qoyub burda nə axtarır? – dedi. Qeys:

– Bala qurbağadır, azıb gəlib, bir azdan anası onu səsləyəcək, o da səsinə səs verəcək, bir-birini tapacaqlar.

– Qurbağaları heç sevmirəm. Gözəl deyillər.

– Elə düşünmə, Leyli. Bəlkə, biz də qurbağalara çirkin görünürük. Allahın yaratdığı hər şeydə sevgi var. Sən belə gözəl olmasaydın da, mən səni sevəcəkdim. Uca Rəbbimiz hər şeyi müxtəlif yaradıb. Bizim meşədə ağaclar, güllər bir başqa, burda bir başqadır. Yer üzündə gör nə qədər rəng, bir-birindən seçilən insanlar, canlılar, mənzərələr var. Bax, dünya fərqliliklə gözəldir.

Qeys gözlərini açdı. Buludlar çox yaxında, tərtəmiz və maviydi. Leyli ona buludların arasından baxırdı:

– Səni sevirəm, Qeys, həmişə yanındayam. Mən sənin qoruyucu mələyinəm…

Bəbir nəriltisi Qeysi xəyaldan ayırdı. Hərə bir tərəfə qaçışıb, silahına əl atdı. İri cüssəli bəbir əsgərlərdən birinin qolundan gəmirib yerlə sürüməyə çalışırdı. Oxçular bəbiri nişan almağa, əsgərlər isə hər tərəfdən qılıncla vurmağa çalışırdılar. Qeys irəli atılıb: – Durun, kənara çəkilin!, – dedi. Əsgərlər geri çəkildilər. Qeys bəbirə yaxınlaşıb onun alnını, boynunu sığalladı. Xoşallanan bəbir əsgərin qolunu buraxıb pəncələrini Qeysin sinəsinə qoyub üz-gözünü yalayırdı.

Gördüklərindən hər kəsin nitqi qurumuşdu. Musa əl-İbrahimi

heyrətini gizlədə bilmədi, Nofələ: – Vallah, Qeys hamımızdan güclü və ağıllıdır, – dedi.

Bir az məsafə qət etdikdən sonra onları iki bələdçi gözləyirdi. Valid ibn Tarifinin yerini dəqiq öyrənmişdilər.

Gecə pusqu qurdular. Tarifini və yanındakı adamlarını tərksilah edib ələ keçirdilər. Tutulanların qollarını kəndirləyib, atlarının arxasınca çəkərək Bərdəyə yol aldılar…

***

Müləvvəhlə Rüqəyya öz aralarında qərar verib, səfərdən qayıdan kimi ibn Salamın ölüm xəbərini Qeysə çatdırdılar. Sanki heç nə eşitmirmiş kimi susan Qeys oturduğu yerdə sakitcə Bəbirxanla oynamağa davam edirdi. Onların ziyarətdə olduğu vaxt Rüqəyya körpə bəbirə yaxşı baxmış, o da əməlli-başlı böyüyüb ətə-qana gəlmişdi.

İbn Salamın ölüm xəbərinə sevinəcəyini düşündüyü Qeysin belə münasibəti Müləvvəhi təəccübləndirdi.

– Oğlum, “İbn Salam öldü” deyirəm, sənin Leylin dul qaldı. Artıq evlənməyinizə heç nə mane olmaz.

Qeys susurdu. Atasının səbir kasası daşdı.

– Oğlum, sən Leyli ilə evlənmək istəmirsən?

Yenə də cavab vermədiyini görüb, lap yaxınına gəldi və üzbəüz durdu.

– Qeys, sən Leylini istəmirsən daha? Leylidən danışıram, İbn Salamın evində olan Leylidən.

Qeys Bəbirxanı bir kənara qoyub ayağa qalxdı:

– Ata, sən kimdən danışırsan?

– Leylidən, oğlum, Leylidən. Deyirəm ki, ibn Salam ölüb, Leyli dul qalıb.

– Sən başqa Leylidən danışırsan yəqin. Mənim Leylim mənimlədir, yəqin səhv salırsan.

Müləvvəhin qolları yanına düşdü. Otaqdan çıxıb nigaranlıqla üzünə baxan arvadına "Oğlumuz, doğrudan da, Məcnundur, Rüqəyya" deyib çarəsizcə hönkürdü.

Səhər Rüqəyya oğlunu yuxudan oyatmaq istəyəndə otağını boş gördü. Dan yeri sökülmədən Qeys Bəbirxanı da götürüb getmişdi…

Leyli sübh tezdən hər taqqıltıya, səsə həyəcanlanıb qapıya qaçır, Qeysin onun dalınca gəldiyini düşünürdü. Beləcə, gün ərzində, bəlkə də, yüz dəfə qapıya gedib-qayıtdı, Qeysdən xəbər-ətər yox idi. Valideynləri onun havalanıb ağlını itirdiyini düşünürdülər.

Fəttah yatağına çöküb, başını əlləri arasına aldı. "Mən Qeysi cünun bilirdim. Bu qız ondan da dəlidir ki! Allah, sən özün kömək ol! Müləvvəhə dediklərim öz başıma gəldi…" Fəttah ah-vay edir, əl açıb yalvarır, gah da günahkar arayırdı: "İndi mən nə edəcəm? Bütün qəbilənin üzünə necə baxacam? Bütün günahlar o alçaq Nofəldədir! Nofəl olmasaydı, İbn Salam ölməyəcək, qızım da bədbəxt olmayacaqdı!.."

Mədrəsədə Zeyd Qeysin yenə yoxa çıxdığını Ayişəyə xəbər verdi: "Bilmirəm hara gedib. Yəqin ki, yenə də Şirvan düzünə getdi". Ayişə zavallı xalası qızının halının nə olacağını düşünüb

susdu.

Dərs başladı, Əhməd ibn Harun əl-Bərdəinin səsi gəldi:

– Bütün sevgilər Allaha olan sevgidir, bütün yollar Allah yoludur. Anaya, ataya sevgi, bir qıza, qadına sevgi, vətənə sevgi – hamısı Allah sevgisidir. İnsan Allahın nurundan bir zərrədir və sevilən də o zərrədir, o işıqdır. Yol Allaha aparmırsa, yarım qalır…

Dərsdən birlikdə çıxdılar. Qeysin çıxıb getməsi yazıq Leyliyə dərd olacaqdı. Ayişə bu xəbəri xalası qızına necə çatdıracağını bilmirdi. Zeyd Ayişənin kədərli çöhrəsinə baxıb təsəlli üçün nəsə demək istəsə də, söz tapmırdı. Meh qızın saçlarını salxım söyüdün budaqları kimi titrədirdi. Zeyd ixtiyarsız arxadan xəfifcə onun saçlarına toxundu. Ayişə uzun saçlarının ucunda hiss etdiyi zərif toxunuşdan həyəcanlandı. Külək bircə an güclənib Ayişənin tellərini dağıtdı. Ani toxunuşdan yaranan hərarət tez də uçub getdi. Zeydin onun saçlarına təsadüfənmi toxunduğunu, yoxsa cəsarəti davam gətirmədiyindən əlini tez çəkdiyini ayırd edə bilmədi. Çiyninin üstündən ehmalca dönüb baxdı, Zeyd əllərini yanına salıb addımlayırdı.

– Zeyd… o ilk gün Qeysin Leylini necə qucaqladığı yadındadır?

– Yadımdadır…

– Yəqin dəlilər adamı elə qucaqlayır?

– Bilmirəm, mən Qeysdən başqa dəli görməmişəm…

Ayişənin yanaqları qızardı, qeyri-ixtiyari ağzından çıxan sözlərdən utandı. Qız sanki Zeydə “sən də məni Qeys kimi

qucaqlaya bilərsənmi?" demişdi. Qeys Leylini qucaqlayarkən ətrafa yayılan alovun istisi sanki qızı qarsımışdı. Elə o gündən həmişə düşünmüşdü, görəsən, Zeyddə də bu alovdan varmı?

Zeyd yenə çox məyus idi. Arxadan Ayişənin qamətini, saçlarını süzdü. "Mənə ki Məcnun demirlər. Zalım oğlu zalım, dünyanı alovun ağzına verib, özü də gedib səhralıqda sülənir. Nə dəxli var necə qucaqlayırsan…" Həmin günü, Qeysin mədrəsədəki hər kəsi unudub Leylini arxayın-arxayın bağrına basdığı anı xatırladı, Ayişənin də elə qucaqlanmaq istədiyini düşünəndə qısqanclıqdan üzünü istilik basdı. Hirslə "kaş, mən də Ayişəni elə qucaqlaya biləydim. Mənə də Məcnun deyəydilər, onda Ayişə dəyərimi anlar, fikri-xəyalı başqasının qucaqlaşmasında qalmazdı" düşündü. Qəzəbindən elə bildi başından tüstü çıxdı. Qızın xoşuna gəlmək üçün əlüstü bir yalan uydurdu:

– Nofəl məni Bərdəyə aparacaq, – qızın onunla qürur duyacağı, xoş söz deyəcəyi ümidilə üzünə zilləndi. Ayişə onu sanki eşitmirdi, xəyalı burdan çox uzaqlarda idi. Zeyd qızın halından fikrinin o ilk dərs günündə qaldığını, həmin o qucaqlaşmanı düşündüyünü anladı.

"Qeys, Qeys, Qeys! Dilindən düşmür. Nə böyük hünər edib, axı?! Qızı hamının gözü qarşısında qucaqlayıbmış! Bunun nəyi qəhrəmanlıqdır ki?! İnsan öz məhrəm bildiyini niyə hamının qarşısında qucaqlamaq istəsin, axı?! Guya imkan versə, mən Ayişəni pis qucaqlayaram?" Özünün "imkan versə" sözünü bir də düşündü. Məsələnin elə bu ikicə kəlmə məqamında olduğunu

anlayıb, fikirlərinin istiqamətini dəyişdi. “Kaş, Nofəl doğrudan məni Bərdəyə apara. Mən sənin doğmaca əmin oğluyam, amma Qeysi məndən doğma bilirsən özünə. Hətta onu mənə tapşırırsan. Başı xarab olmasaydı, əlbəttə, Qeysi aparacaqdın yanına. Özün kimi sərkərdə yetişdirəcəkdin. Mənə də deyəcəkdin ki, yanında ol, Zeyd, silahını daşı…” – Nofəlin arxasınca asıb-kəsdi. “Fəttah ibn Şeybaniyə daha yaxın olmalıyam. Mənim Bərdəyə yolumu Qeys özü açacaq. Arada gərək səhralığa gedim, Nofələ ondan xəbər aparım. Qeysin çayların bulanıq suyunu içdiyini, heyvanlarla söhbətləşdiyini deyəcəm. Qoy, Nofəl ondan əlini tamamən üzsün. Yalnız belə mənə yol açılar…”

Yenə Ayişənin üzünə baxdı, qız elə bil onun yanında olduğunu hiss etmirdi, sanki bu yolu təkbaşına gedirmiş kimi öz fikir-xəyal aləmindəydi. Zeyd qayğıkeşliklə “üşümürsən ki?” soruşdu. Ayişə düşündü, guya üşüdüyünü desə, nə olacaq ki?! Sakitcə oğlanın üzünə baxdı. Daha Zeydin seyrək saqqalı da əvvəlki kimi ona buxur ətrini xatırlatmır, qumun arasından çıxan adda-budda qara tikanlara oxşayırdı. Ayişə dərindən köks ötürüb, “çatdım” deyə sağollaşdı.

***

Qeys atını çapıb meşəyə girər-girməz meşə dərvişləri ağ atlı mələyin geri qayıtdığını görüb, səssizcə qoşa çinara tərəf yollandılar. Amma onların mələk sandıqları ağ atlı bu dəfə meşəyə tək gəlmişdi. Çinarlar yarpaqlarını tərpədib, Qeysi salamladılar. Ana ceyran sürüsünü qoşa çinarın yaxınlığına

gətirdi, Ata bəbir qayalığın üstündən nərildəyib, onu salamladı. Neçə müddətdən sonra ilk dəfə Qeys özünü evində hiss edirdi. Bəbirxan da özünü artıq buraların sahibi kimi aparır, sevinclə atılıb-düşürdü.

Meşə dərvişləri səssiz-səmirsiz qoşa çinara sarı gəldilər. Çiyinlərindən asılı çantadan meyvə, giləmeyvə çıxarıb Qeysin önünə qoydular, Bəbirxana da çantalarından çiy balıq verdilər. Önündəkilərdən yeyib, təşəkkür etmək üçün arxaya döndü. Dərvişlər getmişdilər.

Hər şeyi Leyli ilə bölüşürdü, onunla danışırdı: "Bura gözəldir, amma buranı hər kəs bilir. Nofəl gəlib bizi burda yenə də tapacaq. Məncə, səhralıq tərəfə getməliyik, orda olduğumuz ağıllarına gəlməz. Hər bir halda, yerimizi dəyişməliyik, bizi kimsə tapa bilməsin. Yoxsa gec-tez bizi burda da rahat buraxmayacaqlar". (Füzulinin xəyalilə təsəllidir misrası)

"Qeys, bax gör bu çinarlar bizi necə sevirlər. Gəldiyimizdən bəri yarpaqları toy-bayram edir. Hələ mən Ana ceyranı, Ata bəbiri, burdakı digər ceyran-cüyür sürülərini, bəbirləri demirəm. Onlar bizim ailəmizdir, ailəmizi qoyub burdan necə gedək?" Leyli doğru deyirdi, bu meşənin sakinləri onların ailəsi idi, amma Qeys düşünürdü ki, nə qədər ki onlar burdadır, digər canlılar üçün də təhlükə var, deməkdir.

"Leyli, bizim arxamızca gələnlər onlara da ziyan verər. Bir də ki, biz getdiyimiz yerə onlar da gələcək. Gəlmək istəməyənlərə isə, demək, bura yaxşıdır. Xoşbəxt və gözəl həyat yaşamaq üçün azad olmaq lazımdır. Yolumuz özümüzün, ruhumuz sərbəst,

kiminsə istəklərindən asılı olmamalıdır. Hər kəs Allahın qulu olmaqdan başqa, kimsə kimsənin qulu olmamalıdır".

"Mən sənin qulunam, Qeys".

"Mən də sənin qulun, Leyli. Amma biz bir bədən, bir quluq. Bizim ruhumuz eşqimizdir. Eşqin qulu olmaq – Allahın ən sadiq qulu olmaqdır, Leyli".

"Həyat gözəldir belə".

"Dünya, kainat gözəldir belə".

"Səni sevirəm, Qeys".

"Səni sevirəm, Leyli".

Qeysin əlləri göyə ucaldı. Buludların arasından dümdüz axan ağ işıq onu büsbütün bürüdü, "sizi sevirəm" dedi. "Səni sevirik, Allahım!"

Qeys atının üzəngisindən yapışıb, meşənin dərinliyinə doğru addımladı. Bəbirxan da yanına düşüb ondan geri qalmamağa çalışırdı. Qeys arxadan səs eşidib çevrildi. Ana ceyran, Ata bəbir hərəsi öz sürüsü ilə dalınca gəlirdilər. Quşlar başının üstündə cəh-cəh vurur, onun yolunun bərabərində göydə qanad çalırdılar. Sağda meşə dərvişləri, solda su dərvişləri sıra ilə düzülüb ağ atlı mələyin getdiyi istiqamətə üz tutmuşdular.

Qalın meşə ortadan səhranı dövrəyə almışdı. Dərvişlər irəli qaçıb, iki təpənin qumunu sağa-sola dağıtmağa başladılar. Altından daşlardan oyulmuş böyük saray qapısı çıxdı. Qapını çəkib açdılar, əlləri ilə Qeysə buyur etdilər. Qeys atı və bəbiri ilə içəri keçdi. Bura qumun altında bir saray olsa da, hər tərəfi ağ işıq saçır, başının üzərində tər-təmiz səma görünürdü.

"Bura bizim gizli yerimiz olsun, Leyli. Daha bizi kimsə tapa bilməz".

***

Müləvvəh oğlunun ardınca getməyin də, onu qaytarıb gətirməyin də mənasız olduğunu anlamışdı. Gecə-gündüz ah-vay edib qan-yaş tökən Rüqəyyanı sakitləşdirməyə çalışırdı:

– O, xoşbəxtdir, öz eşqi ilə bir yerdə həyat sürür. Leylinin onunla birlikdə olduğuna inanc gətirib. Qeys burda dinib-danışmırdı, kar, kor kimi yaşayırdı. İndisə üzü gülür, bəxtiyardır. Nə edək, Allahın məsləhəti belə imiş. Ən azından bilirik ki, oğlumuz sağdır və xoşbəxtdir.

Arvadına toxtaqlıq verib, bazara yollandı. İşinə-gücünə gedib başını qatacaqdı. Qeysin məsələsini bir Allaha, bir də zamana buraxmışdı. Yol boyu rastlaşdığı adamlar ona salam verir, bəziləri isə görməzdən gəlirdi. Amma elə bircə addım aralanmamış qulağına pıçıltılar gəlirdi:

– Deyirlər, ceyranlarla otlayır.

– Bəbiri əhliləşdirib.

– Yatağı güllər və otlardır.

– Necə oldu ki, Məcnun oldu?

– Doğrudan, ağlını tamam itirib?

– Leylidən başqa qız yoxdu ki?!

– Ağır dərddir, yazıq ata buna necə dözsün?!

– İndiyə kimi ürəyi partlamayıb, möhkəm adamdır.

– Mən elə oğulu döyə-döyə evə gətirərdim…

Suallar, tənələr, acıyan baxışlar, dedi-qodular… Müləvvəh

evindən bazara qədər olan məsafəni necə gəldiyini anlamadı. Onu öldürsə, Qeysin dərdi yox, insanların sualları, tənələri, bir də özü yazıq olub, onun halına acıyanların baxışları öldürəcəkdi.

“Kaş, siz də Qeys kimi sevə biləydiniz”, dodaqaltı deyinib özünü toparladı, başını dik tutub, yoluna davam etdi.

Qeysin səhralığa getməsindən çox keçmişdi. Zeyd hələ də rahatlıq tapa bilmirdi: “Adam da meşədə, səhralıqda bu qədər ac-susuz qala bilər? Hamı Məcnunun saç-saqqalından danışır. Sanki bizim saçımız, saqqalımız yoxdur. Atama bax, mənə deyir sən gedib kimə oxşadın, üzündə beş-altı tük bitir. Görəsən, onun saqqalı çox uzanıb?…” Bir də ayıldı ki, Qeysgilin evinin qarşısındadır. Rüqəyya onu içəri dəvət etdi. Yazıq ana oğlu gedəndən xeyli qocalmış, qaməti bükülmüşdü.

İçəridə Qeysin dayısı Səlim Amiri də əyləşmişdi. Salamlaşıb görüşdülər. Qaşlarını çatan Amiri baxışları ilə sanki Zeydi məzəmmət edir, “sən buna necə yol verdin?” deyə soruşurdu. Zeyd sanki Səlimin zəhmini yumşaltmaq üçün dedi:

– Sabah gedəcəm Qeysin yanına, görüm necədir? Təkbaşına, kim bilir, nə əziyyətlər çəkir.

– Sən ora təkbaşına getmə. O qədər vəhşi heyvanlar var ki… Mən də gedəcəm, birlikdə gedərik. Sabah sübhdən yola düşərik. Burda, evin önündə səni gözləyəcəm.

Rüqəyya əl-ayağa düşdü: – Mən də yemək hazırlayım, balam orda ac-susuz qalıb, apararsız, – deyib hönkürdü.

Yol boyu Səlim Amiri dinib-danışmırdı. Zeyd hiss edirdi ki, o, ürəyində nəsə götür-qoy edir, amma düşüncələrini sözə

çevirməyə tələsmir. Handan-hana boğazını arıtlayıb boğuq, qısıq səslə dilləndi:

– Dəli şeytan deyir, bu axmağı qol-boyun edib evə gətirək. Ölsə də, gözümüzün qabağında ölsün. Yoxsa qurd-quşa yem olub gedəcək, yazıq bacım bu dərdə dözməyəcək…

Zeydin cavabı gecikmədi:

– Dağ boyda Nofəl gətirmişdi də. Yenə də qaçıb getdi. Özxoşuna qayıtmasa, xeyri yoxdu.

Amirinin əsəbdən səsi titrəyirdi:

– Qələt edir, onu gətirib bağlı yerdə saxlamaq lazımdır, ağlı başına gələr. Uşağı başlı-başına buraxsan, çox şey istəyər. Bütün günahlar Müləvvəhdədir. Belə də uşaq böyüdərlər?! Mən arvadımın üzünü kəbin günü gördüm, halbuki qonşu qəbilədəndi. Adama deyərlər, sən çadranın altında necə gördün, necə sevdin bu qızı?

– Məktəbdə hamının üzü açıq olur.

– Odur da, başı xarab olub. Görməyib, görməyib birdən görmək lap pis…

Amiri susdu. Anladı ki, çox dərinə getsə, Zeydin də beyni qarışacaq. Onsuz da yol boyu nə qədər ağıllı görünməyə çalışsa da, görünürdü ki, atası Səiddən heç nə ilə fərqlənmir. O boyda Nofəlin əmisi olsa da, qəbilədə işi ondan buna, bundan ona söz aparmaqdı…

Hava qaralmamış meşəlik ərazini adlayıb səhraya keçməliydilər. Qeysi orda tapmağa ümidli idilər. Amma sıx meşəlikdə tələyə düşdülər, üzərlərinə atılan tor onları bir anın

içində bir-birinə sıxdı. Nə baş verdiyini anlamırdılar. Bir dəstə yaşıl yarpaqlı libasa bürünmüş adam əl-qollarını bağlayıb, onları torpaq qazmaya gətirdilər. Burada daha dörd-beş əsir də vardı, almacıq sümükləri çıxmışdı, qabırğaları üzdən görünürdü. Səlim Amiri diqqətlə bu adamları süzdü, aralarında Qeys yox idi.

– Siz kimsiz? Bizi bura gətirənlər kimdir? – Amiriyə fikir verən olmadı.

– Diliniz yoxdu? Cavab verin də.

İçəridəkilər bir-birinə baxdılar. Onlardan biri başının işarəsi ilə sanki "danışmaq olar" dedi və özü də Amirinin sualına cavab verdi:

– Gördüyün kimi məxluqatıq.

Amiri əsəbiləşdi:

– Allah olmadığınız zatən sir-sifətinizdən bəllidir. Məxluqat olmağına məxluqatsız, danışmağınızdan da görürəm ki, bizlərdən birisiniz. Elə isə işıqlı dünyanı qoyub, bu komada nə işiniz var?

– Guya öz xoşumuzla oturmuşuq, – istehza ilə dedi, – oturduğumuz da ki, elə indidir, günbatandan bu yana. Səhərin sübhündən indiyə kimi arı kimi işlədirlər bizi.

Səlimi maraq götürdü: – İşinizin adı nədir ki?

– Hər gün bütün ağacları, gülləri, otları öpürük.

Amiri dəli kimi qəhqəhə çəkdi:

– Bu necə işdir? Bu qədər ağacı, gülü, otu öpüb qurtarmaq olar? Dodaqlarınız qabar olar ki. – Hələ də deyilənlərin zarafat olduğunu düşünürdü, maraq dolu baxışlarını dustaqların üzündə

gəzdirdi.

– Məncə, daha onları öpməsək, dayana bilmərik. Mən özümü on beş yaşımdakı kimi hiss edirəm. Nə vaxtsa qovmasalar, burdan heç getmərəm. – Biri pıçıltı qədər astadan dilləndi. Elə bu cavaba bənd imiş kimi hamısının dili açıldı. Dil boğaza qoymadan hərəsi öz dərdini danışırdı.

Aralarında ən yaşlı görünənin ürəyi lap dolu idi: – Mən qırx ildir, ağamın karvanını qoruyurdum. O varlandıqca mən qocalıb əldən düşürdüm. İndi də qayıtsam, məni qovacaq ki, dediyimi eləmədiniz, rədd olun.

– Sənin ağan kimiydi ki?

– O bizim hamımızın ağası idi. İbn Salamdır adı. Bizi Leylini qaçırmaq üçün göndərmişdi. Amma bizim özümüzü bu meşə dərvişləri “hop” deyə elə götürdülər ki, heç ruhumuz da incimədi. Öldükmü, qaldıqmı, İbn Salam heç maraqlanmadı da. Burda ağacların arasında ölmək daha yaxşıdır.

– Bəs, Leylidən, Qeysdən xəbəriniz var?

– Bilmirik, heç bir məlumatımız yoxdur. Meşə dərvişləri bizi bir addım da gözdən qoymurlar.

Amiri ayağa qalxmaq istəyəndə başı qazmanın tavanına dəydiyindən yenidən çömbəlib oturdu. Fikrə gedib pıçıldadı:

– İbn Salam ölüb.

Dustaqlar qulaqlarına inanmadılar, sanki İbn Salam ölümsüzmüş kimi elə çaxnaşdılar ki, az qaldılar torpaq qazmanı başlarına uçursunlar. Dalbadal suallar yağdırmağa başladılar:

– Niyə öldü?

– Doğrudan öldü?

– Özü öldü, yoxsa öldürdülər?…

Amiri cavab verməzdən əvvəl bir xeyli onlara baxdı:

– İndi bunun nə əhəmiyyəti var ki? Niyə ölüb, nədən ölüb? Siz öz halınıza yanın. Bəyəm siz ölməmisiz, buranın qəbirdən fərqi nədir? Ora da torpaq, bura da torpaq. İndi siz burdan qurtulmağı düşünün, ay bədbəxtlər.

Sanki qurbağa gölünə daş atdılar. İbn Salam mövzusuna daha qayıtmadılar.

Zeyd tir-tir əsirdi. Yumruğunu tez-tez düyünləyib-açır, dodağını gəmirib ah çəkirdi. Amiri onu sakitləşdirməyə çalışdı:

– Hamınızı qurtaracam burdan. Səhəri aça bilsək, burdan qurtularıq.

Səhər qazmanın qurumuş ağaclardan olan qapısı cırıltıyla açıldı. İçəriyə sızan sısqa işıq sübhə işarə idi. İbn Salamın adamları iməkləyib qazmadan çıxdılar. Səssiz-səmirsiz ağaclara yaxınlaşıb dodaqlarını yapışdırdılar.

Amiri maraq və təəccüblə onları izləyib, gələn dərvişdən burda daha nə qədər qalacaqlarını soruşdu. Dərviş onu süzüb, başı ilə irəlini işarə etdi:

– Atlarınız irəlidə ağaca bağlanıb. Gedin, bir daha da buralarda görünməyin.

Amiri meşə dərvişinə təzim etdi. Zeyd də təkrarlamaq istəyəndə dərviş tez dilləndi:

– Mənə yox, ağaclara təzim edin. Onlar müqəddəsdir, rəbbimizin ən sadiq qullarıdır.

Amiri marağını cilovlaya bilmədi:

– Bu bədbəxtlərə niyə ağacları, gülləri, otları öpdürürsünüz?

– Biz artıq bura gələnləri tanıyırıq. Bəyəm onlar öz zalım ağalarının ətəyini hər gün öpmürdülər? O boyda Allahı qoyub, etdikləri günahlara görə bütlərinin daşını, torpağını öpmürlər? – dərviş əlini yanında durduğu ağaca sürtüb, ən yuxarıdakı budaqlarına qədər süzəndən sonra əlavə etdi: – Sən bu qədər insan qolunun bir yerdə Allaha uzandığını görmüsən? Amma bax, bunlar hamısı torpağın qollarıdır. Torpaq onları daim göylərə tuşlayıb dua edir, qoynunu belə sərin, yamyaşıl, rəngarəng tutan Allaha.

Amiri nə deyəcəyini bilmirdi. Dərviş sözlərində haqlı idi, amma cəza üsulları da, hər halda, ona qəribə gəlirdi. Hələ də dizi üstə ağacları öpən adamları göstərib dedi:

– Siz ki Allahın dərvişlərisiniz, bəs, bunları burda saxlayıb cəzalandırmaq da günah deyil?

– Biz onlara cəza vermirik ki. Əksinə, yaxşılıq edirik. Onlar o qədər günahlar işləyiblər ki, indi ağacları öpdükcə təmizlənirlər, günahları yuyulur. Sonda günahlardan tamamilə arınıb ya bizim kimi dərviş olacaqlar, ya da ki qul olmağa davam edəcəklər. Onlar təbiəti sevməli, Allahın yaratdıqlarının qədrini bilməlidirlər. Bir gün onların tamamən təmizləndiklərini görüb, meşə də onları sevib qoruyacaq…

Səlim Amiri nə deyəcəyini bilmirdi. Ah çəkib "hə, təki qorusun, biz mələk kimi övladımızı qoruya bilmədik. Allah onu gec verdi, gözəl verdi, amma ağlını aldı, – dedi, – axtarıb tapaq,

onu evinə aparaq, bu bəladan qurtulaq”.

Dərviş “olmaya, bu bizim mələyimizi axtarır, ona xələl yetirmək istəyir” deyə düşünüb “Bu iblisləri tez qazmaya salın!” bağırdı.

***

Ceyran balası kolların arasında ilişib qalmışdı. Ana ceyran nə qədər çalışsa da, balasını azad edə bilmədi. Ümid Qeysə idi. Ana ceyran özünü ona yetirib, başını əllərinə sürtdü. Geri çevrilib meşəyə tərəf qaçır, ayaq saxlayaraq yenidən dönüb baxırdı. Qeys onu anlayıb, Ana ceyranın arxasınca qaçdı.

Bala ceyran sıx kolların arasında çabalayıb əldən düşmüşdü. Qeys kolları aralayıb, onu xilas etdi, qucağına alıb, anasına yaxınlaşdırdı. Ana balasının üz-gözünü yalayıb toxtadı. Qeys qayıtmaq istəyəndə ağacların arxasından tanış səs eşitdi:

– Mən Səlim Amiriyəm. Bizim günahımız yoxdur. Buraxın bizi…

Qeys dayısının səsini eşidən kimi tanıdı, dərhal özünü qazmanın önünə çatdırıb, dərvişlərdən “O səsi gələn kim idi?” deyə soruşdu.

Meşə dərvişləri Qeysi görən kimi təzim etdilər. Onlardan biri qazmanın qapısını açdı. Səlim Amiri və Zeyd qazmadan çıxanda gözlərinə inanmadılar. Qarşılarında dayanmış uzun saçlı, əynində qurumuş kətan zoğlarından təmiz libas, bir yanında iri cüssəli bəbir, o biri yanında balalı ceyran olan adam Qeys idi.

Qeys onların Bəbirxana görə irəli gəlməyə ürək etmədiklərini anlayıb, özü yaxınlaşdı, sarılıb görüşdülər. Səlim Amiri bacısı oğlunu tər-təmiz kətan libasda, sağlam, gümrah görüb təəccüblənsə də, büruzə vermədi.

Qeys onları qoşa çinarın altına gətirib, oturmaları üçün yer göstərdi.

Səlim Amiri atına yaxınlaşıb Rüqəyyanın göndərdiyi bağlamanı götürdü, düyünlərini aça-aça:

– Anan yaxşı ət yeməkləri bişirib – dəvə qutabı, qovurma. Bir az ye, yəqin ki, ananın yeməkləri üçün darıxmısan? – dedi.

Qeys gülümsəyib, əlini Səlimin əlinə tərəf apardı, bağlamanı açmasına imkan vermədi:

– Dayı, əziyyət çəkmə, yəqin siz ac olarsınız, geri qayıdacaqsınız bir azdan, yolda yeyərsiniz.

Zeydin gözləri parladı. Yerində qurcalandı. Səlim bağlamanı yenidən açmağa çalışdı:

– Biz də yeyərik, düz deyirsən, acmışıq, amma sən də yeməsən, boğazımdan keçməz.

Qeys Zeydin necə udqunduğunu görüb "yaxşı, siz yeyin" dedi.

Səlim bağlamanı süfrə kimi açıb yeməkləri düzdü, yeməyə başladılar. Qeys bir dəfə də olsun, əlini süfrəyə uzatmadı.

– Xoşuna gəlmir? Niyə yemirsən?

– Narahat olma, dayı, mən ac deyiləm. Ət də yemirəm, – deyə gülümsədi.

– Niyə, insan ət yemədən necə yaşaya bilər?

– Dayı, özün görürsən ki, yaşayır. Özü də çox gözəl yaşayır.

Ətini yediyiniz bu dəvəni, Allah bilir, azı on il karvanda işlətdikdən sonra, artıq yeriyə bilmədiyini görüb kəsib yeyirsiniz. Bəlkə də, dişi dəvədir. Bu il yəqin doğmayıb. Qısır deyib kəsmisiniz. İnsan yediklərindən həzz almalıdır. Meşədə o qədər meyvə, şəfalı otlar varkən, məni ət yeməyə nə məcbur edir ki?!

Qeys elə aramla, üzündə təbəssümlə danışırdı ki, onun bu rahatlığı Zeydi də, dayısını da təəccübləndirirdi. Onlar qarşılarında belə bir mənzərə görəcəklərinə ümidli deyildilər.

Səlim istədi bacısı oğlundan soruşsun ki, evə qayıtmaq fikrin yoxdurmu? Amma anladı ki, mənasız suallardansa, sussa yaxşıdır. Ətrafa boylandı, nəzərlərini Zeydə çevirib, "yeməyini ye, gedək. Qeys olmasaydı, bütün günü ağacları öpəcəkdik" deyə güldü.

Amirinin gülüşünə Qeysin də təbəssümlə cavab verməsi Zeydi ürəkləndirdi:

– Bura cənnət kimidir, dərvişlər də sənə əmirləri qədər səcdə edirlər, – dedi.

Qeys eyni aram və təbəssümlə "Burda hər kəs taleyinin əmiridir" cavabını verdi.

Yola çıxmazdan əvvəl Amiri bacısı oğlundan ərkyana xahiş etdi:

– Bəlkə, dərvişlərə deyəsən, İbn Salamın adamlarını buraxsınlar.

Az sonra baş dərviş İbn Salamın adamlarına istəsələr, gedə biləcəklərini dedi:

– Meşə sizi bağışladı, təmizləndiniz. Qalıb bizə qoşula

da bilərsiniz, gedə də bilərsiniz. Dustaqlar azad olduqlarına çox sevinsələr də, heç biri çıxıb getmək istəmədi, dərvişlərə qoşulmaq istədilər.

Getmək vaxtı olsa da, Amiri tələsmirdi. Zeyd olmasaydı, bəlkə də o da ibn Salamın adamları kimi burda, Qeysin yanında qalmağa üstünlük verərdi. Meşədən xeyli aralansalar da, ikisinin də fikri hələ orada qalmışdı. Amiri nə düşündüsə, qəhqəhə çəkdi:

– Guya Qeysi aparmağa gəlmişdik, amma az qalmışdı dərvişlər bizi o dünyaya aparsınlar. Gördün də, Qeysə padşah kimi baxırlar. Bəndovanda da yerindən duran deyir ki, Qeys dəlidir, Məcnundur…

Zeydin nitqi qurumuşdu. Bu gün şahid olduqları onu məyus etməkdən başqa bir işə yaramamışdı. "Qeys bəbir kimiydi. Belə getsə, məndən nə onun kimi Məcnun, nə də Nofəl kimi sərkərdə olar".

Səlim Amirinin isə üzü gülürdü. Bacısı oğlu haqqında danışılanların heç biri onun gördüyü ilə üst-üstə düşmürdü. Səlim Qeysin öz halından məmnun, hüzurlu olduğunu, xoşbəxt yaşadığını gördü. İndi onu bircə sual maraqlandırırdı: "Yaxşı, bəs, görəsən, Leyli haqqında nə düşünür? Axı indi kimsə onların qovuşmasına mane olmayacaq. Bəs, niyə Leylinin dərdindən çöllərə düşən Qeys sevgilisinin heç adını da tutmur?"

## XV fəsil

Ayişə Leyliyə Qeysin ortadan yox olduğunu deyəndə neçə gündən bəri "Qeys" deyib haray qoparan Leyli sevinmişdi. Düşünürdü ki, sevgilisi çinarların yanına gedib, hazırlığını görəcək, sonra gəlib onu da aparacaq. Əksini ağlına da gətirə bilmirdi. İndi Leyli əvvəlkindən də həyəcanlı idi. Gözü qapıdan, pəncərədən yığılmırdı. Fəttah bütün pəncərələrin arxasına taxta vurub bağlatdı. İndi o, Qeysin gəlməsindən yox, qızının pəncərədən qaçıb onun arxasınca gedəcəyindən qorxurdu.

Günlər keçir, Leyli gözü yolda, qulağı səsdə gözləyir, sevgilisi isə gəlmək bilmirdi ki, bilmirdi. Ümidləri azaldıqca Qeysi çağırıb "hardasan? niyə gəlmirsən?" soruşur, ruh əkizinin onu duyacağına inanırdı. Çağırışları, gözləntiləri işə yaramayanda Leyli o qədər ağlayırdı ki, heydən düşüb huşunu itirirdi.

Fəttah çarəsizlikdən nə edəcəyini bilmirdi. "Düşmənə tənə etdiyim öz başıma gəldi. Allahım, mən nə edəcəm?" Əl-Müləvvəhin yanına gedib üzrmü istəsin? Desin ki, qız əldən gedir, gəl bunları qovuşduraq, bir səhvdir etmişəm? Amma Müləvvəhi də bilmirdi, ona nə cavab verəcək. Bəlkə də, qapıdan qovacaqdı? Yox, Müləvvəhin yanına gedə bilməz…

Amma Zeyd vardı. O Zeyd ki, Ayişəyə qovuşmağına mane olmasın deyə hər şeyi Fəttaha xəbər verirdi. Ümidləndi. Zeydin ağzını aramaq lazımdır. Leylini ya göz görə-görə ölümün ixtiyarına buraxmalı, ya da çıxış yolu tapmalıydı.

Fəttah mədrəsəyə tərəf yollandı. Özünü guya Zeydi təsadüfən görübmüş kimi aparacaqdı. Mədrəsənin qarşısındakı daşın üstündə bir xeyli oturdu. Zeydlə Ayişə dərsdən çıxanda onu

uzaqdan gördülər. Nələr baş verdiyini anlayırdı. Balıq kimi sürüşkən Zeydi nə Qeys, nə də Leyli maraqlandırırdı. Təbii ki, Fəttah xeyrə gəlməmişdi, boynuna nəsə bir yük qoyacaqdı. Ona yaxınlaşmadan "Fəttah bizi bir yerdə görməsin" deyib, Ayişəni arxa yolla apardı.

Əli ətəyindən uzun qalan Fəttahın Zeydlə bağlı ümidi də boşa çıxdı. Qərara gəldi ki, Əl-Qasıminin karvansarayına getsin, görək, əmisi ona bu dəfə nə məsləhət verir. Yol boyu Zeydin çoxbilmişliyini düşünüb onu təqdir edirdi. "Zeyddən xoşum gəlir. Ağıllı, tədbirli gəncdir. Mənim qızıma bax, Ayişə qədər də ağlı olmadı. Adam yanıb-tökülür. Bu dünyada milyonlarla insan – kimisi var-dövlətə görə, kimisi mənsəbə görə aşiq olmadan yaşayır. Elələri var, bir-birinə zorla dözürlər. Heç veclərinə də deyil, təki rifah içində yaşasınlar. Mənim ağılsız qızımsa gedib Zeyd kimi birini tapmadı, çöllərin dəlisinə dəli kimi aşiq oldu. İbn Salam kimi qızıl torbasını əlində saxlaya bilmədi. Nədi-nədi sevir. Gərək elə sevəsən?..."

***

Əmisi sanki elə onun gəlişini gözləyirdi. Ürəyi dolu idi:

– Bura bax, qızı apar evə, İbn Salamın da evini satıb qızıla çevirək. Yoxsa bir də gördün, qohum-əqrəbasından kimsə çıxdı ki, ev mənimdir. Onun evini yaxşı pula satmaq olar. Bu sayədə qızına da çoxlu elçilər düşər.

– Bilirəm, İbn Salamın evini onsuz da satacam. Amma Leyliyə kiminsə elçi düşəcəyinə inanmıram. Çünki belə davam etsə,

bütün mahal onun dəli olduğunu biləcək. Leyli Qeysdən də betər dəlidir, əmi! – Fəttahın gözləri doldu.

Əl-Qasıminin heç halına təfavüt etmədiyini gördü. Onun İbn Salamın evini satıb irəli düşməkdən başqa bir fikri olmadığını görüb, karvansarayı tərk etdi.

***

Zeyd tövşüyərək özünü içəri atdı:

– Əl-Qasımini öldürüblər. Xəncərlə boğazını kəsiblər…

Müləvvəhlə birgə evdən çıxıb, meydana tələsdilər.

Bəndovan meydanına hər iki qəbilənin üzvləri toplaşmışdı. Əl-Qasıminin meyiti yuyulub kəfənlənmiş, meydanın ortasında kilimin üstündə uzadılıb, üstünə yaşıl örtük çəkilmişdi. "Yasin" oxunduqdan sonra Fəttah əl-Şeybaninin yanındakılara işarəsi ilə meyiti yerdən qaldırıb, Bəndovan qəbiristanına sarı irəlilədilər.

Əl-Müləvvəh çox kədərli görünürdü. Bu qəbiristan onlar Bəndovana köçürüləndən sonra salınmışdı. Aradan keçən bu müddət ərzində qəbiləsindən xeyli insanın öldüyünü sanki indi xatırladı. İki qəbilənin yükünü çiyinlərində çəkmişdi. Sanki burda anladı ki, həyatla ölüm arasındakı qısa məsafəni çox sürətlə qət edib və düşünməyə belə macalı olmayıb. Yalnız indi oğlu Qeysə tamamilə haqq qazandırdı. Qeys indinin yox, min il sonranın insanıydı…

Müləvvəhə yaxınlaşan Səlim Amiri pıçıltı ilə soruşdu:

– Səncə, Əl-Qasımini kim öldürüb?

Müləvvəh şübhələndiyi birinin olmadığını dedi.

***

İbn Salam öləndən sonra bir gecə Fəttah onun evini ələk-vələk edib qızıllarının yerini tapmağa çalışdı. Baxmadığı, eşələyib axtarmadığı yer qalmadı. Yorulub əldən düşsə də, ibn Salamın varidatını tapacağından ümidini üzməyən Fəttah səhərə kimi evin hər küncünü, gümanı gələn hər yeri axtardı. Amma nəinki qızıl, bir dənə də olsun belə mis sikkə də tapa bilmədi. Ertəsi gün İbn Salamın evinin qapısına iri bir qıfıl vurub, qızını öz evinə gətirdi. Evdən aralanmamış əllərini belinə qoyub, onu bir də diqqətlə süzdü və beynində nəfsi boyda böyük sual doğdu: “Görəsən, bu evi neçə kisə qızıla satmaq olar?”

Fəttah indi qəbiristandan qayıdanda İbn Salamın evini xatırladı və dalağı sancdı. Ölümündən iki gün əvvəl əmisi ondan İbn Salamın evinin açarını istəmişdi. Görəsən, o evlə bu qətlin arasında bir əlaqə varmı? Fəttahın beyninə sanki qan sızdı. Hirsindən, hikkəsindən qıpqırmızı qızardı. Axı, Məcnun Leylinin hələ də İbn Salamın evində olduğunu düşünür. Bəlkə, Leyli ilə görüşmək üçün ora gəlib, Əl-Qasımi də təsadüfən orda olub, Qeysin qarşısını kəsmək istəyəndə onu qətlə yetirib?

Bu fikirlərlə get-gedə Qeysdən şübhələri artan Fəttah bir anlıq yerində donub qaldı. “Kaş ki Qeys öldürmüş olsun. Boynunu vursunlar, canımız ondan qurtarsın”.

Fəttah Qeysi düşündükcə Nofəlin surəti gözlərinin önündən çəkilmirdi. “Məcnunu aradan götürdə bilsəm, camaatı da Nofələ qarşı qaldırıb deyərəm ki, qatil Qeysin arxasında Nofəl durur”.

Beynində qurduğu bu planlardan məmnun olsa da, bir az tərəddüd etdi. “Məcnunun qətl törədə biləcəyinə bəndovanlılar inanacaqmı? Deməyəcəklərmi qarışqanı tapdalamağa qıymayan bir cünun o boyda Əl-Qasımini necə qətlə yetirə bilər? Amma bu xəbər yayılsa, gec-tez inanarlar. Əl-Qasıminin bircə dəfə dəli deməsiylə Qeysə Məcnun dedikləri kiimi qatil də deyərlər”. Özü öz fikirlərindən ləzzət aldı.

Fəttahın gözü qəbristanın çıxışındakı qəbirlərə sataşdı. İndiyə kimi heç vaxt ölməyəcəyini düşünürdü. Ölüm sözünü beynindən həmişə qovmağa çalışmış, bu barədə düşünmək belə istəməmişdi. Ölümü bir şəkildə adlayıb birbaşa cənnətə düşəcəyinin xəyalını qurmuşdu. Fəttah qəbristandan çıxan kimi ölümü də unutdu. Yenidən Qeyslə bağlı planları beyninə hakim kəsildi. İlk addımını yubatmadan elə burdaca atdı. Adamların gur yerində bağırdı:

– Mənə bunu da elədilər, ay camaat! Dağ boyda əmimi öldürdülər…

Evinə çatar-çatmaz ölüyuyan qarşısını kəsdi, əlindəki bağlamanı uzadıb, “Əl-Qasıminin paltarlarıdır” dedi. Yanındakı xidmətçini göstərib, paltarları ona verməsini tapşırdı. Ölüyuyan sağollaşıb getmək istəyəndə əbasının yaxasını düzəldən Fəttahın gözü qurşağındakı xəncərə sataşdı. Səhra adamlarında bir adət vardı – sünnət olunan gün oğlan uşaqlarına ucu əyri, üstü işləməli, “cəmbiyə” deyilən xəncər bağışlayardılar və o bunu daim üstündə gəzdirərdilər. Cəmbiyəsiz gəzmək başını, bədənini hardasa unutmaq kimi bir şey idi.

– Əmimin cəmbiyəsi hardadır? – soruşdu.

Ölüyuyan gözlərini döydü: – Üstündə yox idi.

Fəttah bağlamanı xidmətçinin əlindən alıb, içindəkiləri yerə dağıtdı. Qanlı qondarasını, qurşağını qaldırıb, o tərəf-bu tərəfə çevirib silkələdi. Qurşaq bağlamada olsa da, cəmbiyə yerində yox idi.

Zeydi yanına çağırtdırdı. Zeyd Fəttahın yanına yollansa da, tədirgin idi. "Əcəba, onu niyə çağırtdırır? Fəttah, adətən, Qeyslə bağlı bir sualı olanda ona üz tuturdu. Olmaya Fəttah məni çözüb, anlayıb ki, Qeys məndən yaxşı ola bilməz…"

Fəttah Zeydi çox gülərüz qarşıladı:

– Zeyd, sən, hər halda, bilərsən, o Məcnundu, nədi… onu deyirəm, bu yaxınlarda buralara gəlməmişdi ki?

– Yox, mənim onun gəlib-gəlməməyindən xəbərim yoxdur. Sonuncu dəfə dayısı ilə gedəndə gördüyümüzdür. O, tamamən özünə qapanıb.

Fəttah bir xeyli Zeydin üzünə baxmadan nala-mıxa vurub, sonunda dedi:

– Mən əmimin ölümündə ondan şübhələnirəm.

– Hmmm, vallahi, mən bu barədə heç nə deyə bilmərəm. Heç nədən də xəbərim yoxdur.

Zeyd getdi. Fəttah əllərini bir-birinə sürtüb rahat nəfəs aldı. Qeysin Əl-Qasıminin qatili olması barədə car çəkməyə ehtiyac yox idi, elə bircə Zeyd bəs edirdi. Guya Qeysə görə narahat olduğunu dilə gətirib, bu xəbəri bütün Bəndovana yayacaqdı.

Gözlədiyi kimi də oldu. Bəndovanın qadınlarından tutmuş

çobanına qədər hər kəs Qeysin qatil olmasından danışır, hərə öz fərziyyəsinə uyğun, hətta harda, necə öldürməsi barədə də uydurmalar danışırdılar.

Əhali tədirgindi. İndi Bəndovanda kimin dəvəsi də oğurlansa, Qeysdən şübhələnir, hamı qapı-pəncərəsini bərk-bərk bağlayıb onu lənətləyirdi. Hətta Qeysin tapılıb Bəndovan meydanında edam olunmasını tələb edənlər də vardı.

***

Qeysə qovuşması üçün atası Fəttahdan başqa Leylinin yolunu kəsən heç nə yoxdu. Bircə an düşünmədən onu atasının evindən, öz otağından qaçıracaq qədər gözüqara olan sevgilisinin indi hələ də onun dalınca gəlməməyinə səbəb, görəsən, nə idi? Fikirləşməkdən beyni uğuldayır, ağlamaqdan gözləri tor görürdü. Qeysin sevgisinə olan inamı onun gələcəyinə bircə an belə şübhə etməyə imkan vermirdi. “Qeys gələcək. Çünki məni yer üzündə hamıdan çox sevir. Çünki ona nəfəsi qədər yaxınam, çünki mənsiz ona həyat yoxdur. Mənim üçün onsuz yaşamaq mənasız olduğu kimi…”. Qeysin hələ də gəlməməyinə özündən səbəblər uydurmağa, bəhanələr tapmağa çalışır, ümidini son damlasınadək ölməyə qoymurdu. İndi düşünürdü ki, Qeys yəqin Əl-Qasıminin ölüm xəbərini eşidib. Görünür, ailəmiz yasda olduğu bir vaxtda, üstəlik məni də qaçırıb atama təzə bir acı yaşatmaq istəmir.

Günlər çay kimi axıb gedir, Leyli “bu gün olmasa da, sabah gələr” ümidi ilə hər gün sevgilisini gözləməyin min bir ağrı-

acısını çəksə də, səbrini basıb, gözlərini qapı-pəncərədən yığa bilmirdi.

İnsanın əsəbləri məchulluqdan pozulduğu qədər heç nədən pozulmaz. Leyli evlərinin içindəcə tərki-dünya olub yalnız sevgilisinin xatirəsi və xəyalları ilə yaşayır, mövcud olmaq üçün gücünü, qüvvəsini yalnız öz sevgisindən və Qeysin onu sevdiyinə əminlikdən alırdı. Bu saat ən böyük arzusu sevgilisinin köksünə sıxıla bilməkdi. Qeys onu qucaqlayıb o odlu qollarının arasına alsa, Leylinin bütün yaraları sağalacaqdı, bundan əmindi.

"Bəlkə, Qeys məndən inciyib? Bəlkə, indi fədakarlıq növbəsinin məndə olduğunu düşünür? Bəlkə, indi o mənim deyil, mən onun dalınca getməliyəm?" Bunca müddətdə gəlmədisə, deməli, artıq gəlməyəcək. Gəlməyi seçsəydi, Qeysin yolunu kimsə kəsə bilməzdi. Nə Fəttahın hər tərəfə yerləşdirdiyi nəzarətçilər, nə qınaqlar. "Bəs, mənim yolumu nə kəsir? Nəzarətçilərin gözündən yayınıb qaçmaq da olar, axı. Düzdür, bu dəfə də Leyli Məcnundan da betər dəlidir deyəcəklər. Atam, anam camaatın üzünə necə baxacaq, öz ayağı ilə sevgilisinə qoşulub qaçmış qadın haqqında nələr uyduracaqlar?" Leyli düşünməkdən, az qala dəli olurdu. Bir-birini təkzib edən ziddiyyətli qənaətlər, təlatümlü duyğular onu gücdən salır, ürəyində ümidlə kədər qoşa yuva qururdu. "Valideynlərini düşün" deyə hökm edən ağlın səsini dinləyib ömürlük tənha və bədbəxt olmağımı seçsin, yoxsa el qınağı bahasına sevgilini və sevginimi?

Uzun müddətdən sonra Leyli ilk dəfə güzgünün qarşısına

keçdi. Beli daha da incəlmiş, sinəsi qabarmışdı. Daha da gözəlləşdiyinin fərqində idi. Ürəyi atlandı, qanı çəkilmiş yanaqları allandı, üzü güldü. Güzgüdəki gözlərindən ona baxan Qeys idi. Bircə anda sanki canına güc, qüvvə gəldiyini hiss etdi. "Qeys… bu gözəlliyin sahibi sənsən, əzizim. Səndən başqası ola bilməz". Xəyalən özünü tamamilə sevgilisinə təslim etdi. Onun qolları arasında Leylinin ruhunda eşqdən başqa heç nə qalmadı. Bir də onda ayıldı ki, evlərini tərk edib, qaçır. Sevgisinə doğru, sevgilisinin yanına qaçır…

***

Söhbət Nofəl əl-Amiriyə də çatmışdı. Qeyslə bağlı xəbərlər nə qədər vahiməli olsa da, deyilənlərin yalan olduğundan əmin idi. O yenə də əl-Müləvvəh və Rüqəyyanı düşündü. Ertəsi gün artıq Bəndovanda idi. İlk növbədə, onlara baş çəkdi. Səlim Amirinin gətirdiyi xəbərlər onları bir qədər toxtatsa da, Əl-Qasıminin qətlində Qeysin günahlandırılması valideynlərinin qol-qanadını qırmışdı. Nofəlin isə üzü gülürdü:

– Siz düşünmürsünüz ki, mən qardaşımı gözdən qoymaram? Onun heç öz xəbəri də yoxdu ki, Şirvan qoruğunun giriş və çıxışında mənim gizli xəfiyyələrim keşik çəkir, onu bir an da olsun, gözdən qoymurlar. Hələ mən meşə dərvişlərini demirəm. Şeyxləri bizim adamdı. Belə olmasaydı, mən rahat yata bilməzdim. Heç nədən narahat olmayın. Lazım gəlsə, həmin adamlar şahidlik də edərlər ki, Qeys meşəni tərk etməyib. Çox da uzun çəkməz, Əl-Qasıminin qatili də bəlli olar.

Əl-Müləvvəhin gözləri doldu. Dərindən nəfəs aldı. Nofələ

təşəkkür, Allaha şükr etdi. Evinin yerləşdiyi təpəlikdən bütün Bəndovana göz gəzdirdi. Vahimələnib büzüşdü. Belə çıxır ki, Nofəlin gücü olmasaydı, ömrünü həsr etdiyi insanlar onun oğlunu da, özünü də xərcləyəcəkdilər. Şükür məsləhətinə, İlahi.

Fəttah içəri girər-girməz Leylini soruşdu.

– Daha qışqırmır, – Sayda dedi, – yəqin yorulub yatdı.

– Get bir bax, gör sağdı?

Sayda göz yaşlarına boğulub, Leylinin otağına sarı getdi. Qapını açıb içəri keçəndə gözlərinə inanmadı. Vahiməli səslə qışqırdı. Otağın pəncərəsi taybatay açıq, Leyli isə yox idi. Pəncərədən aşağı baxdı. Düşündü ki, Leyli özünü pəncərədən aşağı atıb, ona nəsə olub. Qaça-qaça evin qapısı ağzına gəlib, Fəttaha səsləndi:

– Pəncərə taybatay açıqdır, Leyli otaqda yoxdur.

Fəttah da Saydanın ardınca həyətə düşdü. Evin ətrafında dövrə vurub, hər tərəfi axtardılar, Leylinin izi-tozu da yox idi. Fəttah üzü Bəndovana var gücü ilə qaçmağa başladı. Bir xeyli qaçandan sonra səndirləyib, üzü üstə yerə yıxıldı. Daşlar üzünü, dizlərini sıyırıb yaralamışdı. Ağrıdan qıvrılan Fəttah yumruqlarını daşlara çırpdı. Göz yaşları sifətindəki sıyrıqlardan axan qanlara qarışıb üzünü yandırırdı…

Zeyd son dövrlər Ayişənin onunla soyuq davranmasını özünə dərd etmişdi. Ayişə çox tədirgin görünürdü. Hər kəsin, hətta sevdiyi qızın da Qeysdən danışması Zeydi hövsələdən çıxarırdı. Zeyd təlaş işindəydi, belə getsə, Ayişəni itirəcəyindən qorxurdu. İndi nə etsin, Ayişənin də ona vurulması üçün o da qızı hamının

içində öpsün? Özü də bilirdi ki, bunu edə bilməyəcək. Etsə də, gülünc yeri olacaqdı. “Məcnunun yerişini yerimək istədi” deyib məsxərəyə qoyacaqlar. Nofəlin bir gün onu yanına aparacağı ümidi, saray əyanı olacağı xəyalı ilə yaşayırdı. Sevgisini qıza bəyan etməkdən də qorxurdu. Birdən qız ona yox desə? Üz-üzə sevgisini etiraf etməyə, bəlkə, Ayişə utanar? Ayişəyə məktub yazıb, onu necə sevdiyini bildirməklə könlünü ələ almağa qərar verdi.

Məktəbə hamıdan erkən gəldi. Ayişə ilə sinif otağına girən qızlar Zeydi görüb təəccübləndilər. Zeyd onları salamlayıb yerindən tərpənmədi. Qızlar da, Ayişə də çiyinlərini çəkib, çantalarını oturacaqlarına qoyub getdilər.

Zeyd Ayişənin çantasını bir göz qırpımında oturacaqdan götürüb məktubu onun içinə dürtmək istəyəndə, çanta ona ağır gəldi. Maraq onu üstələdi, çantanın ağzını açıb baxanda gözlərinə inanmadı. Ayişənin çantasında cəmbiyə vardı. Hər qəbilə onlara məxsus xəncərlərin dəstəyində öz naxışını vurdurardı, dəstəkdəki naxışlar Əl-Şeybani qəbiləsinə məxsusdu. Bu Əl-Qasıminin cəmbiyəsinə bənzəyirdi. “Aman Allahım, bu cəmbiyənin Ayişənin çantasında nə işi var?” düşünəndə, Zeyd qorxub bir anlıq çantanı əlindən buraxdı, tez götürüb, yerinə qoydu və səssiz-səmirsiz oturdu.

Dərsləri başlasa da, Zeyd müəllimini eşitmir, tez-tez Ayişəyə baxır, çantasındakı cəmbiyəni unuda bilmirdi. Beynində hər şey bir-birinə qarışmışdı, heç nə anlaya bilmirdi: “Ayişə Əl-Qasıminin xəncərini niyə çantasında gəzdirsin ki?” Həm

qızın onun məktubuna nə cavab verəcəyinin, həm də xəncər məsələsinin təlaşı Zeydi büsbütün sarmışdı.

Məktəbdən çıxıb birgə evə gedəndə də Ayişə bir kəlmə dinib-danışmadı. Səhəri dirigözlü açan Zeyd qəhvəaltı da eləmədən məktəbə yollandı. Dərsləri başlasa da, Ayişə məktəbə gəlmədi. Əyilib pıçıltıyla rəfiqəsindən onu soruşdu.

– Ayişə yol boyu ağlayırdı. Nə illah etsək də, səbəbini bizə demədi. Limana çatanda orda işi olduğunu deyib getdi.

Zeyd çantasını götürüb, sinif otağından çıxdı. Müəllimi və yoldaşları onu nə qədər səsləsələr də, geriyə baxmadan mədrəsəni tərk etdi. Limana çatanda gözü hər yerdə Ayişəni axtarırdı. Hətta sahilboyu sıra ilə düzülmüş ticarət, balıqçı qayıqlarına da göz atdı. Sahildəki ən son qayığın önündə durmuş Ayişəni arxadan görüb tanıdı. Qız qayıqdakılara yalvarırdı:

– Nə olar, məni də götürün. Axı, niyə heç biriniz mənə inanmırsınız? Mən təcili getməliyəm.

– Bu, balıqçı qayığıdır. Uzaq məsafəyə getmirik. Axşama geri qayıdacağıq. Səni dənizin ortasında buraxıb geri gəlməyəcəyik ki, – qayıqdakılar gülüşdülər.

Zeyd bir qədər nəfəsini dərib, nə baş verdiyini anlamağa çalışırdı. “Aman Allahım, Ayişə niyə Bəndovanı tərk etmək istəyir?” Asta addımlarla Ayişəyə yaxınlaşdı. Ayişə geri-geri çəkildi, qəflətən özünü dənizə atmaq istəyəndə Zeyd qızın qolundan tutub, özünə tərəf çəkdi. Hamının onlara baxdığını görüb, Ayişəni limandan uzaqlaşdırdı.

Dəniz kənarındakı daşın üstündə oturmuşdular. Ayişə dinib-

danışmır, büzüşüb ağlayırdı. Zeyd xəfifcə əlini qızın kürəyinə qoydu. Ayişə başını Zeydin çiyninə söykəyb hönkürdü:

– Mənə başqa yol buraxmadı, Zeyd. Məni Səlim vasitəsilə aldadıb ora, İbn Salamın evinə apardı. Dedi "Leyli ordadır, səni çağırır". Məni içəri ötürüb özü aradan çıxdı. Sən demə, orda Əl-Qasımidən başqa kimsə yox imiş. Mənə dedi ki, səni özümə dördüncü arvad edəcəm, sonra yerə yıxmağa çalışdı. Başqa əlacım yoxdu, Zeyd. Mən namusumu qorudum.

Ayişənin dediklərindən hiddətlənən Zeydin əli Ayişənin çantasına toxundu. Hiss etdi ki, cəmbiyə çantadadır. Bir göz qırpımında xəncəri çantadan götürdü, qızın əlini buraxmadan dənizə tərəf qaçdı. Hər ikisi qurşağacan islandı. Zeyd cəmbiyəni var gücüylə dənizin dərin sularına atdı:

– Sən heç nədən qorxma. Mən həmişə sənin yanında olacam!

Ayişə Zeydə sarılıb lal-dinməz başını onun sinəsinə qoydu. Zeyd sahilə doğru baxdı. Sahil bomboş idi. Uzaqdan yalnız Bəndovan məscidinin göylərə uzanan minarələri görünürdü…

***

Qeys güllərdən yaranmış yatağına uzanıb göy üzündəki bir-birindən parlaq ulduzlara baxır, Leylinin bütün meşəni bürümüş ətrini sinəsinə çəkməkdən doymurdu. Ulduzlar sayrışdıqca ona elə gəlirdi ki, onlar nəfəs alıb-verirlər. Aman Allahım, indi həmin o tanış ətir göylərdən gəlirdi. Ulduzlar da o rayihəni sinələrinə çəkmək üçün belə çox sayrışıb nəfəs alırdılar. Bir anlıq Leylinin ətrini ulduzlara, bütün kainata qısqandı. Sayrışan

ulduzların işığı gecəni gündüz kimi işıqlandırır, sanki bu gün Ayı kölgədə qoymağa çalışırdılar. Nə qədər ki kainatda bu rayihə var, ulduzlar nəfəs alıb-verməyə davam edəcəkdilər. Get-gedə Ay daha da işıqlanır, sanki günəş kimi gecənin soyuğunu azaltmağa, meşəni qızdırmağa çalışırdı. Göy üzü hətta gecə də bu qədər işıqlıdırsa, bəs, onu incidən o qara kölgələr hardan gəlirlər? Leylinin ətrinin gəldiyi bir yerdən qara kölgələr gələ bilməzdilər. Hər şey aydın idi, Uca Rəbbimiz bütün pislikləri gömmək üçün Yer kürəsinin nüvəsindəki alovları yaratmış, bütün canlıları qorumaq üçün isə yaratdıqlarının ən etibarlısı olan torpağı qoruyucu örtük etmişdi. Pisliklər artdıqca torpağın sinəsində yaranan dəliklərdən qara kölgə kimi çıxır, Allahın işığını qəbul etməyən toxumalardan yarananların bədənində yaşayıb, göy üzünə gücləri çatmasa da, yeri çirkləndirməyə çalışırdılar. O qara kölgəni hərə bir adla çağırırdı.

Qeys həmin qara kölgələrin cinlər olduğunu düşünürdü. Kimsə onları canlı görməmişdi. Çünki onlar pis insanların buxarlanıb torpağın altından özlərinə yol tapan ruhları idilər. Ruhlar isə görünə bilməzdilər. Onlar gündüzlər göy üzündən gələn ağ işığa bürünmüş günəşin, gecələr isə ayın və ulduzların işığından məhv olur, yalnız tam qaranlıqda üzə çıxa bilirdilər. Torpağın sinəsini yaralamaq bu pisliklərin çoxalmasına gətirib çıxaracaqdı.

Qeys başını qaldırıb havadakı bihuşedici tanış ətri sinədolusu içinə çəkdi, ləzzətlə yuxuya getdi. Qumdan olan qayığı dalğalar qanadları üstə alıb sahildəki təpəlikdə onu gözləyən

Leylisinə doğru aparırdı. Uzaqda olsa da, sanki dünyadakı bütün insanlar bu sahilə yığışıb Leylinin qumdan nəhəng heykəlini düzəltmişdilər. Qayıq sahilə yaxınlaşdıqca qum heykəl get-gedə canlanırdı. Əvvəlcə gözlərini açdı, sonra gülümsədi. Əlləri insan dərisinin rəngini alanda dalğalar şahə qalxıb, az qaldılar ki, göy üzünü islatsınlar. Sonra nəhəng dalğalar sahili ağuşuna alıb, Leylinin heykəlini elə islatdılar ki, görünməz oldu. Geri qayıdan dalğalar Qeysin üzünə çırpıldılar. Qeys yuxudan ayıldı.

Bərk yağış yağırdı. Ətrafa baxdı. Leylinin qum heykəli yox idi, gördüklərinin yuxu olduğunu anladı. Yağış get-gedə güclənirdi. Göy üzü Leylinin yoxluğuna ağlayırdı. Meşədə olduğundan Qeys də ilk dəfə ağladı. Yağış damlaları alnından dodaqlarına süzüldükcə Leylinin ətrini, dodaqlarının dadını duyub anladı ki, kainat özü Leylidir. O da Qeysə görə ağlayır. Yağış damlalarının hərəsi bir nəhəng dalğa kimi görünürdü. Qeys özündən çıxdı. Ağlını itiribmiş kimi yağış damlalarını şillələyirdi, onun sahildəki Leylisini isladıb əritdikləri üçün…

Yağış onu islatsa da, meşəni nə vaxt tərk edib yolu keçdiyini anlamadı. Dənizə tərəf qaçdı. Sahildəki tənha qayığın ipini açıb, sulara doğru itələdi. Qayığın içinə atılıb, avarları çəkdi.

Yatarkən gördüklərinin həqiqətdə, yoxsa yuxuda baş verdiyini unutmuşdu. İndi onu yalnız bir şey düşündürürdü – Bəndovan sahilinə tez çatıb sahildəki Leylinin onu gözlədiyinə əmin olmalıydı! Yağış getdikcə güclənir, qayığın içinə dolan su onun hərəkətini çətinləşdirirdi. Sanki böyük daşqın olmuş, sular bütün dünyanı ağuşuna almışdı. Qeys tələsirdi. Bir az

da geciksəydi, yer üzündə sahil olmayacaqdı. Sahil yoxdursa, demək, o qumluq da, oradakı Leyli də olmayacaqdı. Bəlkə də dünyanın sonuydu. Leylisini yalnız o, bir də bu qayıq xilas edə bilərdi. Dünyanın sonu olduğunu əvvəldən bilsəydi, Bəbirxanı da, Ana ceyranı da, atasını, anasını da bu qayığa mindirərdi. Bir də Nofəli. Yox, o dünyanın bütün insanlarını, bütün canlıları bu qayığa çağırardı. İlahi, bu qayıq onları sığdırmaz, axı! Dünyanın xilası üçün özü boyda qayıq lazımdır. Gərək onu nəhnəg bir qayığın içinə qoyub başqa bir yerə aparasan, pisliklərin çata bilmədikləri bir yerə.

Yağış get-gedə güclənir, qayığın içi su ilə dolurdu. Qeys qayığın batacağından, Leylini xilas edə bilməyəcəyindən əndişələnir, avarları var gücü ilə çəksə də, gücü, taqəti getdikcə tükənirdi. Qayığın içi büsbütün su ilə dolub, dənizə gömüldü. Qeys qollarına güc verib dalğaları dəf etməyə çalışsa da, bacarmırdı. Artıq yorulub əldən düşmüş qolları, ayaqları sözünə baxmırdı…

Gözlərini açdıqda sahildə üzüüstə qaldığını gördü. Dalğalar onu bir-birlərinə ötürə-ötürə vurub sahilə çıxarmışdılar. Taqəti qalmasa da, ətrafa boylanıb Leylisini axtardı. Yağış və dalğalar bütün sahili yumuşdu. Yuxusundakı Leylinin nəhəng heykəlini görməyincə yumruqlarını düyünləyib, sahili döyəclədi. Əllərini dayaq verib qalxmağa çalışanda başı üstündə Leylinin istisini duydu. Günəş çıxmışdı. O, şəfəqləri, şəfəqlər də onu öpə-öpə sarayına yol aldı…

Leyli Şirvan düzündə Qeyslə qaldıqları meşənin yolunu

yadında saxlamışdı. Uzaq olduğunu bilsə də, onu heç nə durdura bilməzdi. Yol boyu bir xeyli qaçandan sonra ayaqları artıq sözünə baxmırdı. Ürəyi sürətlə vurur, az qalırdı ki, yerindən çıxsın. Ayaqlarını sürüsə də, dayana bilməzdi. Son nəfəsində də olsa, Qeysə yetişməliydi. Bu gün də ona çatmasaydı, öləcəyini bilirdi! Qoşa çinara çathaçatda Leyli artıq yerimir, qarış-qarış sürünürdü. Çinarların ortasında gülləri qurumuş yataqlarına çatıb üzü üstə qaldı və huşunu itirdi.

Meşədə hər şeyi nəzarətdə saxlayan dərvişlər bir-birlərinə baxdılar – bu o idi! Ağ atlı mələyin yanında keçən dəfə gördükləri o mələk! Onun yıxılıb qalması meşə dərvişlərini əndişələndirdi. Lakin onlar gözləyir, qıza yaxınlaşmırdılar. Bir xeyli keçəndən sonra Leyli ayıldı, əllərini dayaq verib qalxmaq istədi. Taqətsiz olduğundan, ayağa qalxa bilməyib arxası üstə çevrildi.

Təkcə Qeys deyil, buranın daimi sakinləri olan heyvanlar, quşlar da gözə dəymirdilər. Qoşa çinarlar olmasaydı, fikirləşərdi ki, səhv gəlib. Hər şey onda Qeyslə gəldiyi kimi idi, amma bura tərk edilmişdi. Leyli əllərini üzünə aparıb, hönkür-hönkür ağladı, "Hardasan, Qeys, məni qoyub hara getdin, indi mən sənsiz neyləyəcəm?!"

***

Fəttah əl-Şeybaninin dişi bağırsağını kəsirdi. Başını itirdiyindən nə edəcəyini bilmirdi: "Mən Şeybani tayfasındanam, hökmdar Yəzid ibn Məzyəd də bu tayfadandır. Necə olur ki,

Bəni Əmir tayfasından birisi, Nofəl əl-Amiri mənə, Şeybanilər tayfasından olan birinə meydan oxuya bilir? Gedəcəm hökmdarın hüzuruna, şikayət edəcəm. Mənim şeybanilərdən olduğumu bilən kimi Nofəl əl-Amirini cəzalandıracaq. Hökmdara deyəcəm ki, Nofəl qızımı qaçırdıb, Məcnunun yanına aparıb".

O, Bərdəyə, Arran və Şirvanın hökmdarı Yəzid ibn Məzyədin hüzuruna getdi. Əl-ayağı titrəyir, dizləri üstə güclə dururdu. Təzim edib, hökmdara yalvardı:

– Ey xudavənd, mən sənin əmrinlə Bəndovana köçürülmüş bədəviyəm. hökmdarına hər zaman itaətkar qul olmuşam. Amirilər tayfasından olan əl Müləvvəhin oğlu, hər kəsin Məcnun dediyi Qeys qızımın da, mənim də həyatımı məhv edib.

Yəzid ibn Məzyədə onun təbəələri arasında Şirvan çölündəki meşəlikdə bəbir əhliləşdirən, ceyranlarla ot yeyən Məcnun haqqında məlumat vermişdilər. Qeys əl Müləvvəhin Leyli bin-Fəttahın eşqiylə çöllərə düşməsindən, bütün Şirvanın onu Məcnun adlandırmasından xəbərdar idi.

– Onun cünun olduğunu hər kəs bilir. Sənin ağlını itirmiş zavallıdandır şikayətin? – Yəzid ibn Məzyəd qəzəbləndi.

Fəttah əl-Şeybani hökmdarın qəzəbinə tuş gələcəyindən qorxub:

– Yox, yox, hökmdarım, Məcnun xəstə və zavallı bir aşiqdir, mənim qızımı rəzil etsə də, ondan bir xəta gəlməz.

Hökmdar hiss etdi ki, Fəttah əsl şikayətini söyləməkdən qorxur.

– Söylə, gəlişinin səbəbi nədir?

– Şikayətim şahzadə Nofəl əl-Amiridəndir, xudavəndim. O mənim kürəkənim ibn Salamın bir neçə adamını öldürüb, halalca arvadı olan qızım Leylini əlindən alıb, Məcnuna ərə vermək istədi. Önünə keçib, ayaqlarına qapandım, yalvardım, dedim "qızım İbn Salamın artıq kəbinli arvadıdır". Düzdür, Nofəl əl-Amiri çıxıb getdi, amma o gedəndən iki gün sonra İbn Salam Bağdada çatmamış öldü. Xudavəndi-aləm, onu Nofəl öldürtdürüb. Sapsağlam adam niyə ölsün ki?

– Demək, sənin şikayətin Nofəl Əl Amiridəndir?

– Bəli, xudavənd-aləm! Dünən qızım Leyli də evdən yoxa çıxıb. Mən əminəm ki, onu da Nofəl qaçırıb, Məcnunla birlikdə hardasa gizləyib.

Hökmdar Fəttahın dediklərinə inanmasa da, ədalət naminə Nofəli sorğu-sual etdi.

– Hökmdarım, İbn Salamın evinə söhbət etməyə getmişdim. Onun Leyliylə kəbin kəsdirdiyini bilmirdim. Yavərimi oxla vurduqlarından bizi qətlə yetirmələrinə imkan verə bilməzdim. Leylinin İbn Salamın kəbinli arvadı olduğunu öyrənəndən sonra mən ordan getdim. O gündən bu günə kimi nə Bəndovana, nə də Lökbatana getmişəm. İbn Salamın ölümündən, Leylinin qaçmağından da xəbərim yoxdur.

Hökmdar qəzəbləndi:

– Sənə kim ixtiyar verib ki, təbəələrin evlənib-evlənməmək işlərinə qarışasan?!

– Hökmdarım, mən atasız-anasız qaldığımda məni sizin

ən sadiq qulunuz Əl-Müləvvəh böyüdüb. On dörd yaşımadək Müləvvəh və Rüqəyya ana mənə qayğı göstəriblər. Sizin arxanızca Bəndovana ilk köç edən də Müləvvəh və onun qəbiləsidir. Bütün yaxşılıqlarının əvəzində Allah ona bir möcüzə bəxş etdi. Bəli, hökmdarım, Qeys bir möcüzədir. O, Leylini sevir, Leyli də onu. İki sevəni ayırıb, sonra adını Məcnun qoymaq əgər ədalətlidirsə, Allahı sevənlərə Rəbbinə sitayişi qadağan etmək, uzaq tutmaq da ədalətlimi olacaq? Bu nə qədər şirkdirsə, Leylini Məcnundan ayırmaq bir o qədər günahdır.

Nofəlin sözləri İbn Məzyədə çox təsir etmişdi. Xüsusən də bacısı oğlu ilə on dörd yaşına kimi maraqlanmamağı onun yaralı yeri idi. Nofəli yaxşı tanıdığından bilirdi ki, Məcnun qeyri-adi biri olmasaydı, Nofəl onun üçün bu qədər fədakarlıq etməzdi.

– Sən nə üçün Leylinin Məcnuna qovuşmasını istəmirsən? – ibn Məzyəd Fəttahdan soruşdu.

– Cünun, ağlını itirmiş birinə mən necə qız verim?

Yəzid ibn Məzyəd ədalətli qərar vermək üçün Nofələ əmr etdi:

– Sən də, Fəttah da birlikdə gedib Məcnunu və Leylini mənim hüzuruma gətirin. Əgər onların evlənməsinə heç bir maneə olmasa, xeyir-dualarını özüm verəcəm.

Nofəl adamları ilə atını Bərdədən Bəndovana dördnala çapırdı. Fəttah əl-Şeybani də onlarla idi. Əl-Müləvvəhi də götürüb Qeys və Leylinin arxasınca Şirvan düzünə gedəcəkdilər. Hər ikisini Yəzid ibn Məzyədin hüzuruna aparacaqdılar, iki sevgilinin taleyini hökmdar həll edəcəkdi.

Qeys və Leyliyə verdiyi sözü yerinə yetirməməsi Nofəli çox incidirdi deyə indi də tələsirdi. O gündən bəri hər gün Allaha yalvarırdı ki, Ulu Rəbbimiz iki sevəni qovuşdursun. Verdiyi sözü yerinə yetirməmiş o, Qeyslə Leylinin üzünə baxa bilməzdi. Bilirdi ki, adil hökmdar Yəzid ibn Məzyəd ədalətsiz qərar verməz, aşiqləri onun yanına aparandan sonra bu məsələ həllini tapacaq.

Fəttah da artıq çıxılmaz durumda idi. Qızını itirməkdənsə, Qeyslə evlənməsinə razılaşmaqdan başqa çarəsi qalmamışdı. Bir də ki, son qərarı artıq hökmdar verəcəkdi.

Əl-Müləvvəh də xəbəri sevinclə qarşıladı. Nofəlgilə qoşulub yola birlikdə davam etdilər.

Leyli qoşa çinarın altında elə hey "Qeys… Qeys… Qeys…" deyə, sevgilisini səsləyirdi. Səsi get-gedə xırıldayırdı. Meşə dərvişləri qızın əzablarına dözə bilmədilər. Leylinin ətrafına toplanıb, onu əlləri üstündə yuxarı qaldırdılar. Sıraya düzülüb, əsgər dəstəsi kimi addımlayaraq, onu başları üstündə aparmağa başladılar. Xeyli getdikdən sonra Leylini bir neçə gün əvvəl Qeysi gizlətdikləri qumun altındakı sarayın qapısı önündə yerə uzatdılar. Sarayın qapısını açıb, yaxınlıqdakı qum təpəsinin arxasına çəkildilər.

Arzularının ilk bahar çiçəkləri kimi pöhrələndiyi həmin o yaz gününə kimi Qeys həmişə bir arayış içindəydi. Harda axtaracağını bilmədən gözündən daha artıq ruhu ilə aradığını tapdığı gün həm də həyatının ən böyük itkisini yaşamışdı.

Leylini tapdığı an qanadlanan Qeys indi ruhu bədənindən uçmuş kimi süstləşir, illərin nəfəsini bir udumda içinə çəkmiş kimi boğulurdu.

Təpənin üstündə oturduğu yerdə başını qaldırıb, düz bərabərindəki topa buluda zilləndi. Gömgöy səmadakı ağappaq bulud topası yayılıb-yayılıb Leyli oldu. Şükranlıq və riqqətlə əllərini üzünün bərabərinə tutdu. “Ya Rəbbim, naşükür bəndəni bağışla! Sən mənə Leylini yox, dünyanı, Cənnəti vermisən. Bağışla məni, ey Rəhman olan!” Ürəyindən keçirdiyi bu sözlər yaş olub gözlərindən sellendi. Geri dönəndə sarayının qapısı açıqdı.

Leylini isti qumlarda uzanmış görüb, onu bağrına basdı. Sevgilisi xəyalındakı kimi, qumluqda gördüyü, qanında, ruhunda, hər zaman onunla olan Leyli idi. Qız gözlərini açdı. Qeys Leylini dikəldib bağrına basdı. Qızın gözləri gülsə də, yanaqlarından yaş süzüldü. Həsrətlə sarılan sevgililərin gözləri ağappaq işıq saçıb, hər ikisinin gözlərini qamaşdırdı. Göy üzündən uzanan işıq seli get-gedə sevgililəri görünməz edir, özləri də işığa çevrilirdilər. Az sonra bu nur topası göylərdən gələn ağ işığın içində itdi və həmin işıq seli gəldiyi yerə çəkildi.

Bu mənzərəni izləyən dərvişlər əllərini qaldırıb birağızdan həmd-səna oxudular:

–Sənə şükürlər olsun, böyük Allah. Mələklərin qovuşdu və göylərə çəkildilər…

Meşə dərvişləri bütün gün sevincdən ağladılar. Allah lütf

edib, öz mələklərinin qovuşmasını onlara göstərmişdi. Dərvişlər uğrunda hər cür məhrumiyyətə dözüb getdikləri meşə yollarında əsl həqiqəti tapdılar. Daha burada qalmayacaq, bundan da uzaq, qalın və keçilməz meşələrə gedib bütün ağacları sevib, oxşayacaqdılar. Sevgilərini artırdıqca Allaha da bir o qədər yaxınlaşacaqdılar.

Bəbirxan artıq böyümüşdü. Qum təpəsinin üstünə çıxıb nərildədi. Ana ceyran və ata bəbir də onun səsinə səs verdilər. Sonra bütün heyvanlar Bəbirxanın səsinə səs verdilər. Heyvanlar sanki Leyli və Məcnunun qovuşmasını toy-bayram edirdilər.

Qoşa çinarların yanına çatanda Nofəl Qeys və Leylini əvvəlki yerlərində görmədi. Əsgərlər ətrafa səpələnib, hər yeri axtarmağa başladılar. Heç yerdə onlardan əsər-əlamət yox idi. Yeddi gün, yeddi gecə ətrafdakı meşələr, düzlər, səhralar didik-didik edildi. Nə Leylini, nə də Məcnunu gördüm deyən oldu. Ümidsiz Müləvvəh də, Fəttah da Nofəlin üzünə baxır, kömək umurdular. O isə rahatlıqla gülümsədi:

– Gedək, biz onları tapa bilməyəcəyik. Hökmdar bizi gözləyir. Onların harda olduqlarını hökmdarın hüzurunda deyəcəm. Məncə, onların yerini bilirəm, çox da xoşbəxtdirlər.

Onlar Bərdəyə çatanda qaş qaralırdı. Hökmdarın hüzurunda idilər.

– Bəyəm, onlar iynə olub yoxa çıxıblar?

Nofəl əlini sinəsinə qoyub dedi:

– Hökmdarım, biz onları yer üzündə tapa bilmərik.

İbn Məzyəd təəccübləndi:

– Niyə?

Nofəl hökmdardan izn alıb, sarayın eyvanına çıxdı. İbn Məzyəd, Müləvvəh və Fəttah da onun arxasınca eyvana çıxdılar.

– Ora baxın, – Nofəl əli ilə göy üzünü göstərdi.

Səmada qoşa ulduz bir-birlərinə qovuşub parlaq işıq saçırdılar. Çox keçməmiş Leyli və Qeys göründü. Qollarını bir-birlərinin boynuna dolayıb yer üzünə baxırdılar. Təbəssümləri yer üzünü isidirdi.

–Onlar gəldikləri yerə qayıtdılar. Onlar dünyanın ən parlaq ulduzlarıdır. Ən böyük sevgilər Allahdan yaranıb, Allaha da qayıdırlar…

## Epiloq əvəzi

Uzun illər hansısa bir qüvvə mənə deyirdi ki, "Leyli və Məcnun"u yaz. Böyük Nizamidən, Füzulidən sonra bu əsəri yazmağa tərəddüd edirdim.

Bir gün təsadüfən Bəndovana getmişdim. Palçıq vulkanlarının yaxınlığında, qızmar günəşin altında tək-tənha oturub, yenə Leyli və Məcnunu düşünürdüm.

Uzaqdan mənə doğru bir nəfərin gəldiyini gördüm. Bir qədər də irəliləyib, yerində durub qaldı. Əynində min il əvvəl ərəblərin geydiyi paltar vardı. On altı-on yeddi yaşlarında ancaq olardı. Yerimdən dik atıldım. Aman Allahım, bu insan mənim gəncliyimin eynisi idi. Hər kəs o yaşda necə olduğunu yaxşı xatırlayır.

– Sən kimsən? – soruşdum.

– Mən Qeysəm, – dedi.

– Niyə mənim gəncliyimin eynisisən?

– Sən də mənim özümsən. Min il əvvəl Qeys kimi doğuldum, altmış beşdə yenidən sən olaraq doğulmuşam. Yaxşı düşün, beynini qurdala, min il əvvəl başımıza gələn hər şeyi yalnız sən xatırlayacaqsan. Bunu özün yaz. Bu, Leyli və Məcnun haqqında ən doğru hekayə olacaq. Çünki bu bizim öz hekayətimizdir…